6.2. Maliyyə icarəsi ödənişlərinin məbləği və ödənilmə qaydası bu Qanunun tələbləri nəzərə alınmaqla maliyyə icarəsi müqaviləsində müəyyən edilir.

6.3. İcarəçinin maliyyə icarəsi ödənişlərinin edilməsi ilə bağlı vəzifələri, maliyyə icarəsi müqaviləsi ilə ayrı qayda nəzərdə tutulmadıqda, icarəçinin maliyyə icarəsi obyektinə sahibliyə başladığı vaxtdan yaranır.

6.4. Maliyyə icarəsi müqaviləsində maliyyə icarəsi ödənişlərinin həyata keçirilməsinə maliyyə icarəsi obyektindən istifadə hüququ yarandığı vaxtdan 180 (yüz səksən) gün keçənədək möhlət verilməsi nəzərdə tutula bilər.

6.5.Maliyyə icarəsi ödənişləri bilavasitə icarəyə verənin hesabına köçürülür (bu Qanunun 8.1.4-cü maddəsinə uyğun olaraq, icarəyə verən tərəfindən maliyyə icarəsi müqaviləsindən irəli gələn hüquqların güzəşt edilməsi halları istisna olmaqla).

**Maddə 7. Subicarə**

7.1. Maliyyə icarəsi müqaviləsində nəzərdə tutulduqda və ya icarəyə verənin bu barədə yazılı razılığı olduqda icarəçi maliyyə icarəsi müqaviləsinin qüvvədə olduğu müddətdə maliyyə icarəsi obyektini subicarə müqaviləsinin şərtlərinə əsasən müəyyən müddətə üçüncü şəxsin (subicarə müqaviləsinə əsasən icarəçi) sahibliyinə və istifadəsinə verə bilər. Subicarə müqaviləsinin müddəti müvafiq maliyyə icarəsi müqaviləsinin son müddətindən artıq ola bilməz.

7.2. Subicarə müqaviləsi yazılı formada bağlanılır. İcarəçi subicarə müqaviləsinin bağlanılmasından asılı olmayaraq maliyyə icarəsi müqaviləsi üzrə öhdəliklərin icrasına görə məsuliyyət daşıyır.

7.3. Maliyyə icarəsi müqaviləsinin ləğv edildiyi və ya etibarsız hesab edildiyi hallarda subicarə müqaviləsi də müvafiq olaraq ləğv edilmiş və ya etibarsız hesab edilir.

7.4. Maliyyə icarəsinin obyekti subicarəyə verildikdə satıcıya qarşı tələb hüququ subicarə müqaviləsi üzrə icarəçiyə keçir.

7.5. Bu Qanunda və ya maliyyə icarəsi müqaviləsində başqa hal nəzərdə tutulmadıqda subicarə müqaviləsinə maliyyə icarəsi müqaviləsinin qaydaları şamil edilir.

**Maddə 8. İcarəyə verənin hüquqları və vəzifələri**

8.1. İcarəyə verənin aşağıdakı hüquqları vardır:

8.1.1. maliyyə icarəsi müqaviləsində nəzərdə tutulduğu halda, dövri olaraq icarəçidən onun maliyyə hesabatlarının (maliyyə vəziyyətini əks etdirən hesabatların) təqdim edilməsini tələb etmək və maliyyə icarəsi obyektinin vəziyyətini və istismar şəraitini yoxlamaq məqsədilə maliyyə icarəsi obyektinə baxış keçirmək;

8.1.2. maliyyə icarəsi müqaviləsində nəzərdə tutulduğu halda, icarəçi öz hərəkətləri (hərəkətsizliyi) ilə maliyyə icarəsi obyektinin məhvi, itirilməsi, zədələnməsi üçün təhlükə yaratdıqda, yaxud icarəçi maliyyə icarəsi müqaviləsinin şərtlərini əhəmiyyətli dərəcədə pozduqda müvafiq hallar aradan qaldırılanadək icarəçidən maliyyə icarəsi obyektindən istifadə hüququnun məhdudlaşdırılmasını və ya dayandırılmasını tələb etmək;

8.1.3. borc vəsaitlərinin cəlb edilməsi məqsədilə maliyyə icarəsi obyektini girovla (ipoteka ilə) yüklü etmək;

8.1.4. maliyyə icarəsi obyekti ilə bağlı və ya maliyyə icarəsi müqaviləsindən irəli gələn hüquqlarını tam və ya qismən maliyyə icarəsi fəaliyyətini həyata keçirən şəxslərə güzəşt etmək (bu halda hüquqları əldə edən şəxsə icarəyə verənin bu Qanunla və maliyyə icarəsi müqaviləsi ilə müəyyən edilmiş vəzifələri də keçir);

8.1.5. bu Qanunun 10-cu maddəsində nəzərdə tutulmuş hallarda maliyyə icarəsi müqaviləsini vaxtından əvvəl ləğv etmək.

8.2. İcarəyə verənin vəzifələri aşağıdakılardır:

8.2.1. bu Qanunun 5.4-cü və 9.1.1-ci maddələri nəzərə alınmaqla, satıcı ilə alqı-satqı müqaviləsini bağlamaq;

8.2.2. maliyyə icarəsi obyekti üzrə üçüncü şəxslərin hüquqları, o cümlədən maliyyə icarəsi obyektinin yüklülüyü barədə icarəçini məlumatlandırmaq;

8.2.3. icarəçinin razılığı olmadan alqı-satqı müqaviləsində maliyyə icarəsi müqaviləsindən irəli gələn öhdəliklərin icrasına təsir edən dəyişiklik etməmək;

8.2.4. maliyyə icarəsi obyektini maliyyə icarəsi müqaviləsinin şərtlərinə uyğun olaraq icarəçinin sahibliyinə və istifadəsinə vermək;

8.2.5. maliyyə icarəsi müqaviləsində nəzərdə tutulduğu halda maliyyə icarəsi müqaviləsinin müddəti bitdikdən sonra maliyyə icarəsi obyekti üzərində mülkiyyət hüququnu icarəçiyə ötürmək;

8.2.6. maliyyə icarəsi ilə əlaqədar bağladığı müqavilələrdən irəli gələn digər öhdəlikləri lazımi qaydada və vaxtında icra etmək.

8.3. Maliyyə icarəsi müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, maliyyə icarəsinin obyekti, onun satıcısı və (və ya) alqı-satqı müqaviləsinin şərtləri icarəçi tərəfindən müəyyən edildiyi halda, icarəyə verən satıcı tərəfindən alqı-satqı müqaviləsinin şərtlərinin icrasına görə icarəçi qarşısında məsuliyyət daşımır.

8.4. İcarəyə verən sahibliyə və istifadəyə verilmiş maliyyə icarəsi obyektinin maliyyə icarəsi müqaviləsi bağlanarkən şərtləşdirilmiş və ya icarəçiyə əvvəlcədən məlum olan, yaxud icarəçinin maliyyə icarəsi obyektini nəzərdən keçirərkən və ya onun sazlığını yoxlayarkən aşkar oluna bilən çatışmazlıqlar üçün məsuliyyət daşımır.

8.5. İcarəyə verən maliyyə icarəsi müqaviləsi, o cümlədən icarəçi barədə məlumatların "Kommersiya sirri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq qorunmasını təmin etməlidir.

**Maddə 9. İcarəçinin hüquqları və vəzifələri**

9.1. İcarəçi aşağıdakı hüquqlara malikdir:

9.1.1. maliyyə icarəsi obyektini sifariş etmək və (və ya) onun satıcısını müəyyən etmək;

9.1.2. maliyyə icarəsi obyektinin satıcısına qanundan və alqı-satqı müqaviləsindən irəli gələn tələbləri irəli sürmək;

9.1.3. icarəyə verən maliyyə icarəsi müqaviləsinə uyğun olaraq, öhdəliklərini icra etmədikdə və ya lazımınca icra etmədikdə onun tərəfindən müvafiq çatışmazlıqlar aradan qaldırılanadək maliyyə icarəsi ödənişlərini dayandırmaq;

9.1.4. icarəyə verən bu Qanunun 8.1.2-ci maddəsində nəzərdə tutulan hüquqlarından əsassız istifadə etdikdə bunun nəticəsində vurulmuş zərərin ödənilməsini icarəyə verəndən tələb etmək;

9.1.5. maliyyə icarəsi müqaviləsində başqa hal nəzərdə tutulmadıqda, müqavilənin müddəti bitdikdən sonra alış qiymətini ödəməklə əmlakı əldə etmək, icarəyə verənlə qarşılıqlı razılıq əsasında maliyyə icarəsi müqaviləsinin müddətini uzatmaq və ya maliyyə icarəsi obyektini geri qaytarmaq;

9.1.6. maliyyə icarəsi müqaviləsində nəzərdə tutulduğu halda və ya icarəyə verənlə qarşılıqlı razılıq əsasında maliyyə icarəsi ödənişlərini vaxtından əvvəl icra etmək və maliyyə icarəsi obyekti üzrə mülkiyyət hüququnu əldə etmək.

9.2. İcarəçi maliyyə icarəsi müqaviləsində nəzərdə tutulmadan və ya icarəyə verənin yazılı razılığı olmadan:

9.2.1. maliyyə icarəsi obyektini kirayəyə, o cümlədən icarəyə, subicarəyə verə və ya hər hansı formada yüklü edə bilməz;

9.2.2. müqavilədən irəli gələn hüquqlarını üçüncü şəxslərə güzəşt edə bilməz.

9.3. İcarəçinin vəzifələri aşağıdakılardır:

9.3.1. maliyyə icarəsi ödənişlərini maliyyə icarəsi müqaviləsində nəzərdə tutulan müddətlərdə və qaydada həyata keçirmək;

9.3.2. maliyyə icarəsi müqaviləsində başqa hal nəzərdə tutulmadıqda, maliyyə icarəsi obyektinin qəbul edilməsi və maliyyə icarəsi obyektinin alqı-satqı müqaviləsindən irəli gələn tələblərin irəli sürülməsi ilə bağlı öhdəlikləri yerinə yetirmək;

9.3.3. bu Qanunun 11.2-ci maddəsində nəzərdə tutulduğu halda, çatdırılmış və quraşdırılmış maliyyə icarəsi obyektinin çatdırılması (quraşdırılması) barədə təhvil-təslim (quraşdırma) aktlarının bir nüsxəsini icarəyə verənə təqdim etmək;

9.3.4. maliyyə icarəsi müqaviləsinin qüvvədə olduğu müddət ərzində maliyyə icarəsi obyektinin salamatlığını təmin etmək, onu işlək vəziyyətdə saxlamaq və yalnız maliyyə icarəsi müqaviləsinin şərtlərinə uyğun istifadə etmək;

9.3.5. maliyyə icarəsi müqaviləsi ilə başqa hal nəzərdə tutulmadıqda, maliyyə icarəsi obyektinin daşınması, qəbulu, quraşdırılması, sökülməsi, istismarı, saxlanması, qorunması, texniki xidmət göstərilməsi, cari və orta təmiri ilə bağlı bütün xərcləri və digər əlaqədar xərcləri çəkmək;

9.3.6. maliyyə icarəsi obyektinə üçüncü şəxslərin istənilən qəsd halları barədə icarəyə verəni məlumatlandırmaq;

9.3.7. maliyyə icarəsi müqaviləsində nəzərdə tutulduğu halda (geriyə maliyyə icarəsində bu şərtdən asılı olmayaraq), maliyyə icarəsi müqaviləsinin müddəti bitdikdən sonra maliyyə icarəsi obyekti üzərində mülkiyyət hüququnu əldə etmək, yaxud geriyə maliyyə icarəsi halı istisna olmaqla maliyyə icarəsi obyektini normal aşınma nəzərə alınmaqla, müqavilənin şərtlərinə uyğun vəziyyətdə icarəyə verənə qaytarmaq.

9.4. Bu Qanuna uyğun olaraq, icarəçinin məsuliyyət daşıdığı əmlak risklərinin yaranması onumaliyyə icarəsi ödənişlərini ödəmək vəzifəsindən azad etmir.

**Maddə 10. Maliyyə icarəsi müqaviləsinin vaxtından əvvəl ləğvi**

10.1. İcarəyə verən maliyyə icarəsi müqaviləsini aşağıdakı hallarda vaxtından əvvəl ləğv edə bilər:

10.1.1. icarəçinin maliyyə icarəsi obyektindən istifadə şəraiti maliyyə icarəsi müqaviləsinin şərtlərinə və ya maliyyə icarəsi obyektinin təyinatına uyğun olmadıqda;

10.1.2. icarəçi tərəfindən bu Qanunun 9.2-ci maddəsinin tələbləri pozulduqda;

10.1.3. icarəçi maliyyə icarəsi obyektini işlək halda saxlamadıqda və bu da onun istismara yararlılıq vəziyyətini pisləşdirdikdə;

10.1.4. bu Qanunun 9.1.3-cü maddəsində nəzərdə tutulan hal istisna olmaqla, icarəçi maliyyə icarəsi ödənişlərini təqvim ili ərzində üç dəfə və ya maliyyə icarəsi müqaviləsində nəzərdə tutulan ödəniş müddətləri üzrə ardıcıl olaraq iki dəfə ödəmədikdə;

10.1.5. icarəçi icarəyə verənin bu Qanunun 8.1.1-ci və ya 8.1.2-ci maddələrində nəzərdə tutulmuş tələblərinə əməl etmədikdə;

10.1.6. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 422-ci maddəsində nəzərdə tutulmuş hallarda;

10.1.7. icarəçinin sahibkarlıq fəaliyyətinə xitam verildikdə, icarəçi ləğv edildikdə və ya müflis elan olunduqda.

10.2. İcarəçi maliyyə icarəsi müqaviləsini bu Qanunun 9.1.3-cü maddəsində nəzərdə tutulan hallarda maliyyə icarəsi obyektini geri qaytarmaqla vaxtından əvvəl ləğv edə və vurulmuş zərərin ödənilməsini icarəyə verəndən tələb edə bilər. Bu zaman icarəçi tərəfindən icarəyə verəndən maliyyə icarəsi ödənişlərinin geri qaytarılması tələb edildikdə maliyyə icarəsi müddəti ərzində maliyyə icarəsi obyektindən icarəçinin əldə etdiyi faydanın ağlabatan dəyəri geri qaytarılan maliyyə icarəsi ödənişlərindən çıxılır.

10.3. Maliyyə icarəsi müqaviləsi vaxtından əvvəl ləğv edildiyi halda, icarəyə verən maliyyə icarəsi obyektini digər icarəçiyə təkrar maliyyə icarəsinə verə bilər. Maliyyə icarəsi obyektinin alqı-satqı müqaviləsi üzrə satıcının icra olunmamış öhdəlikləri mövcud olduqda icarəyəverən maliyyə icarəsi obyektinin satıcısını yeni icarəçi barədə məlumatlandırmalıdır.

**Maddə 11. Satıcının hüquqları və vəzifələri**

11.1. Satıcı icarəçi və icarəyə verən qarşısında qanundan və alqı-satqı müqaviləsindən irəli gələn öhdəlikləri daşıyır. Bu zaman icarəçi və icarəyə verən satıcı qarşısında birgə kreditorlar kimi çıxış edir.

11.2. Alqı-satqı müqaviləsində satıcı tərəfindən maliyyə icarəsi obyektinin icarəçiyə razılaşdırılmış müddətdə və yerə çatdırılması (quraşdırılması) nəzərdə tutulduqda, bu şərtin icrası satıcı və icarəçi tərəfindən imzalanmış təhvil-təslim (quraşdırma) aktlarının imzalanması ilə rəsmiləşdirilir və həmin aktların bir nüsxəsi icarəyə verənə təqdim edilir.

11.3. Alqı-satqı müqaviləsində nəzərdə tutulduqda, maliyyə icarəsi obyektinə texniki xidmət satıcı tərəfindən həyata keçirilir.

### 3-cü fəsil
### MALİYYƏ İCARƏSİ SUBYEKTLƏRİNİN ƏMLAK HÜQUQLARININ TƏMİNATI

**Maddə 12. Maliyyə icarəsi zamanı əmlak münasibətləri**

12.1. İcarəçinin sahibliyinə və istifadəsinə verilmiş maliyyə icarəsi obyekti icarəyə verənin mülkiyyətidir.

12.2. Maliyyə icarəsi müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa maliyyə icarəsi obyektinə sahiblik və istifadə hüquqları icarəçiyə tam həcmdə keçir.

**Maddə13. Maliyyə icarəsi subyektləri arasında risklərin bölüşdürülməsi və sığortalanması**

13.1. Maliyyə icarəsi obyektinin zərərdən qorunması, o cümlədən onun məhv edilməsi, itirilməsi, zədələnməsi, oğurlanması, vaxtından əvvəl sıradan çıxması, quraşdırılması və ya istifadəsi zamanı buraxılan səhvlərdən və yol verilən risklərdən qorunması ilə bağlı məsuliyyəti maliyyə icarəsi müqaviləsi ilə ayrı qayda nəzərdə tutulmamışdır samaliyyə icarəsi obyektinin faktiki qəbulu anından icarəçi daşıyır. Maliyyə icarəsi müqaviləsində bu risklərin və (və ya) sahibkarlıq risklərinin sığortalanması nəzərdə tutulduqda müqavilədə sığortalı (sığorta etdirən) və faydalanan şəxs, sığorta müqaviləsinin müddəti və sığortalanma ilə bağlı tərəflərin zəruri hesab etdiyi digər şərtlər müəyyən olunur.

13.2. Satıcının maliyyə icarəsi obyektinin alqı-satqı müqaviləsi üzrə öhdəliklərini vaxtında və lazımınca yerinə yetirməməsi və ya satıcının müflisləşməsi ilə bağlı riskin məsuliyyətini, əgər maliyyə icarəsi müqaviləsi ilə ayrı qayda nəzərdə tutulmamışdırsa satıcını seçən tərəf daşıyır.

13.3. Maliyyə icarəsi obyektinin maliyyə icarəsi müqaviləsinə əsasən istifadə məqsədlərinə uyğunsuzluğu ilə bağlı riskin məsuliyyətini, maliyyə icarəsi müqaviləsi ilə ayrı qayda nəzərdə tutulmamışdırsa maliyyə icarəsi obyektini seçən tərəf daşıyır.

13.4. İcarəçi qanunla müəyyən edilən hallarda maliyyə icarəsi obyektinin istifadəsi prosesində digər şəxslərin həyatına, sağlamlığına və ya əmlakına dəyən zərər nəticəsində yaranan öhdəliklərə görə öz məsuliyyətini sığortalamalıdır.

13.5. Maliyyə icarəsi obyekti və onun istifadəsi ilə əlaqəli risklərin sığortalanmasına dair digər münasibətlər tərəflərin qarşılıqlı razılığı ilə müəyyən olunur.

**Maddə 14. Tələblərin maliyyə icarəsi obyektinə yönəldilməsi**

14.1. Bu Qanunda və maliyyə icarəsi müqaviləsində nəzərdə tutulan hallar istisna olmaqla maliyyə icarəsi müqaviləsinin qüvvədə olduğu müddət ərzində icarəyə verən maliyyə icarəsi obyekti ilə bağlı tələb irəli sürə bilməz.

14.2. İcarəçinin öhdəlikləri üzrə üçüncü şəxslərin tələbləri maliyyə icarəsi obyektinə yönəldilə bilməz.

14.3. İcarəyə verənin öhdəlikləri üzrə icarəyə verənin kreditorlarının, o cümlədən təminatlı kreditorlarının icarəçinin sahibliyində və istifadəsində olan maliyyə icarəsi obyektinə dair tələbləri yalnız icarəyə verənin bu Qanundan və maliyyə icarəsi müqaviləsindən irəli gələn hüquqlarına yönəldilmiş hesab olunur. Bu halda icarəyə verənin vəzifələri də həmin kreditorlara keçir.

14.4. Bu Qanunun 14.3-cü maddəsinin müddəaları icarəyə verənin müflis elan olunduğu halda da tətbiq edilir və bu zaman maliyyə icarəsi obyektinə tələblərin yönəldilməsinin digər xüsusiyyətləri "Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

### 4-cü fəsil
### MALİYYƏ İCARƏSİ FƏALİYYƏTİNİN TƏNZİMLƏNMƏSİ VƏ NƏZARƏT

**Maddə 15. Maliyyə icarəsi fəaliyyətinə dair tələblər**

15.1. Maliyyə icarəsi fəaliyyəti üzrə tənzimləmə və nəzarət bu Qanuna uyğun olaraq Mərkəzi Bank tərəfindən həyata keçirilir.

15.2. Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış hüquqi şəxsvə ya xarici hüquqi şəxsin yerli filialı maliyyə icarəsi fəaliyyətini Mərkəzi Bank tərəfindən aparılan maliyyə icarəsi verənlərin reyestrinə (bundan sonra - reyestr) daxil edildikdən sonra həyata keçirə bilər. Reyestrə daxil edilmə üçün "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu ödənilir.

15.3. Maliyyə icarəsi fəaliyyəti ilə məşğul olmayan şəxslərin adında "maliyyə icarəsi", "maliyyə lizinqi", "lizinq" sözləri və ya bu sözlərdən ibarət söz birləşməsinin istifadə edilməsi qadağandır.

15.4. İcarəyə verənin (xarici hüquqi şəxsin yerli filialı istisna olmaqla) filialı tərəfindən maliyyə icarəsi fəaliyyəti bu Qanunun 16.14-cü maddəsinə uyğun olaraq, Mərkəzi Banka məlumat verilməklə həyata keçirilə bilər.

15.5. Maliyyə icarəsi fəaliyyətini həyata keçirən hüquqi şəxs minimum nizamnamə kapitalına və öz vəsaitlərinə (xarici hüquqi şəxsin yerli filialı həmin vəsaitlərə bərabər tutulmuş vəsaitlərə) malik olmalıdır. Maliyyə icarəsi fəaliyyətini həyata keçirən hüquqi şəxsin nizamnamə kapitalının (xarici hüquqi şəxsin yerli filialının nizamnamə kapitalına bərabər tutulmuş vəsaitlərinin) minimum məbləği və formalaşdırılması, habelə öz vəsaitlərinin (xarici hüquqi şəxsin yerli filialının həmin vəsaitlərə bərabər tutulmuş vəsaitlərinin) hesablanması qaydası, strukturu və tərkibi Mərkəzi Bank tərəfindən müəyyən edilir.

15.6. İcarəyə verənlə aidiyyəti şəxslər arasında əqdlərin bağlanılması Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-1-ci maddəsi ilə tənzimlənir. Aidiyyəti şəxslə (şəxslərlə) bağlanılan maliyyə icarəsi müqavilələrinin maksimum məbləği və həmin şəxslərlə aparılan əməliyyatlara dair tələblər Mərkəzi Bank tərəfindən müəyyən edilir.

15.7. İcarəyə verən bir icarəçi və ya bir-biri ilə əlaqədar icarəçilər qrupu üçün Mərkəzi Bank tərəfindən müəyyən edilən kredit risklərinin maksimum miqdarına dair tələblərə əməl etməlidir.

15.8. İcarəyə verən maliyyə icarəsi fəaliyyəti ilə bağlı həyata keçirdiyi əməliyyatlar, risklərin idarə olunması və maliyyə icarəsi fəaliyyəti üzərində nəzarətə dair daxili qaydalara malik olmalıdır.

*Ardı 7-ci səh.*

# Maliyyə icarəsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 6-cı səh.*

15.9. İcarəyə verənlər hər bir icarəçi haqqında məlumatı Mərkəzi Bankın müəyyən etdiyi qaydada Mərkəzi Bankda yaradılan mərkəzləşdirilmiş kredit reyestrinə, habelə"Kredit büroları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən fəaliyyətdə olan azı bir kredit bürosuna təqdim etməli və həmin Qanundan irəli gələn tələblərə əməl etməlidirlər.

15.10. İcarəyə verən maliyyə icarəsi fəaliyyətinin həyata keçirilməsi zamanı öhdəlik daşıyan şəxs qismində"Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında"və "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikası qanunlarının tələblərinə riayət etməlidir.

15.11. İcarəyə verən maliyyə icarəsi fəaliyyətindən başqa qanunla qadağan edilməyən digər fəaliyyətlə də məşğul ola bilər.

**Maddə 16. İcarəyə verənin reyestrə daxil edilməsi**

16.1. Mərkəzi Bank tərəfindən aparılan reyestr ictimaiyyət üçün açıqdır. Reyestrə icarəyə verənlərin adları, hüquqi ünvanı, filialları, idarəetmə funksiyalarını həyata keçirən şəxslərin adları, reyestrə daxiledilmə nömrəsi və tarixi, maliyyə icarəsi fəaliyyətinin məhdudlaşdırılması, dayandırılması, habelə reyestrdən çıxarılmış icarəyə verənlər haqqında məlumatlar daxil edilir.

16.2. Bu Qanunun 16.15-ci maddəsinin tələbləri nəzərə alınmaqla, hüquqi şəxs reyestrə daxil edilmək üçün ərizə ilə birlikdə Mərkəzi Banka aşağıdakı sənədləri və məlumatları təqdim etməlidir:

16.2.1. hüquqi şəxsin nizamnaməsinin, habelə dövlət qeydiyyatı haqqında şəhadətnamənin və hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın notariat qaydasında və ya "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinə müvafiq olaraq təsdiqlənmiş surəti;

16.2.2. nizamnamə kapitalının miqdarı, hər bir iştirakçının payı (səhmi) və payın (səhmin) əldə edilməsinə yönəldilən vəsaitin mənbəyi haqqında sənədlər və məlumatlar;

16.2.3. hüquqi şəxsin idarəetmə funksiyalarını yerinə yetirən şəxslərin (müşahidə (direktorlar) şurasının (olduqda) və icra orqanının üzvləri) siyahısı və onların vətəndaş qüsursuzluğuna dair məlumat, həmin şəxslər əcnəbi olduqda, rezidenti olduğu ölkənin müvafiq dövlət orqanları tərəfindən onların cinayət məsuliyyətinə cəlb olunub-olunmadığı barədə verilmiş və normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada leqallaşdırılmış və ya apostilverilmiş arayış;

16.2.4. Mərkəzi Bankın müəyyən etdiyi formada iştirakçılar arasında münasibətlər və benefisiar mülkiyyətçilər, o cümlədən benefisiar mülkiyyətçilərin bu Qanunla müəyyən edilmiş vətəndaş qüsursuzluğu haqqında məlumat, benefisiar mülkiyyətçi əcnəbi olduqda isə rezidenti olduğu ölkənin müvafiq dövlət orqanları tərəfindən onun cinayət məsuliyyətinə cəlb olunub-olunmadığı barədə verilmiş və normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada leqallaşdırılmış və ya apostil verilmiş arayış;

16.2.5. hüquqi şəxsin mühüm iştirak payının sahiblərribarədə məlumat (adları, ünvanları, nizamnamə kapitalında iştirak payları, fəaliyyətləri (məşğuliyyətləri), payların əldə edilməsinə yönəldilən vəsaitlərin mənbəyi), onların (mühüm iştirak payının sahibi hüquqi şəxs olduqda, onun icra orqanının rəhbərinin)vətəndaş qüsursuzluğuna dair məlumat, bu şəxslər əcnəbi olduqda isə rezidenti olduqları ölkənin müvafiq dövlət orqanları tərəfindən onların cinayət məsuliyyətinə cəlb olunub-olunmadığı barədə verilmiş və normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada leqallaşdırılmış və ya apostil verilmiş arayış;

16.2.6. hüquqi şəxsin mühüm iştirak payının sahibi xarici hüquqi təsisatın idarəçisi qismində çıxış edən şəxs olduqda bunu təsdiq edən sənəd, özünün və digər idarəçilərin (olduğu təqdirdə) xarici hüquqi təsisat təsisçisinin, xarici hüquqi təsisat benefisiarının (benefisiarlar qrupunun), xarici hüquqi təsisat təminatçısının (olduğu təqdirdə), habelə xarici hüquqi təsisat üzərində effektiv nəzarəti həyata keçirən digər şəxsin soyadını, adını, atasının adını (olduğu təqdirdə), doğum tarixini, fərdi identifikasiya nömrəsini və ya şəxsiyyətini təsdiq edən sənədin nömrəsini, vətəndaşlığını, daimi yaşayış yerini (bu şəxslər hüquqi şəxs olduqda onların adı və eyniləşdirmə nömrəsini) təsdiq edən sənədlərin və xarici hüquqi təsisatın təsis sənədinin normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada leqallaşdırılmış və ya apostil verilmiş surəti, həmin şəxslər "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun məqsədləri üçün siyasi nüfuzlu şəxslər, onların yaxın qohumları və ya yaxın münasibətdə olduqları şəxslər olduqda bu barədə məlumat;

16.2.7. bu Qanunun 15.8-ci maddəsində nəzərdə tutulan daxili qaydalar.

16.3. Bu Qanunun 16.15-ci maddəsinin tələbləri nəzərə alınmaqla, xarici hüquqi şəxsin yerli filialının reyestrə daxil edilməsi üçün həmin xarici hüquqi şəxs aşağıdakı sənədləri və məlumatları Mərkəzi Banka təqdim etməlidir:

16.3.1. xarici hüquqi şəxsin nizamnaməsinin, habelə bu Qanunun 16.2.1-ci maddəsində nəzərdə tutulmuş qaydada təsdiq olunan filialın təsis sənədlərinin surəti;

16.3.2. filiala ayrılmış vəsaitin Mərkəzi Bank tərəfindən müəyyən edilmiş minimum miqdardan az olmamasını təsdiqləyən sənəd;

16.3.3. filial rəhbərinin vətəndaş qüsursuzluğuna dair məlumat, həmin şəxs əcnəbi olduqda rezidenti olduğu ölkənin müvafiq dövlət orqanları tərəfindən onun cinayət məsuliyyətinə cəlb olunub-olunmadığı barədə verilmiş və normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada leqallaşdırılmış və ya apostil verilmiş arayış;

16.3.4. xarici hüquqi şəxsin mühüm iştirak payına malik olan şəxslərinin payı göstərilməklə siyahısı;

16.3.5. xarici hüquqi şəxsin maliyyə icarəsi fəaliyyəti ilə məşğul olmasını təsdiq edən sənəd;

16.3.6. xarici hüquqi şəxsin beynəlxalq maliyyə bazarlarında fəaliyyəti barədə məlumat;

16.3.7. son maliyyə ili üçün auditor yoxlamasından keçmiş maliyyə hesabatı və auditor rəyi;

16.3.8. bu Qanunun 15.8-ci maddəsində nəzərdə tutulan daxili qaydalar.

16.4. Əcnəbilər və xarici hüquqi şəxslər tərəfindən təqdim olunan sənədlər Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə başqa hal nəzərdə tutulmadıqda normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada leqallaşdırılır və Azərbaycan dilinə tərcüməsi notariat qaydasında təsdiq olunur.

16.5. Təqdim edilən sənədlərdəki məlumatların yoxlanılması məqsədilə Mərkəzi Bank müstəqil və etibarlı mənbələrdən, habelə aidiyyəti dövlət orqanlarından (qurumlarından) məlumatlar əldə edə bilər. Dövlət orqanları (qurumları) Mərkəzi Bankın sorğu etdiyi məlumatı 7 (yeddi) iş günü müddətində verməlidirlər. Dövlət orqanları (qurumları) sorğu edilən məlumatların dövlət sirri istisna olmaqla, kommersiya sirri, vergi sirri və ya qanunla mühafizə olunan digər konfidensial məlumatlara aid olmasına istinad etməklə həmin məlumatların verilməsindən imtina edə bilməzlər.

16.6. Mərkəzi Bank ərizə ilə birlikdə təqdim olunan sənədlərə daxil olduğu gündən 60 (altmış) gün müddətində baxmalıdır.

16.7. Mərkəzi Bank baxılmaq üçün təqdim olunmuş sənədlərdə çatışmazlıqlar aşkar etdikdə, bu barədə ərizənin daxil olduğu tarixdən 15 (on beş) iş günü müddətində müraciət edənə yazılı bildiriş təqdim etməlidir.

16.8. Müraciət edən çatışmazlıqları yazılı bildiriş aldığı tarixdən ən geci15 (on beş) iş günü müddətində aradan qaldırmalıdır. Mərkəzi Bank tərəfindən yazılı bildirişin təqdim edilməsi bu Qanunun 16.6-cı maddəsində müraciətə baxılması üçün müəyyən edilmiş müddətin axımını dayandırır və dayandırılmış müddət müraciətə baxılması müddətinə daxil edilmir. Müraciət edən tərəfindən çatışmazlıqların aradan qaldırılması barədə Mərkəzi Banka yazılı məlumat daxil olduqdan sonra müddətin axımı bərpa olunur.

16.9. Bu Qanunun 16.10-cu maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, müraciət edən şəxsin reyestrə daxil edilməsi barədə qərar qəbul edildikdə Mərkəzi Bank tərəfindən müraciət edənə 2 (iki) iş günü müddətində dövlət rüsumunun ödənilməsi haqqında məlumat verilir. Dövlət rüsumunun ödənildiyini təsdiq edən sənəd Mərkəzi Banka təqdim edildikdən sonra 2 (iki) iş günündən gec olmayaraq müraciət edən şəxs reyestrə daxil edilirvə bu barədə 2 (iki) iş günü müddətində ona yazılı məlumat verilir.Dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd 5 (beş) iş günü müddətində təqdim edilmədikdə reyestrə daxil edilmə barədə qərar Mərkəzi Bank tərəfindən ləğv edilir və bu barədə 2 (iki) iş günü müddətində müraciət edənə yazılı məlumat verilir. Mərkəzi Bank tərəfindən müraciət edən şəxsin reyestrə daxil edildiyi gündən etibarən 5 (beş) iş günü müddətində bu barədə vergi orqanına məlumat verilir.

16.10. Aşağıdakı hallarda Mərkəzi Bank müraciət edən şəxsi reyestrə daxil etməkdən imtina edir:

16.10.1. müraciət edən ona yazılı bildirişdə qeyd olunmuş çatışmazlıqları bu Qanunun 16.8-ci maddəsi ilə müəyyən olunan müddətdə aradan qaldırmadıqda;

16.10.2. təqdim edilmiş sənədlərdə qeyri-dürüst və ya təhrif olunmuş məlumatlar aşkar edildikdə;

16.10.3. təqdim edilmiş sənədlərdə bu Qanunun tələbləri ilə uyğunsuzluq aşkar edildikdə;

16.10.4. ödənilmiş nizamnamə kapitalının məbləği və ya xarici hüquqi şəxsin yerli filialına ayrılmış vəsait Mərkəzi Bankın müəyyən etdiyi tələblərə cavab vermədikdə;

16.10.5. idarəetmə funksiyalarını yerinə yetirən şəxslər, xarici hüquqi şəxsin yerli filialının rəhbəri, mühüm iştirak payı sahibləri (mühüm iştirak payının sahibi hüquqi şəxs olduqda, onun icra orqanının rəhbəri) və ya benefisiar mülkiyyətçilər vətəndaş qüsursuzluğu tələblərinə cavab vermədikdə;

16.10.6. mühüm iştirak pay sahiblərinin və ya benefisiar mülkiyyətçilərin icarəyə verənə təsirinin onun etibarlı və prudensial idarə edilməsi üçün təhlükə törədəcəyinə əsaslar verən faktlar mövcud olduqda və ya müraciət edənin nizamnamə kapitalının mənbəyi məlum olmadıqda;

16.10.7. xarici hüquqi şəxsin maliyyə vəziyyəti xarici hüquqi şəxsin yerli filialının təhlükəsiz fəaliyyəti baxımından qeyri-qənaətbəxş olduqda.

16.11. Mərkəzi Bank müraciət edən şəxsin reyestrə daxil edilməsindən imtina etdikdə, bu barədə əsaslandırılmış qərarın qəbul olunduğu gündən 2 (iki) iş günü müddətində müraciət edənə və vergi orqanına yazılı məlumat verilir. İmtina barədə qərardan məhkəməyə şikayət verilə bilər.

16.12. İmtina barədə qərar qəbul edildiyi halda və ya bu Qanunun 16.9-cu maddəsinə əsasən reyestrə daxil edilmə barədə qərar ləğv edildiyi halda müraciət edən reyestrə daxil edilmək üçün təkrar ərizə ilə 6 (altı) aydan tez olmayaraq Mərkəzi Banka müraciət edə bilər. Bu halda müraciətə bu Qanunun 16.2-ci maddəsinə uyğun olaraq yeni müraciət kimi baxılır.

16.13. İcarəyə verənin adı, ünvanı, idarəetmə funksiyalarını yerinə yetirən şəxsləri, o cümlədən maliyyə icarəsi fəaliyyətini həyata keçirən filialın rəhbəri, mühüm iştirak payının sahibləri və ya benefisiar mülkiyyətçiləri dəyişdikdə icarəyə verən bu barədə 5 (beş) iş günü müddətində Mərkəzi Banka yazılı məlumat verməlidir. Məlumata dəyişikliyi təsdiq edən sənədlər, dəyişikliklər idarəetmə funksiyalarını yerinə yetirən şəxslərə, mühüm iştirak payının sahiblərinə və benefisiar mülkiyyətçilərə aid olduqda, həmçinin bu Qanunun 16.2.3 -16.2.6-cı,16.3.3-cü və 16.3.4-cü maddələrində nəzərdə tutulmuş sənədlər və məlumatlar əlavə edilir.

16.14. İcarəyə verənin (xarici hüquqi şəxsin yerli filialı istisna olmaqla) filialının açılması barədə qərarın qəbul edildiyi tarixdən azı 5 (beş) iş günü müddətində icarəyə verən Mərkəzi Banka bu barədə yazılı bildiriş təqdim edir. Bildirişdə filialın adı, ünvanı göstərilir və bildirişə filial rəhbərinin bu Qanunun 16.2.3-cü maddəsində nəzərdə tutulmuş qaydada vətəndaş qüsursuzluğuna dair məlumat əlavə olunur. Mərkəzi Bank tərəfindən 10 (on) iş günü müddətində bildirişə dair münasibət bildirilmədikdə icarəyə verənin filialı maliyyə icarəsi fəaliyyətinə başlaya bilər.

16.15. Bu fəsildə nəzərdə tutulmuş sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda həmin sənədlər və ya məlumatlar müraciət edəndən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi müraciət edənin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya müraciət edən tərəfindən təmin edilir.

16.16. Bu Qanunun məqsədləri üçün vətəndaş qüsursuzluğu tələbi müəyyən olunmuş şəxslərin məhkumluğu Mərkəzi Bankın sorğusu ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) verdiyi arayış əsasında müəyyən edilir.

**Maddə 17. Maliyyə icarəsi fəaliyyətinin maliyyələşmə mənbələri**

17.1. Maliyyə icarəsi fəaliyyəti aşağıdakı mənbələr hesabına maliyyələşdirilə bilər:

17.1.1. icarəyə verənin öz vəsaiti;

17.1.2. cəlb edilmiş kreditlər və digər borc vəsaitləri, o cümlədən istiqrazların yerləşdirilməsindən əldə edilmiş vəsait;

17.1.3. qanunla qadağan edilməyən digər mənbələrdən əldə edilən vəsait.

**Maddə 18. Tənzimlənmə və nəzarət**

18.1. Mərkəzi Bank maliyyə icarəsi fəaliyyətinintənzimlənməsi və nəzarəti ilə bağlı aşağıdakı səlahiyyətləri həyata keçirir:

18.1.1. bu Qanuna uyğun olaraq normativ xarakterli aktları qəbul edir;

18.1.2. reyestri aparır, icarəyə verənləri reyestrə daxil edir və reyestrdən çıxarır;

18.1.3. icarəyə verənin fəaliyyətinə dair hesabatlar alır;

18.1.4. icarəyə verənin fəaliyyətinin monitorinqini həyata keçirir;

18.1.5. icarəyə verənin maliyyə icarəsi fəaliyyətini yoxlayır;

18.1.6. maliyyə icarəsi fəaliyyəti ilə bağlı daxil olan şikayətlərə baxır.

18.2. Mərkəzi Bank nəzarət tədbirləri çərçivəsində icarəyə verənin idarə edilməsinə, maliyyə icarəsi fəaliyyətinə aid istənilən məsələ barəsində, o cümlədən bağladığı maliyyə icarəsi müqavilələri barədə icarəyə verəndən və onun əməkdaşlarından, habelə aidiyyəti şəxslərindən müvafiq sənədləri, izahat və məlumatları almaq hüququna malikdir.

18.3. Maliyyə icarəsi fəaliyyətinə dair hesabatların (maliyyə hesabatları istisna olmaqla) forması, məzmunu və təqdim edilməsi qaydası Mərkəzi Bank tərəfindən müəyyən edilir.

18.4. Mərkəzi Bank maliyyə icarəsi fəaliyyəti üzrə riskləri azaltmaq, maliyyə icarəsi subyektlərinin hüquq və mənafelərini qorumaq məqsədilə bu Qanunda nəzərdə tutulan normativ tələblərdən başqa, maliyyə icarəsi sahəsində beynəlxalq təcrübədə qəbul olunmuş digər normativləri və tələbləri müəyyən etmək hüququna malikdir.

18.5. Mərkəzi Bank tərəfindən maliyyə icarəsi fəaliyyətinin monitorinqi və yoxlanılması, habelə nəzarətlə bağlı digər məsələlər bu Qanun və "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

18.6. İcarəyə verənlər tərəfindən rəqabət qanunvericiliyinə əməl edilməsinə dövlət nəzarəti Azərbaycan Respublikasının Rəqabət Məcəlləsində nəzərdə tutulan qaydada həyata keçirilir.

**Maddə 19. Mühasibat uçotu və maliyyə hesabatları**

19.1.İcarəyə verən tərəfindən mühasibat uçotunun aparılması və maliyyə hesabatlarının tərtibi, təqdim və dərc edilməsi ilə bağlı münasibətlər "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

19.2. İcarəyəverənillik maliyyə hesabatını (maliyyə vəziyyətini əks etdirən hesabatları) və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını auditor rəyi ilə birlikdə (qanunda nəzərdə tutulan hallarda)"Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun 12.1-ci maddəsinə uyğun olaraq müəyyən olunmuş müddətdə Mərkəzi Banka təqdim etməlidir.

19.3.İcarəyə verəndə yoxlamanı aparan kənar auditor maliyyə icarəsi fəaliyyəti sahəsində aşkar etdiyi qanun pozuntuları və çatışmazlıqlar barədə Mərkəzi Banka yazılı məlumat verməlidir. İcarəyə verənin auditini aparan və ya aparmış kənar auditor nəzarət funksiyasının həyata keçirilməsi üçün tələb olunduqda Mərkəzi Bankın yazılı sorğusuna əsasən auditini həyata keçirdiyi icarəyə verənin fəaliyyətinə dair istənilən sənəd və məlumatları sorğuda müəyyən edilmiş müddətdə Mərkəzi Banka təqdim etməlidir.

**Maddə 20. Nəzarət tədbirləri**

20.1. İcarəyə verən tərəfindən maliyyə icarəsi fəaliyyətinin bu Qanunun, "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında", "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikası qanunlarının, həmçinin Mərkəzi Bankın normativ xarakterli aktlarının tələbləri pozulmaqla həyata keçirilməsi müəyyən edildikdə, yaxud bu cür pozuntulara səbəb ola biləcək əsaslar aşkar edildikdə Mərkəzi Bank pozuntuların aradan qaldırılması haqqında icarəyə verənə icrası məcburi olan yazılı göstəriş verir.

20.2. İcarəyə verən məcburi göstərişdə nəzərdə tutulmuş tədbirlərin icrası barədə göstərişdə müəyyən olunmuş müddətdə Mərkəzi Banka yazılı məlumat verməlidir.

20.3. Məcburi göstərişdə nəzərdə tutulmuş tələblərin yerinə yetirilməsi barədə Mərkəzi Banka müəyyən olunmuş müddətdə məlumat verilmədikdə, yaxud tələblər vaxtında və ya lazımi qaydada yerinə yetirilmədikdə- Mərkəzi Bank icarəyəverənə qarşı pozuntunun xarakterindən asılı olaraq aşağıdakı tədbirlərihəyata keçirmək hüququna malikdir:

20.3.1.yeni maliyyə icarəsi müqavilələrinin bağlanılmasının məhdudlaşdırılmasını (bu Qanunun 15.6-cı və 15.7-ci maddələrində nəzərdə tutulmuş şəxslər üzrə) və ya dayandırılmasını;

20.3.2. icarəyəverənin bu Qanunun 15.8-ci maddəsində nəzərdə tutulmuş daxili qaydalarında dəyişikliklər edilməsinin tələb edilməsini;

20.3.3. icarəyə verənin maliyyə icarəsi fəaliyyətini həyata keçirən yeni filialının açılmasınınqadağan edilməsini və ya filialında maliyyə icarəsi fəaliyyətinin dayandırılmasını və ya onun maliyyə icarəsi fəaliyyətinə xitam verilməsini;

20.3.4. icarəyə verənin kapitalının artırılmasının tələb edilməsini;

20.3.5. icarəyə verənin reyestrdən çıxarılmasını.

20.4. Mərkəzi Bankın həyata keçirdiyi nəzarət tədbirləri barədə qərarlarından məhkəməyə şikayət verilə bilər. Şikayətin verilməsi həmin qərarların icrasını dayandırmır.

**Maddə 21. İcarəyə verənin reyestrdən çıxarılması**

21.1. Aşağıdakı əsaslardan biri olduqda Mərkəzi Bank tərəfindən icarəyə verən reyestrdən çıxarılır:

21.1.1. icarəyə verən müraciət etdikdə;

21.1.2. icarəyə verən ləğv edildikdə və ya müflis elan edildikdə;

21.1.3. icarəyə verən reyestrə daxil edildiyi gündən 12 (on iki) ay müddətində maliyyə icarəsi fəaliyyətinə başlamadıqda və ya ardıcıl olaraq iki hesabat tarixinə fəaliyyəti barədə hesabatları Mərkəzi Banka təqdim etmədikdə;

21.1.4. icarəyə verənin reyestrə daxil edilməsi üçün ərizə verilərkən təqdim edilmiş məlumatların sonradan yanlış olduğu müəyyən edildikdə;

21.1.5. icarəyə verən bu Qanunun 20.1-ci və 20.3-cü maddələrinə uyğun olaraq verilən bir və ya bir neçə göstərişə tam və ya vaxtında əməl etmədikdə;

21.1.6. mühüm iştirak pay sahiblərinin və ya benefisiar mülkiyyətçilərin icarəyə verənə təsirinin onun etibarlı və prudensial idarə olunması üçün təhlükə törədəcəyinə əsaslar verən faktlar olduqda.

21.2. Reyestrdən çıxarılma barədə qərar 3 (üç) iş günü müddətində icarəyə verənə və müvafiq vergi orqanına təqdim edilir, həmçinin müvafiq qərar barədə Mərkəzi Bankın rəsmi internet informasiya ehtiyatında elan dərc edilir. Reyestrdən çıxarılma barədə qərarda ayrı müddət nəzərdə tutulmadıqda həmin qərar icarəyə verənə təqdim edildiyi vaxtdan qüvvəyə minir.

21.3. İcarəyə verənin adında "maliyyə icarəsi", "maliyyə lizinqi", "lizinq" sözləri və ya bu sözlərdən ibarət söz birləşməsindən istifadə edildikdə həmin icarəyə verən reyestrdən çıxarılma barədə Mərkəzi Bankın müvafiq qərarını aldığı tarixdən 2 (iki) ay müddətində adında müvafiq dəyişiklik etməlidir.

21.4. Reyestrdən çıxarılmış şəxs bu Qanunun 21.3-cü maddəsində nəzərdə tutulmuş tələbə riayət etmədikdə Mərkəzi Bank məhkəmə qaydasında həmin şəxsin adında müvafiq dəyişikliyin edilməsi üçün tədbirlər görür.

21.5. Bu Qanunun 21.1.1-ci maddəsində nəzərdə tutulan hal istisna olmaqla reyestrdən çıxarılmış hüquqi şəxs müvafiq qərarın qəbul edildiyi tarixdən 1(bir) il müddətində reyestrə yenidən daxil edilmək üçün müraciət edə bilməz.

**5-ci fəsil**
**YEKUN MÜDDƏALAR**

**Maddə 22. İcarəyə verənlərin birlikləri və assosiasiyaları**

22.1. İcarəyə verənlər fəaliyyətinin əlaqələndirilməsi, habelə ümumi mənafelərinin birgə təmsil edilməsi və müdafiəsi məqsədilə birliklər və assosiasiyalar yarada bilərlər.

22.2.İcarəyə verənlər rəqabətin məhdudlaşdırılmasına və bazarın inhisarlaşmasına istiqamətlənən sazişlər bağlamaq və razılaşdırılmış əməliyyatlar aparmaq üçün birlik və assosiasiyalardan istifadə edə bilməz. Birlik və assosiasiyalar öz fəaliyyətini həyata keçirərkən rəqabət qanunvericiliyinin tələblərinə riayət etməlidirlər.

**Maddə 23. Bu Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun tələblərini pozan şəxslər qanunda nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar.

**Maddə 24. Keçid müddəa**

Bu Qanun qüvvəyə mindiyi tarixdən 9(doqquz) ay müddətində Azərbaycan Respublikasının ərazisində lizinq fəaliyyətini həyata keçirən (o cümlədən hazırda lizinq fəaliyyətini normativ hüquqi aktlara müvafiq olaraq dayandırmış) şəxslər öz fəaliyyətini bu Qanunun tələblərinə uyğunlaşdırmalı və reyestrə daxil edilmək üçün Mərkəzi Banka müraciət etməlidirlər. Həmin müddətdə bu Qanunun tələblərinə əməl etməyən şəxslər yeni maliyyə icarəsi müqavilələri bağlamamalı, mövcud lizinq müqavilələrinin müddətinin uzadılmasına yol verməməli və firma adında "maliyyə icarəsi", "maliyyə lizinqi", "lizinq" sözləri və ya bu sözlərdən ibarət söz birləşməsi olduğu halda, həmin sözlərin adından çıxarılması üçün normativ hüquqi aktlara uyğun olaraq tədbirlər görməlidirlər.

**Maddə 25. Bu Qanunun qüvvəyə minməsi**

Bu Qanun dərc olunduğu gündən 6 (altı) ay sonra qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 may 2026-cı il*

## "Maliyyə icarəsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli 412-VIIQ nömrəli Qanununun tətbiqi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Maliyyə icarəsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli 412-VIIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə qərara alıram:

1. Müəyyən edilsin ki:

1.1. "Maliyyə icarəsi haqqında" Azərbaycan Respublikası Qanununun 16.16-cı maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 16.16-cı maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının "Maliyyə icarəsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli 412-VIIQ nömrəli Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini dörd ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Mərkəzi Bankına tövsiyə edilsin ki:

3.1. aşağıdakı normativ xarakterli aktları altı ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

3.1.1. "Maliyyə icarəsi haqqında" Azərbaycan Respublikası Qanununun 15.5-ci maddəsinin ikinci cümləsinə, 16.3.2-ci və 16.10.4-cü maddələrinə uyğun olaraq, maliyyə icarəsi fəaliyyətini həyata keçirən hüquqi şəxsin nizamnamə kapitalının (xarici hüquqi şəxsin yerli filialının nizamnamə kapitalına bərabər tutulmuş vəsaitlərinin) minimum məbləğini və formalaşdırılması, habelə öz vəsaitlərinin (xarici hüquqi şəxsin yerli filialının həmin vəsaitlərə bərabər tutulmuş vəsaitlərinin) hesablanması qaydasını, strukturunu və tərkibini;

3.1.2. həmin Qanunun 15.6-cı maddəsinin ikinci cümləsinə uyğun olaraq, aidiyyəti şəxslə (şəxslərlə) bağlanılan maliyyə icarəsi müqavilələrinin maksimum məbləğini və həmin şəxslərlə aparılan əməliyyatlara dair tələbləri;

3.1.3. həmin Qanunun 15.7-ci maddəsinə uyğun olaraq, icarəyə verənin bir icarəçi və ya bir-biri ilə əlaqədar icarəçilər qrupu üçün kredit risklərinin maksimum miqdarına dair tələbləri;

3.1.4. həmin Qanunun 15.9-cu maddəsinə uyğun olaraq, icarəyə verənlər tərəfindən hər bir icarəçi haqqında məlumatın mərkəzləşdirilmiş kredit reyestrinə verilməsi qaydasını;

3.1.5. həmin Qanunun 16.2.4-cü maddəsinə uyğun olaraq, iştirakçılar arasında münasibətlər və benefisiar mülkiyyətçilər, o cümlədən benefisiar mülkiyyətçilərin vətəndaş qüsursuzluğu haqqında məlumatın formasını;

3.1.6. həmin Qanunun 18.3-cü maddəsinə uyğun olaraq, maliyyə icarəsi fəaliyyətinə dair hesabatların (maliyyə hesabatları istisna olmaqla) formasını, məzmununu və təqdim edilməsi qaydasını;

3.2. həmin Qanundan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

4. Bu Fərmanın 1-ci hissəsi "Maliyyə icarəsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli 412-VIIQ nömrəli Qanunu ilə eyni gündə qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyun 2026-cı il*

# Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Rəqabət Məcəlləsində, "Müflisləşmə və iflas haqqında", "Taxıl haqqında", "Beynəlxalq xüsusi hüquq haqqında", "Tütün və tütün məmulatı haqqında", "Dövlət rüsumu haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Banklar haqqında","Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Çayçılıq haqqında", "Ailə kəndli təsərrüfatı haqqında", "Atçılıq haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "Pambıqçılıq haqqında", "İcbari sığortalar haqqında", "Lisenziyalar və icazələr haqqında", "Kənd təsərrüfatı kooperasiyası haqqında", "Elm haqqında", "Kredit büroları haqqında", "Nağdsız hesablaşmalar haqqında", "Daşınar əmlakın yüklülüyü haqqında", "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" və "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında"Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 10-cu, 11-ci, 13-cü, 15-ci, 20-ci və 27-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1**. Azərbaycan Respublikasının Mülki Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (I kitab), maddə 250 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 365, № 5 (I kitab), maddə 493, № 7, maddə 744, № 12 (I kitab), maddə 1281; 2025, № 1, maddə 17, № 3, maddə 216, № 4 (I kitab), maddələr 315, 318, № 6, maddələr 523, 524, 536, № 7, maddələr 610, 626, № 8, maddələr 738, 741, 743, 744, № 11, maddə 1004; 2026, № 1, maddə 2; Azərbaycan Respublikasının 2026-cı il 27 fevral tarixli 366-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 700.4-cü maddə əlavə edilsin:

"700.4. Maliyyə icarəsi fəaliyyəti çərçivəsində daşınar və daşınmaz əmlakın icarəyə verilməsi ilə bağlı münasibətlər "Maliyyə icarəsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.";

1.2. 38-ci fəsil ləğv edilsin;

1.3. 909.1-ci maddənin ikinci cümləsində hər iki halda "lizinq" sözü "maliyyə icarəsi" sözləri ilə əvəz edilsin;

1.4. 912.2-ci maddədə "lizinq" sözü "maliyyə icarəsi" sözləri ilə, "lizinqverənin" sözü "maliyyə icarəsi verənin" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının Vergi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 365, № 5 (I kitab), maddə 498, № 6 (I kitab), maddələr 630, 638, № 7, maddə 747, № 8, maddələr 932, 933, 934, № 10, maddə 1118, № 11, maddə 1182, № 12 (I kitab), maddə 1282, (II kitab), maddə 1345; 2025, № 2, maddə 96, № 3, maddə 214, № 4 (I kitab), maddələr 307, 315, 318, 322, № 5, maddələr 432, 441, № 6, maddələr 524, 536, № 7, maddələr 609, 618, № 8, maddələr 743, 744, № 11, maddə 1009, № 12 (I kitab), maddə 1118; 2026, № 1, maddələr 11, 14, 15, 16, 21, № 2, maddə 111; Azərbaycan Respublikasının 2026-cı il 27 aprel tarixli 396-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 13.2.14.1-ci maddədə "lizinqi" sözü "icarəsi" sözü ilə əvəz edilsin;

2.2. 14-2.1.3.4-cü maddədə "lizinqindən" sözü "icarəsindən" sözü ilə əvəz edilsin;

2.3.30-cu maddə üzrə:

2.3.1. 30.6.7-1-ci maddənin birinci abzasına "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" sözlərindən sonra", "Maliyyə icarəsi haqqında" sözləri əlavə edilsin;

2.3.2. 30.6.18-ci maddədə "lizinqinə" sözü "maliyyə icarəsinə" sözləri ilə əvəz edilsin;

2.4. 58.7-1.2-ci maddədə "lizinq" sözü "maliyyə icarəsi" sözləri ilə əvəz edilsin;

2.5. 123.1-ci maddədən "(maliyyə lizinqini həyata keçirən fiziki şəxslər istisna olmaqla)" sözləri çıxarılsın və həmin maddədə "maliyyə lizinqi" sözləri "Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezidentə maliyyə icarəsi" sözləri ilə əvəz edilsin;

2.6. 125.5-ci maddədən "və ya lizinqə (maliyyə lizinqi istisna olmaqla)" sözləri çıxarılsın;

2.7. 140-cı maddə üzrə:

2.7.1. adında "lizinqi" sözü "icarəsi" sözü ilə əvəz edilsin;

2.7.2. 140.1-ci maddə üzrə:

2.7.2.1. birinci cümlədə "lizinqinin" sözü "icarəsinin" sözü ilə əvəz edilsin;

2.7.2.2. ikinci cümlədə "lizinqi" sözü "icarəsi" sözü ilə, "ödəmələri" sözü "ödənişləri" sözü ilə əvəz edilsin;

2.7.2.3. üçüncü cümlədə "lizinqi" sözü "icarəsi" sözü ilə, "lizinq" sözü "maliyyə icarəsi" sözləri ilə əvəz edilsin;

2.7.3. 140.2-ci maddə üzrə:

2.7.3.1. birinci abzasda "lizinqi" sözü "icarəsi" sözü ilə əvəz edilsin;

2.7.3.2. 140.2.1-ci maddədə "lizinq" sözü "maliyyə icarəsi" sözləri ilə əvəz edilsin;

2.7.3.3. 140.2.4-cü maddədə "haqqının ödəniləcək" sözləri "ödənişlərinin" sözü ilə əvəz edilsin;

2.7.4. 140.4-cü maddədə "lizinqi" sözü birinci halda "icarəsi" sözü ilə, ikinci halda "icarəsi fəaliyyətini" sözləri ilə, "lizinqi üzrə icarə ödəmələrinin" sözləri "icarəsi ödənişlərinin" sözləri ilə, "ödəmələr" sözü "ödənişlər" sözü ilə əvəz edilsin;

2.7.5. 140.5-ci maddədə "icarəni" sözü "maliyyə icarəsini" sözləri ilə əvəz edilsin;

2.7.6. 140.6-cı maddədə "lizinqi" sözü "icarəsi" sözü ilə əvəz edilsin;

2.7.7. 140.7-ci maddə üzrə:

2.7.7.1. birinci cümlədə hər iki halda "lizinqi" sözü "icarəsi" sözü ilə əvəz edilsin;

2.7.7.2. üçüncü cümlədə hər üç halda "lizinqi" sözü "icarəsi" sözü ilə, hər iki halda "lizinq" sözü "maliyyə icarəsi" sözləri ilə əvəz edilsin;

2.8.164-cü maddə üzrə:

2.8.1. 164.1.2-ci və 164.1.2-1-ci maddələrdə "lizinqi" sözü "icarəsi" sözü ilə əvəz edilsin;

2.8.2. 164.1.25-ci maddədə "lizinq" sözü "maliyyə icarəsi" sözləri ilə əvəz edilsin;

2.8.3.164.1.34-1-ci maddədən "mülkiyyət hüququnun keçməməsi şərtilə" sözləri çıxarılsın və həmin maddədə "lizinqə (icarəyə)" sözləri "icarəyə" sözü ilə əvəz edilsin;

2.8.4. 164.1.50-ci maddədən "və ya lizinqə" sözləri çıxarılsın.

**Maddə 3.** Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 1, maddə 1; 2025, № 6, maddə 524, № 8, maddə 743) 26.1.2.8-ci və 39.2.4-cü maddələrində "lizinq" sözü "maliyyə icarəsi" sözləri ilə əvəz edilsin.

**Maddə 4.** "Müflisləşmə və iflas haqqında" Azərbaycan RespublikasınınQanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 6, maddə 460 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 24-1-ci maddə 24-2-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 24-1-ci maddə əlavə edilsin:

**"Maddə 24-1.Maliyyə icarəsi zamanı borclunun əmlak münasibətlərinin xüsusiyyətləri**

24-1.1. Borclu maliyyə icarəsi alanın öhdəlikləri üzrə kreditorların, o cümlədən təminatlı kreditorların tələbləri borclumaliyyə icarəsi alanın sahibliyində və istifadəsində olan maliyyə icarəsi obyektinə yönəldilə bilməz.

24-1.2. Maliyyə icarəsi verən borclu maliyyə icarəsi alanınsahibliyində və istifadəsində olan maliyyə icarəsi obyektini bu Qanunun 22-ci maddəsində nəzərdə tutulmuş bildiriş əsasında geri götürə bilər. Əmlak inzibatçısı maliyyə icarəsi verənlə qarşılıqlı razılaşmaya əsasən maliyyə icarəsi ödənişlərinin ümumi dəyərinin maliyyə icarəsi müqaviləsi üzrə ödənilməmiş hissəsinin vaxtından əvvəl ödənilməsi və maliyyə icarəsi obyektinin borclu maliyyə icarəsi alanınmülkiyyətinə keçirilməsi ilə bağlı tədbirlər görə bilər.

24-1.3. Borclu maliyyə icarəsi verənin öhdəlikləri üzrə maliyyə icarəsi alanınsahibliyində və istifadəsində olan maliyyə icarəsi obyektinə dair kreditorların, o cümlədən təminatlı kreditorların tələbləri yalnız maliyyə icarəsi verənin "Maliyyə icarəsi haqqında" Azərbaycan Respublikasının Qanunundan və maliyyə icarəsi müqaviləsindən irəli gələn hüquqlarına yönəldilmiş hesab olunur. Bu halda tələbləri təmin edilmiş kreditorlara maliyyə icarəsi verənin vəzifələri də keçir.".

4.2. 41-ci maddənin 1-ci hissəsinin"g" bəndində "lizinqdə" sözü "maliyyə icarəsində" sözləri ilə əvəz edilsin.

**Maddə 5.** "Taxıl haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 7, maddə 491 (Cild I); 2024, № 2, maddə 132) 6.6-cı maddəsində "lizinq" sözü "maliyyə icarəsi" sözləri ilə əvəz edilsin.

**Maddə 6.** "Beynəlxalq xüsusi hüquq haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 10, maddə 708 (Cild I) aşağıdakı məzmunda 25.1.3-1-ci maddə əlavə edilsin:

"25.1.3-1. maliyyə icarəsi müqaviləsində - icarəyə verənin;".

**Maddə 7.** "Tütün və tütün məmulatı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 568 (Cild I); 2024, № 7, maddə 745; 2026, № 1, maddə 21) 9.3-cü maddəsində "lizinq" sözü "maliyyə icarəsi" sözləri ilə əvəz edilsin.

**Maddə 8.** "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740 (Cild I); 2024, № 1, maddələr 10, 16, № 6 (I kitab), maddə 637, № 7, maddələr 747, 751, 775, № 8, maddə 933, № 11, maddə 1187, № 12 (II kitab), maddə 1351; 2025, № 1, maddə 1, № 2, maddə 101, № 4 (I kitab), maddələr 318, 322, № 5, maddə 433, № 6, maddələr 521, 524, № 7, maddə 626, № 12 (I kitab), maddələr 1118, 1129; 2026, № 1, maddələr 8, 13, 20) aşağıdakı dəyişikliklər edilsin:

8.1. aşağıdakı məzmunda 2.0.8-4-cü və 23-4-cü maddələr əlavə edilsin:

"2.0.8-4. maliyyə icarəsi fəaliyyəti ilə məşğul olmaq istəyən şəxslərin maliyyə icarəsi verənlərin reyestrinə daxil edilməsi;";

**"Maddə 23-4. Maliyyə icarəsi fəaliyyəti ilə məşğul olmaq istəyən şəxslərin maliyyə icarəsi verənlərin reyestrinə daxil edilməsi üçün dövlət rüsumunun dərəcəsi**

| Dövlət rüsumu tutulmalı olan hərəkətlər | Dövlət rüsumunun məbləği |
|---|---|
| Maliyyə icarəsi fəaliyyəti ilə məşğul olmaq istəyən şəxslərin maliyyə icarəsi verənlərin reyestrinə daxil edilməsi | 550 manat |

8.2. 26.2-ci və 26.4-cü maddələrdə "lizinq" sözü "maliyyə icarəsi" sözləri ilə əvəz edilsin.

**Maddə 9.** "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 1, maddə 8 (Cild I); 2024, № 7, maddə 743, № 12 (I kitab), maddə 1281; 2025, № 1, maddə 16, № 4 (I kitab), maddə 318, № 5, maddə 432, № 7, maddə 609, № 8, maddə 741; 2026, № 2, maddə 103)15.9.3-1-ci maddəsinə "İnvestisiya fondları haqqında" sözlərindən sonra ", "Maliyyə icarəsi haqqında" sözləri əlavə edilsin.

**Maddə 10.** "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 3, maddə 130 (Cild I); 2024, № 2, maddə 138; 2025, № 1, maddə 1, № 4 (I kitab), maddə 318, № 5, maddə 432; 2026, № 2, maddə 111) 32.1.2-ci, 75.1.2-ci maddələrində və 79.1-ci maddəsinin birinci cümləsində "lizinq" sözü "maliyyə icarəsi" sözləri ilə əvəz edilsin.

**Maddə 11.** "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 603 (Cild I); 2025, № 1, maddə 16, № 2, maddə 100, № 6, maddə 536, № 7, maddə 630, № 8, maddələr 738, 744; 2026, № 1, maddə 13) 6.1.2-ci, 6.1.4-cü və 13.9.3-cü maddələrində "lizinq" sözü "maliyyə icarəsi" sözləri ilə əvəz edilsin.

**Maddə 12.** "Çayçılıq haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 881 (Cild I); 2024, № 4, maddə 365) 5-ci və 9.4-cü maddələrində "lizinq" sözü "maliyyə icarəsi" sözləri ilə əvəz edilsin.

**Maddə 13.** "Ailə kəndli təsərrüfatı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 11, maddə 992 (Cild I) 10.2.3-cü maddəsində "lizinq" sözü "maliyyə icarəsi" sözləri ilə əvəz edilsin.

**Maddə 14.** "Atçılıq haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 5, maddə 399 (Cild I) 32.4-cü maddəsində "lizinq" sözü "maliyyə icarəsi" sözləri ilə əvəz edilsin.

**Maddə 15.** "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 2, maddə 72 (Cild I); 2025, № 4 (I kitab), maddə 318, № 5, maddə 432) 15.2.2-ci maddəsində "lizinq" sözü "maliyyə icarəsi" sözləri ilə əvəz edilsin.

**Maddə 16.** "Pambıqçılıq haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 7, maddə 576 (Cild I); 2024, № 4, maddə 365; 2025, № 7, maddə 612) 4-cü və 20.1.2-ci maddələrində "lizinq" sözü "maliyyə icarəsi" sözləri ilə əvəz edilsin.

**Maddə17.** "İcbari sığortalar haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 788 (Cild I); 2025, № 1, maddə 16, № 4 (I kitab), maddə 315) 53.2-ci maddəsində hər iki halda "lizinq" sözü "maliyyə icarəsi" sözləri ilə əvəz edilsin.

**Maddə 18.** "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 632 (Cild I); 2024, № 6 (I kitab), maddə 631, № 7, maddələr 747, 751, № 8, maddə 933; 2025, № 1, maddə 16, № 3, maddə 215, № 4 (I kitab), maddə 314, № 5, maddə 433, № 6, maddə 524, № 7, maddə 626, № 8, maddə 733) 3.4-cü maddəsinə "Qiymətli kağızlar bazarı haqqında" sözlərindən sonra ", "Maliyyə icarəsi haqqında" sözləri əlavə edilsin.

**Maddə 19.** "Kənd təsərrüfatı kooperasiyası haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 7, maddə 1231 (Cild I); 2024, № 4, maddə 365) 13.1.9-cu maddəsində "lizinq" sözü "maliyyə icarəsi" sözləri ilə əvəz edilsin.

**Maddə 20.** "Elm haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1366 (Cild I); 2024, № 12 (II kitab), maddə 1339) 1.0.33-cü maddəsində "lizinq" sözü "maliyyə icarəsi" sözləri ilə əvəz edilsin.

**Maddə 21.** "Kredit büroları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 1997 (Cild I); 2024, № 5 (I kitab), maddə 489, № 11, maddə 1193; 2025, № 4 (I kitab), maddələr 318, 323) aşağıdakı dəyişikliklər edilsin:

21.1. 2.0.4-cü maddədə "lizinq" sözü "maliyyə icarəsi" sözləri ilə əvəz edilsin;

21.2. 12-ci maddə üzrə:

21.2.1. 12.1-ci maddəyə "təşkilatları" sözündən sonra "və maliyyə icarəsi fəaliyyətini həyata keçirən digər şəxslər" sözləri əlavə edilsin;

21.2.2. 12.2.1-ci maddədə "lizinq" sözü birinci halda "maliyyə icarəsi" sözləri ilə, ikinci halda "icarəyə" sözü ilə əvəz edilsin;

21.3.15.5-ci maddəyə "təşkilatı" sözündən sonra "və yamaliyyə icarəsi fəaliyyətini həyata keçirən digər şəxs" sözləri əlavə edilsin;

21.4. 22.6-cı maddəyə "təşkilatları" sözündən sonra "və maliyyə icarəsi fəaliyyətini həyata keçirən digər şəxslər" sözləri əlavə edilsin.

**Maddə 22.** "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2053 (Cild I); 2024, № 12 (II kitab), maddə 1347; 2025, № 1, maddə 6, № 5, maddə 440, № 8, maddə 743, № 10, maddə 895, № 12 (I kitab), maddə 1118) 3.4.1-ci maddəsində "lizinq" sözü "maliyyə icarəsi" sözləri ilə əvəz edilsin.

**Maddə 23.** "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 753 (Cild I); 2024, № 12(II kitab), maddə 1334; Azərbaycan Respublikasının 2026-cı il 21 aprel tarixli 389-VIIQD nömrəli Qanunu) 4.3.7-ci maddəsində "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 747.1-ci maddəsinə" sözləri "Maliyyə icarəsi haqqında" Azərbaycan Respublikasının Qanununa" sözləri ilə, "lizinqi" sözü "maliyyə icarəsi" sözləri ilə əvəz edilsin.

**Maddə 24.** "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 1, maddə 15 (Cild I); 2025, № 4 (I kitab), maddə 318) 11.2-ci maddəsində "lizinq" sözü "maliyyə icarəsi" sözləri ilə əvəz edilsin.

**Maddə 25.** "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 1, maddə 37(Cild I); 2025, № 5, maddə 432, № 7, maddələr 625, 626) 1.1.8-ci maddəsində "maliyyə lizinqi xidmətləri göstərən şəxslər" sözləri "maliyyə icarəsi verənlər" sözləri ilə əvəz edilsin.

**Maddə 26.** Bu Qanun "Maliyyə icarəsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli 412-VIIQ nömrəli Qanunu ilə eyni gündə qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 may 2026-cı il*

# "Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 386 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Rəqabət Məcəlləsində, "Müflisləşmə və iflas haqqında", "Taxıl haqqında" , "Beynəlxalq xüsusi hüquq haqqında", "Tütün və tütün məmulatı haqqında", "Dövlət rüsumu haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Banklar haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Çayçılıq haqqında", "Ailə kəndli təsərrüfatı haqqında", "Atçılıq haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "Pambıqçılıq haqqında", "İcbari sığortalar haqqında", "Lisenziyalar və icazələr haqqında", "Kənd təsərrüfatı kooperasiyası haqqında", "Elm haqqında", "Kredit büroları haqqında", "Nağdsız hesablaşmalar haqqında", "Daşınar əmlakın yüklülüyü haqqında", "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" və "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli 413-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 386 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 609 (Cild I); 2024, № 7, maddə 790; 2025, № 6, maddə 542, № 8, maddə 746, № 11, maddə 1035; 2026, № 1, maddə 24) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.5-ci bənddə ", 150.1-ci (ikinci cümlədə) və 748-5-ci (daşınmaz əmlaka münasibətdə)" sözləri "və 150.1-ci (ikinci cümlədə)" sözləri ilə əvəz edilsin;

1.2. 3.13-cü bənd ləğv edilsin.

2. Bu Fərman "Maliyyə icarəsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli 412-VIIQ nömrəli Qanunu ilə eyni gündə qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyun 2026-cı il*

# "İntellektual gömrük"informasiya sisteminin yaradılması və bununla əlaqədar bir sıra məsələlərin tənzimlənməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "İntellektual gömrük" informasiya sistemi (bundan sonra - İGİS) yaradılsın.

2. "İntellektual gömrük" informasiya sistemi haqqında Əsasnamə" təsdiq edilsin *(əlavə olunur).*

3.Müəyyən edilsin ki, İGİS-in sahibi və operatoru funksiyalarınıAzərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi həyata keçirir.

4. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi:

4.1. İGİS-in formalaşdırılması, aparılması, fəaliyyətinin təşkilivə inkişaf etdirilməsi üçün zəruri tədbirlər görsün;

4.2. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Hökumət buludu" (G-cloud) Konsepsiyası"na uyğun olaraq, İGİS-in "Hökumət buludu"nda yerləşdirilməsini, aparılmasını və təkmilləşdirilməsini təmin etsin.

5. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, bu Fərmanın 2-ci hissəsi nəzərə alınmaqla, "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il12 sentyabr tarixli 263 nömrəli Fərmanının tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

6. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi bu Fərmanın 2-ci hissəsi ilə təsdiq edilən Əsasnamənin 4-cü hissəsində qeyd olunan məlumatların ilkin mənbəyini formalaşdıran dövlət orqanları (qurumları) ilə birlikdə həmin məlumatların altı ay müddətində Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə olunmasını təmin etmək məqsədilə zəruri tədbirlər görsün.

7. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyun 2026-cı il*

# Dövlət adından yaradılan bir sıra publik hüquqi şəxslərin fəaliyyətinin yenidən təşkili ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, dövlət adından yaradılan bir sıra publik hüquqi şəxslərin fəaliyyətinin yenidən təşkili məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyi" publik hüquqi şəxsin əsasında Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyi (bundan sonra - Agentlik) yaradılsın.

2. Aşağıdakı büdcə təşkilatları yaradılsın:

2.1.Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində "Azərbaycan Respublikasının Kino Agentliyi" publik hüquqi şəxsin əsasında Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinintabeliyində Kino Agentliyi;

2.2. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Balıqçılıq və Akvakultura Mərkəzi" publik hüquqi şəxsin əsasında Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində Balıqçılıq və Akvakultura Mərkəzi;

2.3."Azərbaycan Elm Fondu" publik hüquqi şəxsin əsasında Azərbaycan Elm Fondu;

2.4. "Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi" publik hüquqi şəxsin əsasında Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi;

2.5."Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC)" publik hüquqi şəxsin əsasında Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC);

2.6. "Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi" publik hüquqi şəxsin əsasında Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi;

2.7."Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi" publik hüquqi şəxsin tabeliyində "Hüquq və İnsan Haqları İnstitutu" publik hüquqi şəxsin əsasında Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin tabeliyində Hüquq və İnsan Haqları İnstitutu.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi aşağıdakı publik hüquqi şəxslərin məhdud məsuliyyətli cəmiyyətlərə çevrilmə yolu ilə yenidən təşkilini iki ay müddətində təmin etsin:

3.1. "Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxs;

3.2. "Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxs;

3.3. "Laçın rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxs;

3.4. "Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxs;

3.5. "Kəlbəcər rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxs.

4. Bu Fərmanın 3-cü hissəsi ilə yaradılması nəzərdə tutulan məhdud məsuliyyətli cəmiyyətlərin (bundan sonra - Cəmiyyətlər) ümumi yığıncağının səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

4.1. Azərbaycan Respublikasının Prezidentinə:

4.1.1. Cəmiyyətlərin Müşahidə Şurasının yaradılması;

4.1.2. Cəmiyyətlərin Müşahidə Şurasının sədrinin və digər üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

4.2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə:

4.2.1. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Cəmiyyətlərin yenidən təşkili və ləğvi;

4.3. Müşahidə Şurasına:

4.3.1. bu Fərmanın 4.1-ci və 4.2-ci bəndləri nəzərə alınmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Azərbaycan Respublikasının bu sahədə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları və Cəmiyyətlərin nizamnaməsi ilə Müşahidə Şurasının səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

5. Müəyyən edilsin ki:

5.1. Agentlik dövlət ehtiyatlarının yaradılması və idarə olunması sahəsində dövlət siyasətinin hazırlanmasında və həyata keçirilməsində iştirak edən, bu sahədə tənzimləməni və nəzarəti həyata keçirən, habelə ölkənin strateji əhəmiyyətli mallarla təchizatının dayanıqlılığını təmin etmək və daxili bazarda həmin mallar üzrə qısa müddətli kəskin qiymət dəyişmələrinin qarşısını almaq istiqamətində tədbirlər görən mərkəzi icra hakimiyyəti orqanıdır;

5.2. Cəmiyyətlərin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün sədr də daxil olmaqla 5 (beş) üzvdən ibarət Müşahidə Şurası yaradılır;

5.3. Cəmiyyətlərin nizamnamə kapitalı aidiyyəti üzrə bu Fərmanın 3-cü hissəsində nəzərdə tutulan publik hüquqi şəxslərin əmlakı hesabına formalaşır;

5.4. Cəmiyyətlərin strukturu, ştat vahidləri və əməkhaqqı sistemləri, bu Fərmanın 6.3-cü və 9.2-ci bəndləri nəzərə alınmaqla, Cəmiyyətlərin Müşahidə Şurası tərəfindən müəyyən edilir;

5.5.bu Fərmanın 1 - 3-cü hissələrində, habelə 6.1.2-ci yarımbəndində nəzərdə tutulan qurumların hüquq və öhdəlikləri, habelə əmlakı onların əsasında yaradılan yeni qurumlarakeçir;

5.6. bu Fərmanın 1-ci və 2-ci hissələrinə, habelə 6.1.2-ci yarımbəndinə əsasən yaradılan yeni qurumların əsasnamələri (nizamnamələri), strukturu və əməyin ödənilməsi sistemi müəyyən edilənədək həmin hissələrdə və yarımbənddə nəzərdə tutulan qurumlar fəaliyyətini davam etdirirlər;

5.7. Cəmiyyətlər "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı günədək bu Fərmanın 3-cü hissəsində nəzərdə tutulan publik hüquqi şəxslər fəaliyyətini davam etdirirlər.

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

6.1. üç ay müddətində:

6.1.1. aşağıdakılarla bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

6.1.1.1. bu Fərmanın 1 - 3-cü hissələri, habelə 6.1.2-ci yarımbəndi nəzərə alınmaqla, normativ hüquqi aktların təkmilləşdirilməsi;

6.1.1.2. bu Fərmanın 9.2-ci bəndi nəzərə alınmaqla, Agentliyin əsasnaməsinin layihəsi, habelə strukturu və işçilərinin say həddi;

6.1.2. "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi" publik hüquqi şəxsin strukturuna daxil olan "Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzi"nin və Marionet Teatrının əsasında Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində büdcə təşkilatı qismində Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzinin və Marionet Teatrının yaradılmasını təmin etsin;

6.1.3. bu Fərmanın 1-ci və 2-ci hissələrində, habelə 6.1.2-ci yarımbəndində nəzərdə tutulan qurumların balansında olan əmlakın həmin qurumların əsasında yaradılan yeni qurumların balansına verilməsi və onların maddi-texniki təminatı ilə bağlı tədbirlər görülməsini təmin etsin;

6.1.4. bu Fərmanın 9.2-ci bəndi nəzərə alınmaqla, bu Fərmanın 2-ci hissəsinəvə 6.1.2-ci yarımbəndinə əsasən yaradılan yeni qurumların əsasnamələrinin (nizamnamələrinin) təsdiq edilməsi, strukturunun, işçilərinin say həddinin, əməkhaqlarının (vəzifə maaşları, vəzifə maaşlarına əlavələr, mükafatlar və digər ödənişlər) məbləğlərinin və əməyin ödənilməsi sisteminin müəyyən edilməsi ilə bağlı tədbirlər görsün;

6.2. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Agentliyin işçilərinin bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan publik hüquqi şəxsin işçiləri hesabına komplektləşdirilməsinin təmin edilməsi ilə əlaqədar tədbirlər görsün;

6.3. işğaldan azad edilmiş ərazilərdə bərpa, tikinti və idarəetmə xidmətlərini həyata keçirən müəssisələrin nümunəvi strukturunu və ştat vahidlərini (xidmət olunan inzibati ərazi vahidlərinin sayı əsasında komplektləşdirməklə) bir ay müddətində təsdiq etsin;

6.4.bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

7. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

7.1. Cəmiyyətlərin dövlət qeydiyyatına alınması üçün onların nizamnaməsi təsdiq edildikdən sonra üç gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tədbirlər görsün;

7.2. Cəmiyyətlər dövlət qeydiyyatına alındığı gündən bir ay müddətində bu Fərmanın 3-cü hissəsində nəzərdə tutulan publik hüquqi şəxslərinəmlakının aidiyyəti üzrə Cəmiyyətlərin balansına verilməsi üçün müvafiq tədbirlər görsün;

7.3. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

8. "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi" publik hüquqi şəxs:

8.1. iki ay müddətində tabeliyində məhdud məsuliyyətli cəmiyyətin yaradılmasını və Şuşa şəhəri, eləcə də Şuşa rayonu ərazisində tikilmiş çoxmənzilli binaların və fərdi yaşayış evlərinin idarə edilməsi, habelə həmin ərazidə abadlaşdırma, yaşıllaşdırma, işıqlandırma və mənzil-kommunal təsərrüfatı sahələrində funksiyalarının həmin cəmiyyət vasitəsilə həyata keçirilməsini təmin etsin;

8.2. bu Fərmanın 9.2-ci bəndi nəzərə alınmaqla, mövcud strukturunun optimallaşdırılması, habelə bu Fərmanın 8.1-ci bəndində nəzərdə tutulan cəmiyyətin strukturunun, ştat vahidlərinin və əməkhaqqı sisteminin müəyyən edilməsi ilə bağlı nizamnaməsinə uyğun olaraq tədbirlər görsün;

8.3. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

9. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

9.1. bu Fərmana əsasən yaradılan yeni qurumlarınfəaliyyətinin maliyyələşdirilməsini cari ilin dövlət büdcəsində nəzərdə tutulmuş vəsait dairəsində təmin etsin;

9.2. "Dövlət maliyyəsinin səmərəli idarə edilməsinin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 avqust tarixli 489 nömrəli Fərmanının 3.7-ci bəndinə uyğun olaraq, bu Fərmana əsasən yaradılan yeni qurumların strukturunun, ştat vahidlərinin və əməkhaqqı sistemlərinin maliyyə ekspertizasını həyata keçirsin və onların optimallaşdırılması üçün tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyun 2026-cı il*

# "Əhalinin icbari tibbi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 mart tarixli 631 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əhalinin icbari tibbi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 mart tarixli 631 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi və məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 1 dekabr tarixli 30 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 12, maddə 744 (Cild I); 2024, № 5 (I kitab), maddə 519, № 12 (II kitab), maddə 1354) 7-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 7.8-ci bənddə "Tibbi-Sosial Ekspertiza və Reabilitasiya" sözləri "Tibbi Sığorta və Ekspertiza" sözləri ilə əvəz edilsin;

1.2. 7.10-cu bənddə "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi qismində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" sözləri "Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi" sözləri ilə əvəz edilsin.

2. "Özəl tibb fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 296 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 163 (Cild I) 2.4-cü bəndində "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri "Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi" sözləri ilə əvəz edilsin.

3. "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 616 (Cild I); 2024, № 5 (I kitab), maddə 513, № 6 (I kitab), maddələr 653, 661, № 8, maddə 947, № 12 (I kitab), maddə 1289, (II kitab), maddə 1375; 2025, № 4 (I kitab), maddələr 331, 334, № 5, maddə 461, № 6, maddə 541, № 8, maddə 747, № 11, maddə 1023, № 12 (I kitab), maddə 1154; 2026, № 1, maddə 35, № 2, maddələr 123,125)1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.12-1-ci bənddən "və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri çıxarılsın;

3.2. 1.36-cı bənddə "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi" sözləri ilə əvəz edilsin.

4. "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 6 may tarixli 697 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 264 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.6-cı bənddən ", İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri çıxarılsın;

4.2. 2.10-cu bənddə hər iki halda "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri "Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 dekabr tarixli 341 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1110 (Cild I); 2024, № 5 (I kitab), maddə 529; 2025, № 2, maddə 136) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Tarif (qiymət) Şurasının tərkibi"nin "Şuranın üzvləri:" hissəsinin on birinci abzasına "müavini" sözündən sonra nöqtə işarəsi əlavə olunsun və on ikinci abzası ləğv edilsin.

6. "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 24 fevral tarixli 373 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 2, maddə 90 (Cild I) 2.5-ci bəndində "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi qismində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" sözləri "Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 aprel tarixli 744 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 4, maddə 258 (Cild I); 2024, № 6 (I kitab), maddə 654, № 12 (II kitab), maddə 1383; 2025, № 8, maddə 749; 2026, № 2, maddə 123) ilə təsdiq edilmiş "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi haqqında Əsasnamə"nin 11-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

7.1. 11.4-cü bəndə "məlumatlar" sözündən sonra ", habelə icbari tibbi sığorta üzrə sığortaolunanların fərdi uçotunun aparılması məqsədilə Azərbaycan Respublikası vətəndaşlarının şəxsiyyət vəsiqələri, Azərbaycan Respublikasında qaçqın statusu almış əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin qaçqın vəsiqəsi və Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarının Azərbaycan Respublikasındakı Nümayəndəliyi tərəfindən himayəyə götürülmüş şəxslər üzrə məlumatlar" sözləri əlavə olunsun və həmin bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin;

7.2. 11.15-ci bənd ləğv edilsin.

8. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 90 (Cild I); 2024, № 3, maddə 254, № 5 (I kitab), maddə 529, № 8, maddə 943, № 12 (II kitab), maddə 1369; 2025, № 12 (I kitab), maddə 1154; 2026, № 1, maddə 24, № 2, maddə 32, № 3, maddə 234) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

8.1. 1.1-ci bəndə üçüncü halda "sığorta," sözündən sonra "icbari tibbi sığorta," sözləri əlavə edilsin;

8.2. 2.1.1-ci yarımbəndə üçüncü halda "sığorta" sözündən sonra ", icbari tibbi sığorta" sözləri əlavə edilsin;

8.3. III hissə üzrə:

8.3.1. 3.1.1-ci yarımbəndə üçüncü halda "sığorta," sözündən sonra "icbari tibbi sığorta," sözləri əlavə edilsin;

8.3.2. 3.1.25-2-ci yarımbəndə üçüncü halda "sığortanın" sözündən sonra ", icbari tibbi sığortanın" sözləri əlavə edilsin;

8.3.3. 3.1.28-1-ci yarımbənddə "Nazirliyin tabeliyində Dövlət Sosial Müdafiə Fondununvə işsizlikdən" sözləri "dövlət sosial müdafiə fondunun, işsizlikdən sığorta fondunun və icbari tibbi" sözləri ilə əvəz edilsin;

8.3.4. 3.1.28-2-ci yarımbəndə üçüncü halda "sığorta" sözündən sonra ", icbari tibbi sığorta" sözləri əlavə edilsin;

8.3.5. aşağıdakı məzmunda 3.1.28-8 - 3.1.28-11-ci yarımbəndlər əlavə edilsin:

"3.1.28-8. icbari tibbi sığorta üzrə sığortaolunanların fərdi uçotunun həyata keçirilməsini təmin etmək;

3.1.28-9. xidmətlər zərfinə daxil olan həcmdə göstərilən tibbi xidmətlərə və buraxılmış dərman vasitələrinə görə sığorta ödənişlərinin maliyyələşdirilməsini təmin etmək;

3.1.28-10. icbari tibbi sığortanın maliyyə sabitliyinin təmin edilməsi məqsədilə icbari tibbi sığorta ehtiyatlarının yaradılmasını təmin etmək;

3.1.28-11. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, icbari tibbi sığorta haqqının məbləğinin, habelə xidmətlər zərfinin müəyyən olunmasına dair təkliflər hazırlamaq;";

8.3.6. 3.1.36-cı yarımbəndə üçüncü halda "sığorta," sözündən sonra "icbari tibbi sığorta," sözləri əlavə edilsin;

8.3.7. 3.1.37-1-ci yarımbənddə "Nazirliyin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin icrası haqqında və işsizlikdən sığorta fondunun büdcəsi" sözləri "dövlət sosial müdafiə fondunun, işsizlikdən sığorta fondunun və icbari tibbi sığorta fondunun büdcələrinin icrası" sözləri ilə əvəz edilsin;

8.4. IV hissə üzrə:

8.4.1. 4.1.3-cü yarımbəndə dördüncü halda "sığorta," sözündən sonra "icbari tibbi sığorta," sözləri əlavə edilsin;

8.4.2. aşağıdakı məzmunda 4.1.12-3-cü yarımbənd əlavə edilsin:

"4.1.12-3. icbari tibbi sığorta çərçivəsində sığortaolunanlara göstərilən tibbi xidmətin həcminə, müddətinə, keyfiyyətinə və şərtlərinə, habelə sığortaolunanlara buraxılan dərman vasitələrinin həcminə və buraxılma şərtlərinə nəzarət etmək məqsədilə tibbi-iqtisadi ekspertizanın və tibbi xidmətin keyfiyyətinin ekspertizasının həyata keçirilməsini təmin etmək;".

9. "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 20 aprel tarixli 414 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 4, maddə 283 (Cild I); 2025, № 11, maddə 1035, № 12 (I kitab), maddə 1153; 2026, № 1, maddə 24) 1.4-cü bəndində "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri "Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi" sözləri ilə əvəz edilsin.

10. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə"nin təsdiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 fevral tarixli 593 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 82 (Cild I); 2024, № 4, maddələr 375, 397, № 5 (I kitab), maddə 529, № 12 (II kitab), maddələr 1366, 1383; 2025, № 1, maddə 35, № 4 (I kitab), maddələr 325, 338, № 6, maddə 549, № 8, maddə 773, № 12 (I kitab), maddə 1153; 2026, № 2, maddə 123) 5.13-cü bəndində "Tibbi-Sosial Ekspertiza və Reabilitasiya" sözləri "Tibbi Sığorta və Ekspertiza" sözləri ilə əvəz edilsin.

11. "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 6 sentyabr tarixli 1592 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 9, maddə 1639 (Cild I); 2024, № 12 (II kitab), maddələr 1352, 1361) 1-3-cü hissələri ləğv edilsin.

12. "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 213 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1499 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

12.1. 2.4-1-ci bənddə "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi qismində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" sözləri "Sosial Xidmətlər Agentliyi qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi" sözləri ilə əvəz edilsin;

12.2. 2.13-cü bənddə "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi qismində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" sözləri "Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi" sözləri ilə əvəz edilsin.

13. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli 235 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1685 (Cild I); 2024, № 5 (I kitab), maddə 506) ilə təsdiq edilmiş "Ortamüddətli xərclər çərçivəsinin hazırlanması Qaydası"nın 4-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

13.1. 4.1.5-ci yarımbəndə hər iki halda "sığorta fondunun" sözlərindən sonra ", icbari tibbi sığorta fondunun" sözləri əlavə edilsin;

13.2. 4.1.6-cı yarımbəndin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin;

13.3.4.1.7-ci yarımbənd ləğv edilsin.

14. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 387 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2544 (Cild I); 2024, № 5 (I kitab), maddə 529, № 8, maddə 943, № 9, maddə 1000, № 12 (II kitab), maddə 1383; 2025, № 3, maddə 226, № 11, maddə 1022,№ 12 (I kitab), maddə 1154; 2026, № 1, maddələr 24, 32) ilə təsdiq edilmiş "DOST" mərkəzlərində göstərilən xidmətlərin siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

14.1. 2.5-ci bənd ləğv edilsin;

14.2. aşağıdakı məzmunda 9-2-ci hissə əlavə edilsin:

| | |
|---|---|
| 9-2. | İcbari tibbi sığorta sahəsində göstərilən xidmətlər |
| 9-2.1. | icbari tibbi sığorta çərçivəsində tibbi xidmətlərin göstərilməsi haqqında müqavilə bağlanılması ilə əlaqədar müraciətlərin qəbul edilməsi |
| 9-2.2. | icbari tibbi sığorta çərçivəsində ambulator şəraitdə dərman vasitələrinin buraxılması haqqında müqavilə bağlanılması ilə əlaqədar müraciətlərin qəbul edilməsi |
| 9-2.3. | icbari tibbi sığorta üzrə arayışlar verilməsi |

14.3. 10.13-cü bənddə "5-29" rəqəmləri "5-35" rəqəmləri ilə əvəz edilsin.

15. "Sosial müdafiə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 912 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 1955 (Cild I) aşağıdakılar dəyişikliklər edilsin:

15.1. 2-ci hissə üzrə:

15.1.1. birinci abzasda "1-ci hissəsi" sözləri "1.1-ci, 1.2-ci və 1.4-cü bəndləri" sözləri ilə əvəz edilsin;

15.1.2. 2.3.1-ci yarımbənddən "(bu Fərmanın 3.4-cü bəndi nəzərə alınmaqla)" sözləri çıxarılsın;

15.2. 3-cü hissə üzrə:

15.2.1. 3.1-ci bənddə "1-ci hissəsində" sözləri "1.1-ci, 1.2-ci və 1.4-cü bəndlərində" sözləri ilə əvəz edilsin;

15.2.2. 3.3-cü bənddən "Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin və" sözləri çıxarılsın;

15.2.3. 3.4-cü bənd ləğv edilsin.

16. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 25 fevral tarixli 940 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 2, maddə 98 (Cild I); 2025, № 6, maddə 541) ilə təsdiq edilmiş "Qeyri-formal məşğulluğa nəzarət" vahid elektron informasiya ehtiyatına inteqrasiyası tələb olunan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nın 14-cü hissəsi ləğv edilsin.

17. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli 946 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 2, maddə 104 (Cild I); 2025, № 4 (I kitab), maddə 341; 2026, № 1, maddə 24) ilə təsdiq edilmiş "Valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi, o cümlədən Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi Qaydası"nın 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

17.1. 2.1.8-ci yarımbənd ləğv edilsin;

17.2. 2.2-ci bənddə "2.1.1-2.1.8-ci" sözləri "2.1.1-2.1.7-ci, 2.1.8-1-ci və 2.1.8-2-ci" sözləri ilə əvəz edilsin.

18. "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyun tarixli 1077 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 718 (Cild I); 2024, № 6 (I kitab), maddə 660, № 12 (II kitab), maddə 1383; 2025, № 4 (I kitab), maddə 345, № 11, maddə 1022, № 12 (I kitab), maddə 1154; 2026, № 1, maddə 24) aşağıdakı dəyişikliklər edilsin:

18.1. 3-cü hissə ləğv edilsin;

18.2. 5-ci hissə üzrə:

18.2.1. 5.1-ci bənddən "bu Fərmanın 1-3-cü hissələrində nəzərdə tutulan" sözləri çıxarılsın;

18.2.2.5.5-ci bənddə "1-4-cü" sözləri "1-ci, 2-ci və 4-cü" sözləri ilə əvəz edilsin;

18.3. həmin Fərmanla təsdiq edilmiş "Sosial Xidmətlər Agentliyinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

18.3.1. 1-ci hissə üzrə:

18.3.1.1. 1.1-ci bəndə "yaxşılaşdırılması," sözündən sonra "əlilliyi olan şəxslərin reabilitasiyasının təşkili," sözləri əlavə edilsin;

18.3.1.2. 1.3-cü bəndə "Konstitusiyasını," sözündən sonra "Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri," sözləri əlavə edilsin;

18.3.2. aşağıdakı məzmunda 2.1.4-1-ci və 2.1.4-2-ci yarımbəndlər əlavə edilsin:

"2.1.4-1. əlilliyi olan şəxslərin tibbi, peşə-əmək, psixoloji-pedaqoji reabilitasiyası və sosial bacarıqlarının inkişafı məqsədilə Fərdi Reabilitasiya Proqramı tərtib etmək və onun icrasına nəzarət etmək;

2.1.4-2. infrastruktur obyektlərinin əlilliyi olan şəxslərin istifadəsi üçün uyğunlaşdırılması məqsədilə tədbirlər görmək;";

18.3.3. 3-cü hissə üzrə:

18.3.3.1. 3.1.1-ci yarımbənddə "qanunvericilik aktlarının" sözləri "normativ hüquqi aktların" sözləri ilə əvəz edilsin;

18.3.3.2. 3.1.11-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.1.11. əlilliyi olan şəxslərin, habelə sosial yadırğama (dezadaptasiya), sosial məhrumiyyət (deprivasiya) şəraitində olan şəxslərin sosial reabilitasiyası ilə bağlı tədbirlər görmək;";

18.3.3.3. 3.1.14-cü yarımbənddə "5-29" rəqəmləri "5-35" rəqəmləri ilə əvəz edilsin;

18.3.3.4. aşağıdakı məzmunda 3.1.14-1-3.1.14-11-ci və 3.1.15-1-ci yarımbəndlər əlavə edilsin:

"3.1.14-1. əlilliyi olan şəxslərin reabilitasiyasının həyata keçirilməsini təşkil etmək;

3.1.14-2. "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, sağlamlıq imkanları məhdud şəxslərin psixoloji-pedaqoji reabilitasiyasının təşkili üçün tədbirlər görmək;

3.1.14-3. əlilliyi olan şəxslərin tibbi, peşə-əmək, psixoloji-pedaqoji reabilitasiyasını və sosial bacarıqlarını inkişaf etdirmək;

3.1.14-4. əlilliyi olan şəxslərin tibbi, peşə-əmək, psixoloji-pedaqoji reabilitasiyası və sosial bacarıqlarının inkişafı məqsədilə Fərdi Reabilitasiya Proqramının tərtib edilməsi ilə bağlı aidiyyəti dövlət orqanlarının (qurumlarının) iştirakı ilə çoxsahəli komissiyalar yaratmaq;

3.1.14-5. çoxsahəli komissiyalar vasitəsilə əlilliyi olan şəxslərin reabilitasiyası ilə bağlı Fərdi Reabilitasiya Proqramını tərtib etmək və onun icrasına nəzarət etmək;

3.1.14-6. əlilliyi olan şəxslərin müayinə və müalicə məqsədilə tibb və ya reabilitasiya müəssisəsinə göndərilməsi barədə qərar qəbul etmək;

3.1.14-7. əlilliyi olan şəxslərə "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq psixoloji yardım göstərmək;

3.1.14-8. tabeliyindəki qurumlar vasitəsilə əlilliyi olan şəxsləri reabilitasiya vasitələri ilə onların yaşayış yeri üzrə təmin etmək;

3.1.14-9. reabilitasiya vasitələrinin texniki normativ-hüquqi aktlara uyğunluğuna nəzarət etmək, onların tibbi-texniki sınaqlarının keçirilməsini təşkil etmək və yaxud bu məqsədlə mütəxəssisləri cəlb etmək;

3.1.14-10. tabeliyindəki qurumlar tərəfindən protez-ortopedik məmulatların ayrı-ayrı növlərinin, o cümlədən protez ayaqqabılarının və digər reabilitasiya vasitələrinin istehsal olunmasını, protez-ortopedik məhsullar istehsalında müasir texnologiyaların tətbiqini təmin etmək;

3.1.14-11. infrastruktur obyektlərinin əlilliyi olan şəxslərin istifadəsi üçün uyğunlaşdırılması məqsədilə tədbirlər görmək;";

"3.1.15-1. "Şəhid ailəsi üzvü" vəsiqəsinin verilməsini təmin etmək;";

18.3.3.5. 3.1.21-ci yarımbəndə "tabeliyində" sözündən əvvəl "struktur bölmələrinin," sözləri əlavə edilsin və həmin bənddə "və onların ailələrinə sosial xidmət göstərən digər müəssisələrin" sözləri "sosial xidmət göstərən digər müəssisələrin, həmin müəssisələrin struktur bölmələrinin" sözləri ilə əvəz edilsin;

18.3.3.6. aşağıdakı məzmunda 3.1.21-1-ci yarımbənd əlavə edilsin:

"3.1.21-1. əlilliyi olan şəxslərin reabilitasiyasına dair Nazirliyə təkliflər vermək;";

18.3.3.7. 3.1.24-4-cü yarımbəndə "uşaqlar" sözündən sonra ", habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək valideyn himayəsindən məhrum olmuş uşaqlar" sözləri əlavə edilsin;

18.3.3.8. 3.1.38-ci yarımbənd ləğv edilsin;

18.3.3.9. aşağıdakı məzmunda 3.2.11-1-ci yarımbənd əlavə edilsin:

"3.2.11-1. sosial xidmət sahəsində fəaliyyətə könüllülərin cəlb edilməsi ilə bağlı tədbirlər görmək;";

18.3.4. 4-cü hissə üzrə:

18.3.4.1. 4.4-cü bənddə "4 (dörd)" sözləri "5 (beş)" sözləri ilə, "3 (üç)" sözləri "4 (dörd)" sözləri ilə əvəz edilsin;

18.3.4.2. 4.5.16-cı yarımbənddə "3.1.28-ci" sözləri "3.1.29-cu" sözləri ilə əvəz edilsin.

19. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyul tarixli 1119 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 899 (Cild I); 2024, № 4, maddə 373, № 6 (I kitab), maddələr 654, 675, № 8, maddə 948; 2025, № 1, maddə 29, № 3, maddə 224, № 7, maddə 662, № 11, maddə 1018) ilə təsdiq edilmiş "Dövlət büdcəsindən ayrılmış vəsait hesabına işlərin və xidmətlərin göstərilməsinə görə əlavə dəyər vergisindən azad olunan publik hüquqi şəxslərin siyahısı"nın 31-ci hissəsində "Tibbi-Sosial Ekspertiza və Reabilitasiya" sözləri "Tibbi Sığorta və Ekspertiza" sözləri ilə əvəz edilsin.

20. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 8 dekabr tarixli 1206 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (I kitab), maddə 1468 (Cild I); 2024, № 6 (I kitab), maddə 654; 2025, № 4 (I kitab), maddə 341) ilə təsdiq edilmiş "Valideyn himayəsindən məhrum olmuş uşaqlar, himayədar ailə və övladlığagötürmə" altsisteminə inteqrasiya olunacaq dövlət orqanlarının (qurumlarının) və digər aidiyyəti qurumların informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nın doqquzuncu hissəsi ləğv edilsin.

21. "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında sosial müdafiə sahəsində əməkdaşlıq haqqında Sazişin tətbiq edilməsinə dair 2004-cü il mayın 6-da Bakıda imzalanmış Prosedur Müqaviləsində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Əlavə Prosedur Müqavilə"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 5 iyul tarixli 1740 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 729 (Cild I) 2-ci hissəsindən ", Azərbaycan Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri çıxarılsın.

22. "Müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların tibbi şəhadətləndirilməsi sahəsində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 sentyabr tarixli 2317 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 9, maddə 1287 (Cild I) 2.1-ci bəndində "Tibbi-Sosial Ekspertiza və Reabilitasiya" sözləri "Tibbi Sığorta və Ekspertiza" sözləri ilə əvəz edilsin.

23. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 oktyabr tarixli 2336 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 10, maddə 1384 (Cild I); 2025, № 2, maddə 125; 2026, № 1, maddə 24) ilə təsdiq edilmiş "Xarici ölkədə çətin həyat şəraitində olan yetkinlik yaşına çatmayan Azərbaycan Respublikası vətəndaşlarının repatriasiyası və reabilitasiyası Qaydaları"nın 1.6-cı bəndindən "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi," sözləri çıxarılsın.

24. "İcbari tibbi sığorta fondunun 2026-cı il büdcəsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 dekabr tarixli 568 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 12 (I kitab), maddə 1159) aşağıdakı dəyişikliklər edilsin:

24.1. 3.3.2.8.1-ci abzasdan "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsin məlumat mərkəzlərində" sözləri çıxarılsın;

24.2. aşağıdakı məzmunda 4.5-ci bənd əlavə edilsin:

"4.5.Bu Fərmanın 3.1-ci və 4.2 - 4.4-cü bəndlərinin icrası "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı gündən Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi tərəfindən həyata keçirilir.".

25. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli 1938 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 12, maddə 1217 (Cild I); 2025, № 7, maddə 632) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nda aşağıdakı dəyişikliklər edilsin:

25.1. 2.7-ci, 2.8-ci və 2.15-ci bəndlərin ikinci abzaslarından "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi," sözləri çıxarılsın;

25.2. 4.18-ci bəndin ikinci abzasında "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" sözləri ilə əvəz edilsin.

26. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 790 (Cild I); 2024, № 4, maddə 393, № 5 (I kitab), maddə 529, № 6 (I kitab), maddələr 647, 654, № 12 (II kitab), maddə 1359; 2025, № 8, maddə 749, № 11, maddə 1018; 2026, № 1, maddə 24) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın "7. Tədbirlər planı" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

26.1. 3.3.1-ci yarımbəndin 3-cü və 4-cü abzaslarının, 3.3.2-ci yarımbəndin 3-cü abzasının, 3.3.3-cü yarımbəndin 1-ci abzasının, 3.3.5-ci yarımbəndin 3-cü abzasının, 3.3.7-ci yarımbəndin 1-ci, 3-cü və 4-cü abzaslarının "Digər icraçılar" sütunlarında "İTSDA" akronimi "ƏƏSMN" akronimi ilə əvəz edilsin;

26.2. 3.3.6-cı yarımbəndin 1-ci abzasının "Əsas icraçı orqan (qurum)" sütununda "İTSDA" akronimi "ƏƏSMN" akronimi ilə əvəz edilsin;

26.3. "AKRONİMLƏR VƏ İXTİSARLAR" hissəsindən "İTSDA Azərbaycan Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi," sözləri çıxarılsın.

27. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 11, maddə 1297 (Cild I); 2024, № 4, maddə 400, № 5 (I kitab), maddə 529, № 6 (I kitab), maddə 654, № 12 (II kitab), maddə 1360; 2025, № 4 (I kitab), maddə 330; 2026, № 2, maddə 128) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın "10. Dövlət Proqramına dair Tədbirlər Planı" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

27.1. 2.5.1-ci və 2.5.3-2.5.13-cü yarımbəndlərin "Digər icraçılar" sütunlarında "İTSDA" akronimi "ƏƏSMN" akronimi ilə əvəz edilsin;

27.2. 2.5.2-ci yarımbəndin "Əsas icraçı qurum"sütununda "İTSDA" akronimi "ƏƏSMN" akronimi ilə əvəz edilsin;

27.3. 2.5.15-ci yarımbəndin "Digər icraçılar" sütunundan "İTSDA," akronimi çıxarılsın.

28. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli 3910 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 806 (Cild I); 2025, № 4 (I kitab), maddə 379,№ 7, maddə 692) ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın "8. Dövlət Proqramının həyata keçirilməsinə dair Tədbirlər Planı" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

28.1. 8.10.5-ci yarımbəndin "Digər icraçılar" sütununda "İTSDA" akronimi "ƏƏSMN" akronimi ilə əvəz edilsin;

28.2. "AKRONİMLƏR VƏ İXTİSARLAR" hissəsindən "İTSDA - Azərbaycan Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri çıxarılsın.

29. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 avqust tarixli 4059 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 8 (I kitab), maddə 1218 (Cild I); 2024, № 5 (I kitab), maddə 529; 2025, № 4 (I kitab), maddə 345; 2026, № 1, maddə 24) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023-2026-cı illər üçün Dövlət Proqramı"nın "8. "Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023-2026-cı illər üçün Dövlət Proqramı"nın icrası ilə bağlı Tədbirlər Planı" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

29.1. 8.2.2-ci və 8.5.1-ci yarımbəndlərin "Digər icraçılar" sütunlarından ", İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri çıxarılsın;

29.2. 8.4.2-ci və 8.6.1-ci yarımbəndlərin "Digər icraçılar" sütunlarından "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi," sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyun 2026-cı il*

# Baş nazir Əli Əsədov Həştərxan vilayətinin vitse-qubernatoru - Hökumət sədri ilə görüşüb



İyunun 25-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Rusiya Federasiyasının Həştərxan vilayətinin vitse-qubernatoru və Hökumətinin sədri Denis Afanasyev ilə görüşüb.

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının regionları, o cümlədən Həştərxan vilayəti arasında əməkdaşlığın yüksək səviyyədə olduğu məmnunluqla qeyd edilib.

Azərbaycan ilə Həştərxan vilayəti arasında iqtisadi-ticari və investisiya əlaqələrinin inkişafında müsbət dinamika xüsusi vurğulanıb, nəqliyyat, logistika, mədəni-humanitar və təhsil sahələrində əməkdaşlığın genişləndirilməsi yüksək qiymətləndirilib. Həştərxan vilayətinin Azərbaycanın işğaldan azad edilmiş Qubadlı rayonunda məktəbəqədər təhsil müəssisəsinin tikintisi layihəsini həyata keçirməsi xüsusi qeyd olunub.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran sahələrdə Azərbaycan ilə Həştərxan vilayəti arasında əməkdaşlığın daha da gücləndirilməsi məsələlərinə toxunulub.

# Ümumdünya Gömrük Təşkilatının Siyasi Komissiyasının və Gömrük Əməkdaşlıq Şurasının sessiyaları keçirilir

İyunun 22-24-də Belçika Krallığının paytaxtı Brüssel şəhərində yerləşən Ümumdünya Gömrük Təşkilatının (ÜGT) Baş qərargahında ÜGT-nin Siyasi Komissiyasının 94-cü sessiyası, iyunun 25-27-də isə təşkilatın ali qərar qəbuledici orqanı olan Gömrük Əməkdaşlıq Şurasının 147/148-ci sessiyaları öz işinə başlayıb.

DGK Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən verilən məlumata görə, ÜGT Katibliyinin, təşkilata üzv dövlətlərin gömrük administrasiyalarının rəhbərlərinin və beynəlxalq tərəfdaş qurumların nümayəndələrinin təmsil olunduğu sessiyalarda Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Şahin Bağırovun rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edir.



Sessiyaların keçirilməsində əsas məqsəd qlobal gömrük gündəliyində yer alan aktual məsələlərin müzakirəsi, ÜGT-nin 2025-2028-ci illər üzrə Strateji Planının icrası istiqamətində görülən işlərin qiymətləndirilməsi, beynəlxalq gömrük əməkdaşlığının gücləndirilməsi, ticarətin asanlaşdırılması, təchizat zəncirinin təhlükəsizliyinin və bütövlüyünün təmin edilməsi, həmçinin gömrük işi sahəsində rəqəmsal transformasiya və innovativ yanaşmaların tətbiqi ilə bağlı gələcək prioritetlərin müəyyənləşdirilməsidir.

Tədbirin gündəliyində ÜGT Baş katibinin hesabatı, regional məsləhətləşmələr, texniki məsələlər üzrə hesabatların təsdiqi, ÜGT-də həyata keçirilən institusional islahatlar və təşkilatın gələcək inkişaf istiqamətləri, dayanıqlı maliyyələşmə, 2026-2027-ci illər üzrə İcra Planı, eləcə də təşkilatın rəhbər və seçkili orqanlarına seçkilərlə bağlı məsələlər yer alır.

Müzakirələrdə məlumatların strateji resurs kimi idarə olunması, süni intellekt və innovativ texnologiyaların gömrük fəaliyyətində tətbiqi, elektron ticarətin inkişafı, təchizat zəncirinin bütövlüyü, narkotik qaçaqmalçılığına qarşı mübarizədə gömrük orqanlarının rolu, Yaşıl Gömrük təşəbbüsləri, özəl sektorla əməkdaşlıq, regional strukturların fəaliyyəti və gömrük işi sahəsində dürüstlük məsələləri diqqət mərkəzində olacaq.

# Xələf Xələfov AQEM-in Baş katibi Kayrat Sarıbay ilə görüşüb

İyunun 25-də Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Xələf Xələfov Bakıda səfərdə olan Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Baş katibi Kayrat Sarıbay ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanın hazırda Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirədə (AQEM) sədrliyinin gündəliyi ilə bağlı məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb. Bu çərçivədə ölkəmizin təşəbbüsü ilə AQEM ölkələrində Aparıcı



Universitetlərin Tərəfdaşlıq Şəbəkəsinin, AQEM Qadınlar Şurasının və AQEM Maliyyə Sammitinin yaradılması, habelə iqtisadi əməkdaşlıq, iqlim dayanıqlılığı, su təhlükəsizliyi, qadınların səlahiyyətləndirilməsi, gənclər, təhsil, media, turizm və nəqliyyat-logistika sahələrində keçirilmiş genişmiqyaslı tədbirlərin əhəmiyyətinə və görülən işlərin bu beynəlxalq qurumun güclənməsinə verdiyi xüsusi töhfəyə diqqət çəkilib.

Görüşdə AQEM-in regionda və dünyada sülhün, təhlükəsizliyin, sabitliyin və dayanıqlı inkişafın təşviqi istiqamətində əməkdaşlığın gücləndirilməsində vacib rolu qeyd edilib.

Xələf Xələfov bu il Azərbaycanın sədrliyi dövründə keçiriləcək AQEM Sammitinin iştirakçı dövlətlər arasında qarşılıqlı anlaşmanın və etimadın möhkəmləndirilməsində mühüm rol oynayacağını bildirib.

# YAP nümayəndə heyəti Çində səfərdədir

Çin Kommunist Partiyasının (ÇKP) dəvəti ilə Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndə heyəti Çin Xalq Respublikasına səfər edib.

Nümayəndə heyəti ÇKP Şanxay Partiya Məktəbində seminarların açılış mərasimində iştirak edib.

Tədbirdə çıxış edən ÇKP Şanxay Partiya Məktəbinin direktorunun müavini Syun Yun Azərbaycan ilə Çin arasında çoxşaxəli əlaqələrin dinamik inkişafı çərçivəsində partiyalararası əməkdaşlığın əhəmiyyətini vurğulayıb. O, seminarların partiya quruculuğu, kadr hazırlığı, səmərəli idarəetmə kimi sahələrdə fikir və təcrübə mübadiləsi baxımından faydalı



olacağına əminliyini ifadə edib.

Tədbirdə çıxış edən YAP nümayəndə heyətinin rəhbəri, partiyanın Təftiş Komissiyasının üzvü, Milli Məclisin Gənclər və idman komitəsinin üzvü Vüqar İskəndərov Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının Baş katibi Si Cinpinin müdrik siyasəti sayəsində iki ölkə arasındakı münasibətlərin hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini qeyd edib. Onun sözlərinə görə, bu prosesdə partiyalararası əlaqələr xüsusi rol oynayır: "Hakim partiyalar - YAP ilə ÇKP arasında qarşılıqlı əlaqələr siyasi dialoqun hərəkətverici qüvvəsidir". Çinin modernləşmə və effektiv idarəetmə sahəsindəki təcrübəsinin bütün dünyada maraqla izlənildiyini deyən V.İskəndərov səfərin ikitərəfli münasibətlərin inkişafına öz töhfəsini verəcəyinə əminliyini ifadə edib.

Nümayəndə heyəti "Ənənəvi Çin mədəniyyəti və "Bir kəmər, bir yol" təşəbbüsü: bəşəriyyətin ortaq taleyinin qurulması yolları" və "Pudun rayonunun inkişafı və dünyaya açılması" mövzularında seminarlarda iştirak edib. Həmçinin nümayəndə heyətinin Şanxay şəhərində yerləşən ÇKP-nin 1-ci qurultayının ev muzeyinə ziyarəti təşkil olunub.

***"Azərbaycan"***

# Azərbaycan ilə Polşa arasında mövcud münasibətlərin inkişaf dinamikası yüksək qiymətləndirilib

İyunun 25-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Qdansk şəhərində Ukrayna Bərpa Konfransı çərçivəsində Polşa Baş nazirinin müavini, xarici işlər naziri Radoslav Şikorski ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı Azərbaycan ilə Polşa arasında mövcud münasibətlərinin inkişaf dinamikası yüksək qiymətləndirilib, siyasi dialoqun intensiv xarakter daşımasının ikitərəfli



əməkdaşlığın daha da genişlənməsinə mühüm töhfə verdiyi vurğulanıb.

Yüksəksəviyyəli qarşılıqlı səfərlərin və siyasi məsləhətləşmələrin ölkələr arasında etimada əsaslanan münasibətlərin möhkəmləndirilməsində xüsusi rol oynadığı qeyd edilib.

Nazirlər iki ölkə arasında hazırlanmaqda olan bir sıra sazişlər üzrə aparılan işləri nəzərdən keçiriblər.

İqtisadi əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə edilib, ticarət dövriyyəsinin artırılması, investisiya imkanlarının təşviqinin vacibliyi vurğulanıb.

Söhbət zamanı regionda postmünaqişə dövründə formalaşan vəziyyət və sülh quruculuğu prosesləri ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə Avropa təhlükəsizliyi, enerji dayanıqlığı, regional bağlantılar, eləcə də qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Heydər Əliyev adına Hərbi İnstitutun və Hərbi Tibb Fakültəsinin məzunlarının növbəti buraxılış mərasimi olub

İyunun 25-də Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi İnstitutun və Hərbi Tibb Fakültəsinin məzunlarının növbəti buraxılış mərasimi olub.



AZƏRTAC xəbər verir ki, Hərbi İnstitutda keçirilən buraxılış mərasimində müdafiə naziri general-polkovnik Zakir Həsənov, nazirliyin digər rəhbər heyəti, müəllimlər, kursantlar, məzunlar, valideynlər, eləcə də ictimaiyyət və media nümayəndələri iştirak ediblər.

Təntənəli mərasimin əvvəlində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Hərbi İnstitutun ərazisində ucaldılmış abidəsi və Şəhid məzunların xatirə kompleksi ziyarət olunub və önlərinə gül dəstələri qoyulub.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Vətən uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla yad edilib, hərbi orkestrin müşayiəti ilə Dövlət Himni ifa olunub.

Tədbirin başlanması ilə əlaqədar Heydər Əliyev adına Hərbi İnstitutun rektoru general-mayor Ümidvar Quliyev müdafiə naziri general-polkovnik Zakir Həsənova məruzə etdikdən sonra institutun Döyüş bayrağı təntənəli surətdə sıra meydanına gətirilib.

Buraxılış mərasimində çıxış edən müdafiə naziri tədbir iştirakçılarını Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 108 illiyi münasibətilə təbrik edib, məzunlara Vətənimizin parlaq gələcəyi, ordumuzun qüdrətlənməsi naminə göstərəcəkləri şərəfli xidmətlərində uğurlar arzulayıb.

Müdafiə naziri Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu siyasətinin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə yeni yüksəliş mərhələsinə qədəm qoyduğunu bildirib. Nazirin sözlərinə görə, Azərbaycan Ordusu maddi-texniki təminatına, müasir silah və texnologiyalara, təchizatına, döyüş hazırlığına, şəxsi heyətin peşəkarlıq səviyyəsinə görə regionun ən güclü ordularından birinə çevrilib.

Bu il xalqımızın dövlətçilik tarixində mühüm yer tutan 44 günlük Vətən müharibəsində əldə edilmiş şanlı Zəfərin altıncı ilinin tamam olduğunu bildirən nazir həmin tarixi Qələbənin təkcə hərbi üstünlük deyil, milli birliyimizin, dövlətimizin siyasi iradəsinin və ordumuzun yüksək peşəkarlığının təntənəsi olduğunu deyib. Qeyd olunub ki, yenilməz Azərbaycan Ordusunun hər bir üzvü kimi, bu gün məzun olan gənc zabitlərimiz də həmin Zəfərin məsuliyyətini və dəyərini dərindən dərk etməlidirlər.

"Bu gün məzunların arasında dost Qırğız və Tacikistan Respublikasından gəlmiş kursantlar da var. Onlar burada sahib olduqları bilik və bacarıqları gələcəkdə öz ölkələrinin müdafiə və milli təhlükəsizlik sahəsində tətbiq etməklə yanaşı, dövlətlərimiz arasında dostluq və hərbi əməkdaşlıq körpülərini daha da möhkəmləndirəcəklər.

Cənab zabitlər, Azərbaycan Respublikasının qanunlarına, hərbi nizamnamələrin tələblərinə sadiq qalmalı, xalqımıza və dövlətimizə vicdanla, ləyaqətlə və nümunəvi şəkildə xidmət etməlisiniz. Qalib ölkə statusu qazanmış Vətənimizi müqəddəs əmanət olaraq gələcək nəsillərə ötürməlisiniz. Əminəm ki, etimadı doğruldacaq, bu istiqamətdə bütün var qüvvənizi səfərbər edəcəksiniz", - deyə Z.Həsənov bildirib.

Sonra fərqlənmə ilə bitirən məzunlara Fəxri fərman və qiymətli hədiyyələr, digər məzunlara isə döş nişanları təqdim edilib.

Tədrisdə və intizamda fərqlənən kursantlar tərəfindən rəmzi yaş kötüyünə məzun simvolu vurulub.

Daha sonra Hərbi İnstitutun Döyüş bayrağı növbəti buraxılışın kursantlarına təhvil verilib.

Çıxış edən Qırğız Respublikasından olan məzun Emir Esenaliyev deyib: "Bu möhtəşəm hərbi institutda təhsil almaq və bu gün leytenant rütbəsi ilə məzun olmaqdan böyük qürur hissi keçirirəm. Bu illər ərzində biz yalnız hərbi bilikləri mənimsəmədik, həm də həyatın ən mühüm dərslərini öyrəndik. Biz çətinliklər qarşısında geri çəkilməməyi, verilən tapşırığı dəqiq və məsuliyyətlə yerinə yetirməyi, komandada işləməyi və ən əsası, lider olmağı öyrəndik. Burada qazandığımız dostlar bizim üçün ən böyük sərvətdir. Fərqli ölkələrdən gəlməyimizə baxmayaraq, biz bir məqsəd ətrafında birləşdik və qardaş Azərbaycan torpağında oxumaqla türk dünyasının hərbi-mədəni dəyərlərini dərk etdik. Bu, bizi birləşdirən ən böyük idealdır: vahid kök, vahid məqsəd, vahid gələcək. Komandirlərimizə və müəllimlərimizə göstərdikləri yüksək etimada və əvəzsiz zəhmətlərinə görə təşəkkür edirəm. Onların aşıladıqları bilik və dəyərlər gələcək xidmət yolumuzda həmişə bizimlə olacaq. Mən and içirəm ki, qazandığım bilik və təcrübəni öz vətənimin, Qırğız Respublikasının müdafiəsi və inkişafı üçün şərəflə və sədaqətlə istifadə edəcəyəm".

Tacikistandan olan məzun Anvarcan Qafurov Hərbi İnstitutda keçirdiyi illərin onun üçün yalnız hərbi təhsil dövrü deyil, eyni zamanda bir həyat məktəbi olduğunu bildirib: "Bu divarlar arasında biz intizamı, məsuliyyəti, dözümlülüyü və ən əsası zabit şərəfini öyrəndik. Çətin anlarda birlikdə olmağı, uğurları isə təvazökarlıqla qarşılamağı mənimsədik. Mən Azərbaycanı artıq ikinci vətənim kimi sevirəm. Buradan gedərkən ürəyimdə iki bayraq dalğalanacaq: Azərbaycan-Tacikistan bayraqları. Müəllimlərimizə və komandirlərimizə dərin minnətdarlığımı bildirirəm. Onların bizə göstərdikləri diqqət, tələbkarlıq və qayğı gələcək xidmətimizdə ən böyük dəyər olacaq. Mən söz verirəm ki, burada qazandığım bilik və bacarıqları öz vətənimin - Tacikistan Respublikasının təhlükəsizliyi və rifahı naminə, vicdanla, şərəflə tətbiq edəcəyəm. Zabit adını daim uca tutacağam. Qoy bu gün bizim üçün son deyil, yeni bir yolun başlanğıcı olsun. Yaşasın Azərbaycan-Tacikistan dostluğu".

Sonda hərbi orkestrin müşayiəti ilə kursantlar Hərbi İnstitutun marşını ifa edib, şəxsi heyət təntənəli marşla tribunanın önündən keçib.

Valideynlərə məzun övladları ilə görüşmək və təbrik etmək üçün şərait yaradılıb.

Hərbi İnstitutu fərqlənmə ilə bitirən leytenant Adil Cəlilov sevinc və qürurunu AZƏRTAC-ın müxbirləri ilə bölüşüb. O, bu gün onun həyatında ən əlamətdar günlərdən biri olduğunu deyib: "Biz 2020-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə kursant kimi başladığımız yolu artıq bu gün Hərbi İnstitutda zabit kimi leytenant rütbəsində bitirdik. Artıq biz ordu sıralarına yollanırıq. Ordu sıralarında Vətənə daha layiqincə xidmət edəcəyimizə inanıram. Mən öz silahdaşlarıma bu yolda uğurlar arzulayıram. Bu yerlərə gəlib çıxmağımızda əziyyəti olan müəllim-zabitlərimizə, başda valideynlərim olmaqla hər kəsə təşəkkür edirəm. Silahdaşlarıma söyləmək istəyirəm ki, yolunuz açıq və uğurlu olsun. Mən fəxr edirəm ki, bu gün Müzəffər Ordunun zabitiyəm və bu ordunun sıralarında xidmət edəcəyəm".

Məzun Adil Cəlilovun anası Ülviyyə Cəlilova çox sevindiyini və 6 ildir bu günü səbirsizliklə gözlədiyini deyib: "Oğlum Adilin simasında bütün kursantları təbrik edirəm. Bu gün onlar çəkdikləri əziyyətlərin yekunu olaraq leytenant rütbəsini aldılar. Oğlumla fəxr edirəm. Allah bütün hərbçilərimizi qorusun!"

# Azərbaycan-Aİ münasibətlərinin inkişaf perspektivləri müzakirə olunub

İyunun 25-də Azərbaycan xarici işlər nazirinin müavini Elnur Məmmədov Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Maqdalena Qrono ilə görüşüb. Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Görüş zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərin cari vəziyyəti və inkişaf perspektivləri, habelə regional gündəlikdə duran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Tərəflər mövcud siyasi dialoqun, yüksəksəviyyəli qarşılıqlı səfərlərin və intensiv təmasların Azərbaycan-Aİ münasibətlərinin inkişafına mühüm töhfə verdiyini vurğulayıblar. Bu çərçivədə Avropa İttifaqı Şurasının prezidenti Antonio Koştanın cari ildə Azərbaycana həyata keçirdiyi səfərin qarşılıqlı anlaşmanın dərinləşdirilməsi və əməkdaşlıq gündəliyinin irəli aparılması baxımından əhəmiyyəti qeyd olunub.

Azərbaycan və Aİ arasında siyasi, iqtisadi, enerji, nəqliyyat-kommunikasiya və digər sahələr üzrə əməkdaşlığın cari vəziyyəti, habelə əldə edilmiş razılıqlar nəzərdən keçirilib.

Nazir müavini Elnur Məmmədov Azərbaycan-Ermənistan normallaşma prosesi və sülh gündəliyi üzrə son inkişaflar barədə qarşı tərəfi məlumatlandırıb. Sülh prosesinin yekunlaşdırılması üçün mövcud imkanlardan istifadə edilməsinin, öhdəliklərin vaxtında yerinə yetirilməsinin və qarşılıqlı etimadın gücləndirilməsinin vacibliyi qeyd olunub.

Tərəflər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın, o cümlədən Azərbaycan ilə Avropa İttifaqı arasında qarşılıqlı maraq doğuran məsələlər üzrə dialoq və məsləhətləşmələrin davam etdirilməsinin vacibliyini vurğulayıblar.

Söhbət zamanı həmçinin regional və beynəlxalq gündəlikdə yer alan digər aktual məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Qarşılıqlı səfərlər və görüşlər əlaqələrin daha da dərinləşməsinə xidmət edir



**Milli Məclisin Sədri Sahibə Qafarova İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin Sədri Ziya Öztürkler ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Parlament İttifaqının təşkilata üzv ölkələrin qanunvericilik orqanları arasında münasibətlərin daha da dərinləşdirilməsi və bir sıra mühüm məsələlərin müzakirəsi baxımından əlverişli platforma olduğu bildirilib. Eyni zamanda konfransın Milli Məclisin evsahibliyi ilə yüksək səviyyədə təşkil olunduğu qeyd edilib.

Tərəflər həmçinin parlamentlərimiz arasında münasibətlərə dair fikir mübadiləsi aparıblar. Spiker Sahibə Qafarova qonaqla bundan öncəki görüşünü məmnunluqla xatırlayaraq, həm parlament sədrləri, həm də deputatlar arasında mövcud olan təmasların, qarşılıqlı səfər və görüşlərin əlaqələrin daha da dərinləşməsinə xidmət etdiyini bildirib. Görüşdə parlamentlərdə mövcud olan dostluq qruplarının əməkdaşlığının və qarşılıqlı fəaliyyətinin əhəmiyyəti qeyd olunub, həmçinin Azərbaycan Respublikası Milli Məclisi, Türkiyə Respublikası Böyük Millət Məclisi və Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin dostluq qruplarının üçtərəfli formatda görüşlərinin keçirilməsi də təqdirəlayiq addım kimi qiymətləndirilib.

Söhbət zamanı Prezident İlham Əliyev başda olmaqla, Azərbaycan Respublikasının Şimali Kipr Türk Cümhuriyyətinə göstərdiyi daimi dəstək yüksək qiymətləndirilib. Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin Sədri dəstəyə görə ölkəmizə təşəkkür edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Azərbaycanla Qətər arasında əlaqələrin inkişafından məmnunluq ifadə olunub



**İyunun 25-də Milli Məclisin Sədri Sahibə Qafarova İslam Əməkdaşlıq Təşkilatına üzv olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Qətər Dövləti Şura Məclisinin Sədri Həsən bin Abdulla Əl-Qanimlə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Azərbaycanla Qətər arasında müxtəlif sahələrdə əlaqələrin inkişafından məmnunluq bildirilib və münasibətlərin daha da genişlənməsində qarşılıqlı səfərlərin və görüşlərin rolu vurğulanıb.

Söhbət zamanı Azərbaycan və Qətərin regional və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı da vurğulanıb. Bildirilib ki, ölkələrimiz BMT, Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində birgə fəaliyyət göstərirlər.

Görüşdə parlamentlərimiz arasında da əlaqələrin yüksək səviyyədə olmasından məmnunluq bildirilib. Vurğulanıb ki, Qətər parlamenti Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin işində yaxından iştirak edir.

Spiker Sahibə Qafarova bildirib ki, Azərbaycan həmişə bütün ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşıb. O, Azərbaycanın region ətrafında baş verən hadisələr fonunda Cənubi Qafqazda əmin-amanlığın qorunması üçün sülh gündəliyini dəstəklədiyini qeyd edib.

Qətər Dövlətinin Şura Məclisinin Sədri göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirərək, İslam Əməkdaşlıq Təşkilatına üzv olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasının əhəmiyyətini qeyd edib. O bildirib ki, bu mühüm tədbir regional və beynəlxalq məsələlərin müzakirəsi, təşkilata üzv ölkələr arasında ikitərəfli əlaqələrin daha da inkişafı baxımından əlverişli platformadır. Şura Məclisinin Sədri təşkilata sədrliyin Azərbaycana keçməsi münasibətilə təbriklərini çatdıraraq, inamını ifadə edib ki, ölkəmizin sədrliyi dövründə İƏT Pİ-nin fəaliyyəti daha da genişlənəcək.

Qonaq bildirib ki, iki ölkənin hökumətləri arasında iqtisadi, ticarət və texniki sahədə birgə komissiya uğurla fəaliyyət göstərir.

O, həmçinin Milli Məclisin nümayəndə heyətlərinin regional və beynəlxalq təşkilatlarda fəal iştirakını vurğulayıb və Azərbaycanla parlamentlərarası münasibətləri genişləndirmək niyyətində olduqlarını diqqətə çatdırıb.

Söhbət zamanı qonaq Azərbaycanın işğaldan azad etdiyi ərazilərində həyata keçirdiyi bərpa və yenidənqurma işlərini yüksək qiymətləndirdiklərini bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova Afrika Qrupu parlament sədrlərinin müavinləri ilə görüşüb



**Milli Məclisin Sədri Sahibə Qafarova İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Parlament İttifaqı Konfransının Bakıda keçirilən 20-ci Sessiyasında iştirak etmək məqsədilə ölkəmizdə olan Burkina Faso Federal Milli Şurasının Sədr müavini Tarik Humayt Əl Tahir, Çad Senatının Sədr müavini Mbank Hacivoli, Kot-d'İvuar Senatının Sədr müavini Sakkoni Torri Sarra, Qvineya-Bisau Keçid Dövrü Milli Şurası Sədrinin birinci müavini San Hafote Karamba və Mali Keçid Dövrü Milli Şurası Sədrinin birinci müavini Muhammedou Məhəmməd Osmani ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Milli Məclisin təşkilatçılığı və evsahibliyi ilə İƏT Pİ Konfransının 20-ci Sessiyasının yüksək səviyyədə təşkil olunduğu, burada mühüm məsələlərin müzakirə edildiyi qeyd olunub. Xüsusilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin konfrans iştirakçılarına ünvanladığı müraciət və həmin müraciətdə yer alan mühüm mesajlar yüksək qiymətləndirilib. Bildirilib ki, bu, Azərbaycanın İslam dəyərlərinə, eləcə də müsəlman ölkələri arasında əməkdaşlığın və həmrəyliyin gücləndirilməsinə verdiyi önəmin bariz nümunəsidir.

Söhbət zamanı Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycanda mövcud olan multikulturalizm və tolerantlıq mühiti barədə geniş məlumat verib. Eyni zamanda ölkəmizdə islam dəyərlərinin qorunması və inkişaf etdirilməsi istiqamətində həyata keçirilən dövlət siyasətinin uğurlu nəticələri barədə qonaqlara məlumat verilib.

Görüşdə ölkələr və xalqlar arasında əlaqələrin dərinləşdirilməsində parlamentlərin mühüm rolu vurğulanıb. Həmçinin qanunverici orqanlar arasında münasibətlərin mövcud vəziyyəti və əməkdaşlığın genişləndirilməsi imkanları nəzərdən keçirilib. Xüsusilə qonaqların təmsil etdikləri parlamentlərlə Azərbaycan Milli Məclisi arasında beynəlxalq parlament təşkilatlarında, o cümlədən Parlamentlərarası İttifaq, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi və İƏT Parlament İttifaqı çərçivəsində əməkdaşlığın inkişaf etdirilməsinin əhəmiyyəti qeyd olunub.

Qonaqlar İƏT Pİ Konfransının 20-ci Sessiyasının yüksək səviyyədə təşkil olunması münasibətilə Milli Məclisin Sədrini təbrik edib, eyni zamanda Azərbaycanda və paytaxt Bakı şəhərində olduqları müddətdə şahidi olduqları inkişaf və qonaqpərvərliklə bağlı müsbət təəssüratlarını bölüşüblər.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Azərbaycan və İraq beynəlxalq təşkilatlarda qarşılıqlı dəstək nümayiş etdirirlər



**İyunun 25-də Milli Məclisin Sədri Sahibə Qafarova Bakıda keçirilən İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı (İƏT Pİ) Konfransının 20-ci Sessiyasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan İraq Respublikası Nümayəndələr Şurası Sədrinin birinci müavini Adnan Feyhan Əd-Duleymi ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Azərbaycan və İraq arasında münasibətlərin xalqlarımızın ortaq dini və mədəni dəyərlərinə əsaslandığını qeyd edən Sahibə Qafarova bildirib ki, Azərbaycan və İraq BMT-də, Qoşulmama Hərəkatında, İslam Əməkdaşlıq Təşkilatında hər zaman qarşılıqlı dəstək nümayiş etdirirlər.

Söhbət zamanı ölkələrimiz arasında energetika, investisiya, turizm və digər sahələrdə əməkdaşlığın inkişafı üçün geniş imkanların mövcud olduğu diqqətə çatdırılıb.

Görüşdə qanunverici orqanlarımız arasında həm ikitərəfli əsasda, həm də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın önəmi diqqətə çatdırılıb. Bu mənada, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin mühüm platforma olduğu qeyd edilib. Həmçinin Parlamentlərarası İttifaq, İƏT Pİ kimi beynəlxalq platformalarda da qarşılıqlı dəstəyin vacibliyi vurğulanıb.

İraq Nümayəndələr Şurasının Sədrinin birinci müavini Adnan Feyhan Əd-Duleymi İƏT Pİ Konfransının 20-ci Sessiyasının uğurlu təşkilinə və İƏT Pİ-yə sədrliyin Azərbaycana keçməsi münasibətilə təbriklərini çatdıraraq, bu təşkilat çərçivəsində əməkdaşlığın əhəmiyyətini qeyd edib. O, ölkəsinin Azərbaycanla münasibətləri daha da möhkəmləndirməkdə maraqlı olduğunu söyləyərək, bu istiqamətdə parlamentlərin oynadığı rolu xüsusi qeyd edib.

Qonaq sessiyada toxunulan mövzuların müasir dövrdə islam dünyasını narahat edən məsələlərin müzakirəsinə xidmət etdiyini, həmçinin tədbirin təşkilata üzv ölkələr arasında əməkdaşlığın möhkəmlənməsinə töhfə verdiyini diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# İƏT Pİ Konfransının 20-ci Sessiyası başa çatıb



**Azərbaycan Respublikası Milli Məclisinin evsahibliyi ilə keçirilən İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyası iyunun 25-də öz işini davam etdirib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, sessiyaya Milli Məclis Sədrinin müavini, İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqında Azərbaycan nümayəndə heyətinin rəhbəri Rafael Hüseynov moderatorluq edib.

Tədbirdə sessiyanın gündəliyindəki məsələlərə baxılıb, bir sıra təşkilati məsələlər müzakirə olunub, təşkilatın strukturlarının hesabatları, qətnamə layihələri təsdiqlənib və digər məsələlər nəzərdən keçirilib. Müzakirələrdə nümayəndə heyətlərinin təmsilçiləri çıxış edərək gündəlikdəki məsələlərə dair fikirlərini və qeydlərini səsləndiriblər.

Sonra İƏT Pİ-də Azərbaycan nümayəndə heyəti rəhbərinin müavini Ceyhun Məmmədov İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasının yekun sənədi - Bakı Bəyannaməsinin layihəsini tədbir iştirakçılarının diqqətinə çatdırıb. Geniş müzakirələrdən sonra İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasının Bakı Bəyannaməsi qəbul olunub.

İƏT Parlament İttifaqının Baş katibi Muhammed Xurayçi Niyass konfrans iştirakçılarına göstərilən qonaqpərvərliyə, səmimi münasibətə və yüksək ehtirama görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını çatdırıb. Baş katib həmçinin tədbirin nümunəvi şəkildə təşkilinə, hərtərəfli şəraitin yaradılmasına və konfransın uğurla başa çatdırılmasına göstərdiyi dəstəyə görə Milli Məclisin Sədri və İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasının Sədri Sahibə Qafarovaya təşəkkürünü bildirib.

Tədbirə yekun vuran Milli Məclis Sədrinin müavini, İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Parlament İttifaqında Azərbaycan nümayəndə heyətinin rəhbəri Rafael Hüseynov vurğulayıb ki, konfrans çərçivəsində aparılan müzakirələr və qəbul olunan qərarlar üzv dövlətlər arasında əməkdaşlığın daha da möhkəmlənməsinə töhfə verəcək. O, tədbirin işində fəal iştiraklarına, irəli sürdükləri təşəbbüslərə və səmərəli müzakirələrə görə üzv ölkələrin nümayəndə heyətlərinə təşəkkürünü bildirib.

Tədbirin sonunda Qurani-Kərimdən ayələr qiraət olunub.

Bununla da İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyası öz işini başa vurub.

*"Azərbaycan"*

# Milli Məclisdə görüşlər

İyunun 25-də İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı (İƏT Pİ) Konfransının 20-ci Sessiyasında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Şimali Kipr Türk Cümhuriyyəti (ŞKTC) parlamentinin Sədri Ziya Öztürklerin rəhbərlik etdiyi nümayəndə heyəti ilə Milli Məclisin Şimali Kipr Türk Cümhuriyyəti ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Cavanşir Feyziyev və qrupun üzvləri arasında görüş keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Azərbaycan ilə Şimali Kipr Türk Cümhuriyyəti arasında dostluq və qardaşlıq münasibətlərinin inkişafından məmnunluq ifadə olunub. Ortaq dil, mədəniyyət və qardaşlıq bağlarının iki xalqı bir-birinə daha da yaxınlaşdırdığı qeyd edilib.

Söhbət zamanı parlamentlərarası əməkdaşlığın, qarşılıqlı səfərlərin və görüşlərin əhəmiyyəti qeyd edilib. İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Parlament İttifaqı Konfransının Bakıda keçirilən 20-ci Sessiyasında müzakirə olunan məsələlərin mühüm əhəmiyyət kəsb etdiyi vurğulanıb. Həmçinin görüşdə mədəni-humanitar sahədə əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunub.

Görüşdə Milli Məclisin Şimali Kipr Türk Cümhuriyyəti ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri - Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini Jalə Əliyeva, Fatma Yıldırım, Hikmət Məmmədov, ŞKTC-dən deputatlar Hasan Küçük və Şifa Çolakoğlu çıxış edərək dövlətlərarası əlaqələrin inkişafı barədə fikirlərini bölüşüblər.

Söhbətdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

❖ ❖ ❖

İyunun 25-də Milli Məclisin Azərbaycan-İordaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunda İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı (İƏT Pİ) Konfransının 20-ci Sessiyasında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan İordaniya Haşimilər Krallığı Nümayəndələr Palatasının Azərbaycanla parlamentlərarası dostluq qrupunun üzvləri ilə görüş keçirilib.

Milli Məclisin Elm və təhsil komitəsinin sədri, Azərbaycan-İordaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Anar İsgəndərov və İordaniya parlamentinin Azərbaycanla dostluq qrupunun rəhbəri Hussein Kreişan dövlətlərarası münasibətlərin möhkəmlənməsində parlamentlər arasında əməkdaşlığın inkişafının rolundan bəhs ediblər. Hər iki ölkənin qanunverici orqanındakı dostluq qruplarının bu əlaqələri daha da dərinləşməsinə töhfə verəcəyinə əminlik ifadə olunub. Regional və beynəlxalq müstəvidə əlaqələrin möhkəmləndirilməsinin vacibliyi qeyd edilib.

Görüşdə Bakıda keçirilən İƏT Pİ Konfransının 20-ci Sessiyasının yüksək səviyyədə təşkili təqdirəlayiq hesab olunub. Sessiyada aparılan müzakirələrin islam dünyasında həmrəyliyin gücləndirilməsi, birgə platformanın formalaşdırılması baxımından mühüm əhəmiyyəti vurğulanıb.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

Görüşdə İordaniya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Bəhruz Məhərrəmov, İordaniya nümayəndə heyətinin üzvləri və digər rəsmi şəxslər iştirak ediblər.



❖ ❖ ❖

İyunun 25-də Milli Məclisin Gənclər və idman komitəsinin sədri, Əlcəzairlə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Şahin İsmayılov İslam Əməkdaşlıq Təşkilatının (İƏT) üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Əlcəzair Xalq Demokratik Respublikası Millət Şurasının deputatı Boudjerra Soltaninin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüşdə Azərbaycan ilə Əlcəzair arasında parlamentlərarası əlaqələrin hazırkı vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

Söhbət zamanı Azərbaycan ilə Əlcəzair arasında siyasi və diplomatik münasibətlərin uğurlu inkişafı qeyd olunub, xarici siyasət sahəsində əməkdaşlığın mövcud səviyyəsindən məmnunluq ifadə edilib.

Görüşdə parlament diplomatiyasının ikitərəfli və çoxtərəfli münasibətlərin inkişafındakı rolu diqqətə çatdırılaraq, Azərbaycanın Qoşulmama Hərəkatındakı fəaliyyətinin yüksək qiymətləndirildiyi vurğulanıb.

Tərəflər parlamentlərarası əməkdaşlığın, mədəni-humanitar əlaqələrin, tələbə mübadiləsinin inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıblar, bu istiqamətdə həyata keçirilən layihələr və gələcək əməkdaşlıq imkanlarından danışıblar.

Görüşdə Milli Məclisin Əlcəzairlə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Mehriban Vəliyeva, Mircəlil Qasımlı, əlcəzairli parlamentarilər və digər rəsmi şəxslər iştirak ediblər.

❖ ❖ ❖

İyunun 25-də Milli Məclisin Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı (İƏT Pİ) Konfransının 20-ci Sessiyasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Niger Respublikası Məsləhət Şurasının Gənclər komitəsinin sədri İdrisaa Mousa İbrahim ilə də görüşüb.

Komitə sədri qonağa Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən uğurlu dövlət gənclər və idman siyasəti, ölkəmizdə idman infrastrukturunun inkişafı, beynəlxalq idman yarışlarının təşkili və gənclərin hərtərəfli inkişafına yönəlmiş dövlət proqramları barədə ətraflı məlumat verib. O, həmçinin Milli Məclisin Gənclər və idman komitəsinin fəaliyyət istiqamətləri, qanunvericilik təşəbbüsləri və beynəlxalq parlamentlərarası əməkdaşlığın əhəmiyyəti barədə danışıb.

Öz növbəsində İdrisaa Mousa İbrahim Milli Məclisin təşkilatçılığı ilə keçirilən İƏT Pİ sessiyasının yüksək səviyyədə təşkil olunduğunu, iştirakçılar üçün yaradılan şəraitdən məmnunluğunu ifadə edib. O, iki ölkə arasında münasibətlərin inkişafı üçün geniş imkanların mövcud olduğunu bildirib.

Görüşdə Azərbaycan və Niger arasında parlamentlərarası əlaqələrin, gənclər və idman sahəsində əməkdaşlığın genişləndirilməsi və təcrübə mübadiləsinin təşviqi məsələləri müzakirə olunub.

*"Azərbaycan"*

# 26 İyun Azərbaycan Silahlı Qüvvələri Günüdür



# Müzəffər Sərkərdə, qalib Ordu

## Dövlətçiliyimizin, suverenliyimizin və ərazi bütövlüyümüzün etibarlı qarantı

26 iyun tariximizə iftixar və qürur dolu gün kimi yazılıb. 108 il əvvəl - 26 iyun 1918-ci ildə yenicə müstəqilliyini elan etmiş Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə əlahiddə Azərbaycan korpusu yaradılıb.

Həmin il mayın 28-də qəbul edilmiş "İstiqlal bəyannaməsi"ndə qeyd olunurdu ki, Azərbaycan özünü xarici müdaxilələrdən müdafiə etmək, daxili düşmən qüvvələrini zərərsizləşdirmək üçün nizami orduya malik olmalı, özünün silahlı qüvvələrini yaratmalıdır. Avqustun 1-də Azərbaycanın Hərbi Nazirliyi təsis olundu. İlk müdafiə naziri Xosrov bəy Sultanov təyin edildi. Dekabrın 25-də isə general Səməd bəy Mehmandarov hərbi nazir, general-leytenant Əlağa Şıxlinski nazir müavini təyin olundular.

Yaradıldığı ilk günlərdən silahlı qüvvələrin quruculuğuna başlanıldı. Qısa müddət ərzində zəruri işlər görüldü, uğurlu addımlar atıldı. Sonrakı tarixi hadisələr göstərdi ki, yenicə yaradılmasına baxmayaraq, Milli Ordu Qafqaz İslam Ordusu ilə birlikdə Bakını, həmçinin ətraf qəsəbə və kəndləri erməni-bolşevik işğalından azad etməyi bacardı. Sonrakı illər də ordu quruculuğu istiqamətində mühüm işlər görüldü. Azərbaycanda ilk hərbi parad 1919-cu ildə Bakıda indiki Muzey Mərkəzinin yerləşdiyi ərazidə keçirildi.

Təəssüflər olsun ki, 1920-ci ilin aprelində Azərbaycan Xalq Cümhuriyyəti qan üstə qurulmuş bolşevik hökumətinin hücumu nəticəsində süquta uğradı. Böyük əziyyətlər bahasına yaradılmış və formalaşdırılmış Azərbaycan xalqının qürur və iftixar mənbəyi olan dövləti, o cümlədən ordusu ləğv edildi. Onun yaradılmasında və formalaşmasında böyük xidmətləri olan generalların və zabitlərin əksəriyyəti Nargin adasında güllələndi və həmin günlər tariximizin səhifələrinə qanla yazıldı.

Əvəzində əsası Azərbaycan Xalq Cümhuriyyəti dövründə qoyulmuş Azərbaycan Silahlı Qüvvələrinin tarixi ənənələri sonrakı illərdə bərpa olundu, yaşadıldı və uğurla davam etdirildi. Bu, Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra mümkün oldu. Ulu Öndərin rəhbərliyi altında ordu quruculuğu istiqamətində aparılan işlər, həyata keçirilən uğurlu islahatlar ölkəmizdə mütəşəkkil, qüdrətli ordunun yaradılması üçün əlverişli şərait yaratdı.

1991-ci ildə yaranmış tarixi şəraitdən istifadə edən Azərbaycan xalqı 1920-ci ildə itirilmiş dövlət müstəqilliyini bərpa etdi. Amma ölkəmiz bir sıra problemlərlə üz-üzə qaldı. Havadarlarına arxalanan Ermənistanın Azərbaycan torpaqlarını işğal etmək üçün Qarabağa və Şərqi Zəngəzura etdikləri silahlı hücumlar müstəqilliyini yenicə bərpa etmiş ölkəmiz üçün ciddi problemlər yaratdı. Ölkə ərazisinə olan hərbi təcavüzlərin qarşısının alınması üçün ordunun yaradılması və formalaşdırılması günün ən zəruri məsələsinə çevrildi.

1991-1992-ci illərdə ordu rəhbərliyində hökm sürən nizamsızlıq, vahid komandanlığın olmaması, siyasi rəhbərliyin zəifliyi, səriştəsizliyi Silahlı Qüvvələrin formalaşmasını çətinləşdirməklə yanaşı, həm də ləngidirdi. Qarşısı qətiyyətlə alınmadığına görə də erməni işğalçılarının hücumları getdikcə güclənir, daha da böyük əraziləri əhatə edirdi. Azərbaycanın şəhər və kəndləri bir-birinin ardınca qəsbkarların əlinə keçirdi. Getdikcə ölkədə vəziyyət gərginləşirdi.

1993-cü ildə xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında dövlətin və dövlətçiliyin əsas sütunlarından biri olan peşəkar ordunun yaradılması üçün uğurlara hesablanmış islahatlara başlanıldı. Ümummilli Liderin qətiyyətli siyasi iradəsi, diqqət və qayğısı sayəsində Silahlı Qüvvələrin formalaşmasında böyük uğurlar əldə olundu.

Ulu Öndər hələ 1969-cu ildə Mərkəzi Komitənin birinci katibi seçiləndən sonra bu böyük şəxsiyyətin müstəsna xidmətləri sayəsində respublikada hərbi kadrların hazırlanması prosesində uğurlu addımlar atıldı. Ümummilli Liderin təşəbbüsü ilə 1971-ci ildə Azərbaycanda hərbi kadrlar hazırlayan Cəmşid Naxçıvanski adına Hərbi Lisey açıldı. Bundan sonra Heydər Əliyevin fədakarlığı sayəsində azərbaycanlı gənclərin həm Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərində təhsil almalarına, həm də SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul olunmalarına şərait yarandı. Azərbaycanlı gənclərin hərbi sahəyə marağı daha da artdı.

Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində 1994-cü ilin əvvəllərində Azərbaycan NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına, iki il sonra, 1996-cı ildə "Planlaşdırma və analiz prosesi" proqramına, 2001-ci ildə isə "Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı"na qoşuldu. Həmin illər ərzində Azərbaycanın minlərlə hərbçisi NATO və digər ikitərəfli əməkdaşlıq proqramlarında iştirak edərək peşəkarlıqlarını artırdılar, müasir hərbi bilik və vərdişlərə yiyələndilər.

Ulu Öndər Heydər Əliyev hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi məqsədilə 1999-cu il fevralın 20-də Hərbi Akademiyanın yaradılması haqqında fərman imzaladı. Silahlı Qüvvələr üçün kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən təhsil ocaqlarında Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Hərbi Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbində uğurlu islahatlar həyata keçirildi.

Ümummilli Lider Heydər Əliyevin 22 may 1998-ci il tarixli fərmanına əsasən, Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan edildi. Həmin ildən etibarən bu tarix ölkəmizin və xalqımızın hərbi qüdrətinin təntənəsi kimi qeyd olunur.

Azərbaycanda ordu quruculuğu prosesi Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdən yeni inkişaf mərhələsinə qədəm qoydu. Ulu Öndərin ordu quruculuğu siyasətini layiqincə davam və inkişaf etdirən Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində hərbçilərin həm peşəkarlığının, həm də şəxsi heyətin döyüş ruhunun və mənəvi-psixoloji hazırlığının daha da artırılması, Silahlı Qüvvələrimizin ən müasir silah və texnika ilə təchizatına böyük önəm verildi. Məhz elə bunun da nəticəsində dövlətimizin başçısının diqqət və qayğısı sayəsində Azərbaycan Silahlı Qüvvələri qısa müddət ərzində regionun ən qüdrətli ordusuna çevrildi.

Daim gücünü artıran Azərbaycan Ordusunun hərbi qüdrəti 2011-ci il iyunun 26-da Bakıda Silahlı Qüvvələrin Ali Baş Komandanı Prezident İlham Əliyevin iştirakı ilə Silahlı Qüvvələr Günü və müstəqilliyin bərpasının 20 illiyi münasibətilə keçirilən hərbi paradda əyani surətdə nümayiş etdirildi. Dünya Azərbaycan Ordusunun gücünü və qüdrətini bir daha gördü.

2016-cı ilin Aprel döyüşləri rəşadətli Azərbaycan Ordusunun tarixinə böyük hərflərlə yazıldı. Həmin döyüşlər zamanı işğalçıların qəfil hücumlarının qarşısını alarkən Silahlı Qüvvələrimiz düşməndən qat-qat güclü olduğunu bir daha sübut etdi. Ermənistan ordusunun təxribatlarına qətiyyətlə cavab verən ordumuz sürətli, çevik, uğurla başa çatan əks-hücum əməliyyatı ilə düşmənə sarsıdıcı zərbə vurdu. Ermənistan silahlı qüvvələri bu döyüşlərdə böyük itkilər verdi. Qazanılan qələbə nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Bir sıra əlverişli yüksəkliklər, o cümlədən Lələtəpə yüksəkliyi Silahlı Qüvvələrimizin nəzarətinə keçdi. Həmin ərazilərdə Azərbaycan bayrağı dalğalandı. Aprel döyüşləri xalqımıza böyük sevinc bəxş etdi. Xalqımızın ordusuna sevgisi, məhəbbəti və inamı daha da artdı.

2018-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə iyunun 26-da Bakının Azadlıq meydanında keçirilən təntənəli hərbi paradda Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqımıza böyük sevinc bəxş edən Aprel döyüşlərindən bəhs edərək demişdir: "2016-cı ilin Aprel döyüşlərində, 2018-ci ilin Naxçıvan əməliyyatında işğalçılardan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırıldı. Bunun çox böyük mənəvi əhəmiyyəti var. Həmin o bayraqlar bu gün bu paradda, Azadlıq meydanında nümayiş etdiriləcək. Bu bayraqlar hərbçilərimizi qabağa aparırdı. Bu bayraqlar döyüşdə olan bayraqlardır. Bu gün bu bayraqlar Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında dalğalanır və bu parad üçün buraya gətirilib. Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək. Biz bu müqəddəs günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq".

2020-ci ilin iyulunda düşmənin Tovuz rayonu istiqamətində törətdiyi təxribatların qarşısını böyük cəsarət və rəşadətlə alan, işğalçılara sarsıdıcı zərbə vuran şanlı Azərbaycan Ordusu bir neçə aydan sonra qazandığı qələbəsi ilə xalqımıza böyük sevinc bəxş etdi.

2020-ci il sentyabrın 27-də İkinci Qarabağ müharibəsi başladı. Azərbaycan Ordusunun cəsur zabit və əsgərləri Müzəffər Ali Baş Komandanın sərkərdəliyi altında düşmənə sarsıdıcı zərbələr vurdu, ağır itkilərə məruz qoydu. Onlarla, yüzlərlə zirehli, zirehsiz texnikasını vurub sıradan çıxardı. 44 gün ərzində - sentyabrın 27-dən noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 300-dək kəndi işğaldan azad olundu.

Rəşadətli Azərbaycan Ordusunun qələbəsi ilə başa çatan İkinci Qarabağ müharibəsi noyabrın 10-da Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidentinin münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzalamaları ilə yekunlaşdı. Bəyanata uyğun olaraq, noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonları Azərbaycana döyüşsüz təhvil verildi. 44 günlük Vətən müharibəsindən əvvəl özünü "məğlubedilməz" adlandıran Ermənistan silahlı quldurları qüdrətli Azərbaycan Ordusunun qarşısında diz çökdü.

Azərbaycan Ordusunun zabit və əsgərlərinin qəhrəmanlığı, igidliyi sayəsində İkinci Qarabağ müharibəsində qazanılmış qələbənin şərəfinə 2020-ci il dekabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə ölkəmizin paytaxtında xalqımıza böyük qürur və iftixar bəxş edən Zəfər paradı keçirildi. Dövlətimizin başçısının 2018-ci ildə Silahlı Qüvvələrimizin yaradılmasının 100 illiyi münasibətilə keçirilən paradda dediyi kimi, düşmənin ələ keçirilən silah-sursat və texnikası ilə yanaşı, işğaldan azad olunan ərazilərimizdə qaldırılan dövlət bayraqlarımız da Zəfər paradında nümayiş etdirildi.

Daim gücünü, qüdrətini artıran Azərbaycan Ordusu 2023-cü il sentyabrın 19-20-də Qarabağda erməni separatçılarının müntəzəm olaraq törətdikləri təxribatlarının qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin törtöküntülərinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə, bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin edilməsi məqsədilə lokal xarakterli antiterror tədbirlərinə başladı. 23 saatdan bir qədər çox davam edən uğurlu antiterror tədbirlər çərçivəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin ön xətt və dərinlikdə olan mövqeləri və uzunmüddətli atəş nöqtələri, eləcə də döyüş vasitələri və hərbi təyinatlı obyektləri dəqiq zərbələrlə məhv edildi.

Bu gün şanlı Azərbaycan Ordusunun daha da təkmilləşdirilməsi, formalaşdırılması, güclənməsi, şəxsi heyətin döyüş hazırlığının daha da artırılması məqsədilə müntəzəm olaraq zəruri və müasir dövrün tələblərinə uyğun müvafiq islahatlar həyata keçirilir. Ordu quruculuğunun daha da sürətləndirilməsinə böyük töhfələr verəcək yeni strukturlar yaradılır. Türkiyə Silahlı Qüvvələrinin standartlarına uyğunlaşdırılması istiqamətində mühüm addımlar atılır. Bu istiqamətdə həyata keçirilən tədbirlər çərçivəsində hərbi təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədilə 2022-ci ildə Milli Müdafiə Universiteti yaradılmışdır. Universitetin başlıca vəzifələrindən biri Azərbaycan Ordusunda ali hərbi təhsilin bütün səviyyələri və əlavə təhsil proqramları üzrə ixtisaslı kadrlar hazırlamaqdır. Yüksək peşəkarlığa malik olan zabit kadrlarının hazırlanması isə təbiidir ki, gələcək uğurlardan xəbər verir, yeni zəfərlərə yol açır.

Hamımızın fəxr etdiyi və qürur duyduğu Azərbaycan Silahlı Qüvvələri bu gün Qafqazda ən müasir ordu hesab olunur. Bütün qoşun növlərimiz potensial rəqiblə mübarizə aparmaq, qələbə qazanmaq, ölkəmizin ərazi bütövlüyünü, xalqımızın və dövlətimizin təhlükəsizliyini qorumaq gücündədir. Gündən-günə qüdrətlənən Azərbaycan Ordusu müstəqil Azərbaycanın etibarlı keşikçisi və suverenliyinin, dövlətçiliyinin və ərazi bütövlüyünün qarantıdır.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# "Ordumuzun gücü dövlətimizin sarsılmaz qüdrətini göstərir"

Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində ordu quruculuğu hər zaman xüsusi əhəmiyyətə malik strateji sahələrdən biri olub. Güclü ordu təkcə ölkənin xarici təcavüzdən qorunması demək deyil, həm də milli kimliyin və dövlətin varlığının təminatçısıdır. Bu səbəbdən 26 İyun Silahlı Qüvvələr Günü təkcə hərbi sistemin deyil, bütövlükdə dövlət müstəqilliyinin və suverenliyin, xalqın təhlükəsizliyinin, eyni zamanda sarsılmaz milli birliyin rəmzinə çevrilib.

**Milli Məclisin deputatı Kamran BAYRAMOV** qəzetimizə açıqlamasında deyib ki, bu əlamətdar tarix Azərbaycan Ordusunun rəsmi şəkildə yaradıldığı, hərbi salnaməmizin ilk rəsmi səhifəsinin yazıldığı gündür. O, məhz 1918-ci il iyunun 26-da Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ilk müntəzəm ordu hissələrinin yaradıldığını və dövlətin hərbi dayaqlarının formalaşdırıldığını diqqətə çatdırıb: "Cümhuriyyətin ömrü qısa olsa da, qoyulan ordu quruculuğu ənənələri onilliklər sonra müstəqilliyini bərpa edən müasir Azərbaycanın hərbi strategiyasına bir mayak oldu. Azərbaycan Silahlı Qüvvələrinin müasir və qüdrətli bir ordu kimi formalaşması isə Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Liderin ordu quruculuğu sahəsində strateji kursu, uzaqgörən yanaşması bu gün Azərbaycanın güclü ordusunun əsasını təşkil edir. Təsadüfi deyil ki, Heydər Əliyev hələ sovet dövründə - 1970-ci illərdən etibarən milli hərbi kadrların hazırlanmasına xüsusi diqqət yetirirdi. Onun təşəbbüsü ilə yüzlərlə azərbaycanlı gəncin keçmiş SSRİ-nin nüfuzlu ali hərbi məktəblərində təhsil alması mümkün olmuşdur. Bu istiqamətdə atılan ən mühüm addımlardan biri isə 1971-ci ildə Cəmşid Naxçıvanski adına hərbi məktəbin təsis edilməsi oldu. Sonralar həmin təhsil ocağı müstəqil Azərbaycanın Silahlı Qüvvələri üçün peşəkar zabit heyətinin yetişdirilməsində mühüm rol oynadı".



Deputat xatırladıb ki, 1990-cı illərin əvvəllərində Ermənistanın hərbi təcavüzü, ölkədə hökm sürən siyasi qeyri-sabitlik və nizamsız silahlı birləşmələrin fəaliyyəti Azərbaycanın təhlükəsizliyini ciddi təhdid altında qoymuşdu: "Belə mürəkkəb şəraitdə xalqın tələbi ilə hakimiyyətə qayıdan Ulu Öndər dövlət quruculuğu ilə yanaşı, ordu quruculuğunu da prioritet istiqamət kimi müəyyənləşdirdi. 1994-cü ildə əldə olunan atəşkəsdən sonra Silahlı Qüvvələrin vahid komandanlıq əsasında formalaşdırılması və peşəkar ordu modelinin yaradılması istiqamətində mühüm addımlar atıldı. Müdafiə sistemində institusional islahatlar həyata keçirildi, beynəlxalq hərbi əməkdaşlıq genişləndirildi və hərbi-siyasi qərarların qəbulunda mərkəzləşdirilmiş idarəetmə prinsipi təmin olundu. Məhz Ümummilli Liderin uzaqgörən siyasəti sayəsində orduda pərakəndəliyə son qoyuldu, nizam-intizam yaradıldı və hərbi kadrların yetişdirilməsi prosesi dövlət siyasətinin prioritetinə çevrildi. Heydər Əliyevin 1998-ci ildə imzaladığı fərmanla 26 iyunun Silahlı Qüvvələr Günü elan edilməsi, tarixi varisliyin bərpası baxımından atılmış ən mühüm addımlardan biri oldu".

K.Bayramov qeyd edib ki, bu gün hər bir Azərbaycan vətəndaşı Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu siyasətinin Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirildiyinə şahidlik edir: "Son illər Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi, hərbi qulluqçuların peşəkarlıq səviyyəsinin yüksəldilməsi və döyüş hazırlığının artırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Eyni zamanda silahlanma sahəsində aparılan modernləşmə prosesi nəticəsində Azərbaycan Ordusu ən müasir hərbi texnika və silah sistemləri ilə təchiz olunub. Türkiyə, Pakistan, İsrail və İtaliya kimi dost və tərəfdaş ölkələrlə qurulan əməkdaşlıq ordunun imkanlarını daha da genişləndirib, onun arsenalını müasir pilotsuz uçuş aparatları, yüksəkdəqiqlikli raket-artilleriya vasitələri və qabaqcıl müdafiə sistemləri ilə zənginləşdirib".

Deputat vurğulayıb ki, bütün bunların nəticəsi 2020-ci ildəki 44 günlük Vətən müharibəsində və 2023-cü ilin antiterror tədbirlərində özünü aydın göstərdi: "Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu uzun illər işğal altında qalan torpaqlarımızı azad edərək ölkəmizin ərazi bütövlüyünü və tarixi ədaləti bərpa edib. Bu gün Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Azərbaycan Ordusunun bugünkü qüdrəti illər ərzində həyata keçirilən məqsədyönlü dövlət siyasətinin nəticəsidir. Güclü ordu, milli birlik və qətiyyətli siyasi iradə Azərbaycanın müstəqilliyinin və təhlükəsizliyinin ən etibarlı təminatıdır. 26 İyun Silahlı Qüvvələr Günü isə bu uğurlu yolun, qəhrəman əsgər və zabitlərimizin xidmətinin, eləcə də dövlətimizin hərbi gücünün təntənəsinin rəmzidir".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# "Qızların təhsilinə dəstək" layihəsinin II Məzun Günü keçirilib





İyunun 24-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Elm və Təhsil Nazirliyi və Təhsilin İnkişafı Fondunun birgə təşkilatçılığı ilə "Qızların təhsilinə dəstək" layihəsinin II Məzun Günü keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.

Elm və təhsil naziri Emin Əmrullayev çıxışında qızların təhsilinin cəmiyyətin inkişafında mühüm rol oynadığını vurğulayaraq bildirib ki, layihə artıq davamlı təşəbbüsə çevrilib və bu il proqram üzrə 66 qız məzun adını qazanıb.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova qeyd edib ki, son beş ildə layihənin müxtəlif proqramlarından 593 nəfər yararlanıb. O, layihənin yüzlərlə qadın və qız üçün yeni imkanlar yaratdığını diqqətə çatdırıb.




Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Nicat Məmmədli isə bildirib ki, fondun həyata keçirdiyi müxtəlif təqaüd və inkişaf proqramları üzrə ümumilikdə 489 iştirakçı dəstək alıb. Onun sözlərinə görə, proqramlar gənc qızların təhsil və karyera imkanlarının genişlənməsinə xidmət edir. Tədbirdə layihənin builki məzunları təbrik edilib, onlara gül dəstələri təqdim olunub. Daha sonra bədii proqram nümayiş olunub.

Qeyd edək ki, "Qızların təhsilinə dəstək" layihəsi qızların ali təhsilə çıxışının genişləndirilməsi və onların gələcək inkişafının dəstəklənməsi məqsədilə həyata keçirilir.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Vatikan Apostol Kitabxanası və Apostol Arxivinin rəhbəri ilə görüşüb









Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ölkəmizdə səfərdə olan Vatikan Apostol Kitabxanası və Apostol Arxivinin rəhbəri arxiyepiskop Monsenyor Covanni Çezare Paqatzinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüş zamanı Heydər Əliyev Fondu ilə Vatikan arasında mövcud əməkdaşlıq sahələri, o cümlədən gələcək fəaliyyət istiqamətləri müzakirə olunub.

Qeyd edək ki, Heydər Əliyev Fondu ilə Vatikan Apostol Kitabxanası və Apostol Arxivi arasında əməkdaşlıq 2012-ci ildən etibarən həyata keçirilir.

Görüşdə Heydər Əliyev Fondu ilə Vatikan Apostol Kitabxanası və Apostol Arxivi arasında mövcud əməkdaşlığın inkişaf perspektivləri, gələcəkdə həyata keçirilməsi nəzərdə tutulan layihələr və təşəbbüslər, həmçinin Vatikan arxivindəki fondların rəqəmsal mühafizəsi sahəsində birgə layihələrin həyata keçirilməsi müzakirə olunub.

Vatikan Apostol Kitabxanası və Apostol Arxivinin rəhbəri arxiyepiskop Monsenyor Covanni Çezare Paqatzi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın ötən il Müqəddəs Taxt-Taca səfəri çərçivəsində Vatikan Apostol Kitabxanası və Apostol Arxivini ziyarət etdiyini xatırladaraq, ötən illər ərzində Azərbaycan və Vatikan arasında, eləcə də Heydər Əliyev Fondu ilə geniş əməkdaşlığın qurulduğunu bildirib.

Qonaq Azərbaycana səfəri zamanı bir sıra qurumlarda görüşlər keçirildiyini, müzakirələr zamanı Vatikan kolleksiyalarında Azərbaycanla bağlı qorunan nadir əlyazmaların müəyyənləşdirilməsi, təhlili, tərcüməsi və rəqəmsallaşdırılması məsələlərinin diqqət mərkəzində olduğunu deyib.

Bildirilib ki, Heydər Əliyev Fondu ilə Vatikan Apostol Kitabxanası və Apostol Arxivi ilə əməkdaşlıq çərçivəsində əlyazmaların bərpa edilməsi və onların rəqəmsallaşdırılmasına dair mövcud müqavilə üzrə Azərbaycanın tarixi və mədəni irsi, eləcə də türkdilli xalqların irsi ilə bağlı əhəmiyyətli əlyazmaların bərpası və rəqəmsallaşdırılması həyata keçirilib.

Ötən il Heydər Əliyev Fondu, Azərbaycan Milli Elmlər Akademiyası və Vatikan Apostol Kitabxanası və Apostol Arxivi arasında imzalanan anlaşma memorandumuna uyğun olaraq 2026-cı ildə azərbaycanlı alimlərdən ibarət nümayəndə heyətinin Vatikanda tədqiqatlar aparması nəzərdə tutulur. Tədqiqatlar Cənubi Qafqaz və Azərbaycan tarixi, eləcə də Ağqoyunlu və Səfəvi hökmdarlarının Roma papaları ilə diplomatik əlaqələrinə dair materialları əhatə edəcək.

Eyni zamanda gələcəkdə azərbaycanlı tələbələrin Vatikanda kitabxanaçılıq və arxiv sahələri üzrə təhsil alma imkanları da müzakirə olunub.

Görüş zamanı Vatikan nümayəndə heyətinə Azərbaycan xalçası hədiyyə olunub. Qonaqlar isə Vatikan Arxivində XX əsrin əvvəlində Azərbaycan tarixinə aid saxlanılan sənədin surətini hədiyyə ediblər.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Vatikan Apostol Kitabxanası və Apostol Arxivinin rəhbəri arxiyepiskop Monsenyor Covanni Çezare Paqatzi həmçinin Heydər Əliyev Mərkəzindəki sərgilərlə tanış olublar. Klassik avtomobillər sərgisinə ziyarət zamanı Heydər Əliyev Mərkəzinin direktoru, Azərbaycan Avtomobil Federasiyasının prezidenti Anar Ələkbərov müxtəlif dövrlərə aid avtomobillər barədə qonağa ətraflı məlumat verib. Daha sonra qonaqlar su ehtiyatlarının qorunmasına çağırış edən "Mənim dənizlərim, mənim okeanlarım" sərgisi ilə tanış olublar. Qeyd edək ki, Heydər Əliyev Fondu və IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin təşəbbüsü ilə təşkil edilən ekspozisiyada müasir rəssamların çirklənmə və həddindən artıq balıq ovundan tutmuş, bioloji müxtəlifliyin itirilməsinə qədər bir sıra qlobal problemləri əks etdirən əsərləri təqdim edilir. Əsərlərdə su həyatın, yenilənmənin və təsəvvürün mənbəyi kimi təsvir olunur.

# Energetika naziri Ağdamda vətəndaşlarla görüşüb

Energetika naziri Pərviz Şahbazov Ağdam Muğam Mərkəzində vətəndaşlarla görüşüb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə vətəndaşların elektrik şəbəkəsinə qoşulma, kabelləşmə və elektrik verilişi xətlərinin mühafizə zonası, işlə təminat və digər məsələlərə dair müraciətləri dinlənilib. Qaldırılan məsələlərin mövcud qanunvericiliyə uyğun şəkildə araşdırılması və operativ həlli məqsədilə müvafiq tapşırıqlar verilib. Nazirliyin aidiyyəti struktur bölmə rəhbərlərinin iştirakı ilə keçirilmiş görüşdə Bərdə, Ağdam, Tərtər rayonlarından olan vətəndaşlar iştirak ediblər.

# Azərbaycan-Türkmənistan tərəfdaşlığı türk dünyasında yeni əməkdaşlıq modelinin formalaşmasına xidmət edir

"Azərbaycan və Türkmənistan arasında münasibətlərin dinamik inkişafı təkcə ikitərəfli əlaqələrin genişlənməsi ilə məhdudlaşmır, bu proses bütövlükdə türk dünyasında əməkdaşlığın yeni məzmun qazanmasına və ortaq strateji baxışın formalaşmasına mühüm töhfə verir. Son illərdə iki ölkə arasında siyasi dialoqun intensivləşməsi, iqtisadi, enerji, nəqliyyat, logistika və humanitar sahələrdə əməkdaşlığın dərinləşməsi regional inteqrasiyanın mühüm istiqamətlərindən birinə çevrilib".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Kocaeli Heydər Əliyev Mədəniyyət Mərkəzinin sədri, türkiyəli siyasi ekspert Bilal Dündar bildirib.

Ekspert qeyd edib ki, Azərbaycan və Türkmənistan ortaq tarixi köklər, dil və mədəni bağlılıq üzərində formalaşan münasibətlərini müasir dövrün geosiyasi və iqtisadi çağırışlarına uyğun şəkildə inkişaf etdirirlər. Onun sözlərinə görə, bu əməkdaşlıq modeli türk dövlətləri arasında əlaqələrin daha institusional və davamlı xarakter almasına nümunə yaradır. Bilal Dündar vurğulayıb ki, son dövrlərdə yüksəksəviyyəli qarşılıqlı səfərlər, dövlət başçıları arasında keçirilən görüşlər və əldə olunan razılaşmalar əlaqələrin yeni mərhələyə yüksəldiyini nümayiş etdirir.

"Azərbaycan ilə Türkmənistan arasında formalaşan strateji yaxınlaşma Xəzər regionunda yeni iqtisadi imkanların açılması ilə yanaşı, türk dövlətləri arasında qarşılıqlı etimadın daha da güclənməsinə şərait yaradır. Bu gün türk dünyası artıq yalnız ortaq tarixi və mədəniyyət üzərində deyil, həm də iqtisadi inteqrasiya, enerji təhlükəsizliyi və nəqliyyat əlaqələri üzərində birləşən yeni inkişaf mərhələsinə daxil olur. Orta dəhlizin genişlənməsi və Xəzər üzərindən tranzit imkanlarının artırılması baxımından Azərbaycan və Türkmənistan arasında koordinasiyanın güclənməsi xüsusi əhəmiyyət daşıyır. Bu əməkdaşlıq Avropa ilə Asiyanı birləşdirən marşrutların rəqabət



qabiliyyətini artırmaqla yanaşı, region ölkələrinin iqtisadi potensialının daha səmərəli istifadəsinə imkan yaradır. Azərbaycanın son illərdə həyata keçirdiyi iri infrastruktur layihələri, beynəlxalq nəqliyyat və logistika təşəbbüsləri, eləcə də Türkmənistanın bu istiqamətdə artan fəallığı türk dünyasının vahid iqtisadi məkan kimi formalaşmasına mühüm töhfə verir", - deyə o bildirib.

Ekspert vurğulayıb ki, enerji sahəsində əməkdaşlığın genişləndirilməsi də münasibətlərin strateji xarakterini gücləndirən əsas amillərdəndir. Onun fikrincə, Xəzər hövzəsinin imkanlarından səmərəli istifadə olunması və regional enerji əməkdaşlığının genişlənməsi yeni iqtisadi əməkdaşlıq platformalarının yaranmasına səbəb ola bilər: "Türk Dövlətləri Təşkilatı çərçivəsində inkişaf edən münasibətlər göstərir ki, türk dünyasının gələcəyi daha çox ortaq iqtisadi maraqlar, koordinasiyalı siyasət və davamlı əməkdaşlıq üzərində qurulur. Azərbaycan və Türkmənistan bu prosesdə mühüm hərəkətverici qüvvələrdən biri kimi çıxış edir. İki ölkə arasında humanitar əlaqələrin, təhsil və mədəniyyət sahəsində əməkdaşlığın genişlənməsi də uzunmüddətli perspektivdə türk həmrəyliyinin daha da möhkəmlənməsinə xidmət edir. Azərbaycan-Türkmənistan münasibətlərinin hazırkı inkişaf dinamikası yalnız regional deyil, bütövlükdə türk coğrafiyasında siyasi sabitlik, iqtisadi rifah və ortaq gələcək baxışının güclənməsi baxımından mühüm əhəmiyyət daşıyır".

# *Türkiyənin sabiq naziri:* "Bir millət, iki dövlət" anlayışı Türkiyə-Azərbaycan münasibətlərinin əsasını təşkil edir

"Qarabağ bizim üçün həmişə ağrılı bir məsələ olub. Azərbaycan Prezidenti İlham Əliyev Vətən müharibəsində böyük qələbə qazandı. Qarabağı və ətraf ərazilər geri alındı. Hazırda orada sülh və sabitlik var. Azərbaycanın böyük yarası sağalıb. Qarabağ məsələsi hər zaman azərbaycanlılar qədər bizim üçün də çox önəmli və həssas mövzu olub".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyənin Xəzinədən və Ziraat Bankdan məsul sabiq dövlət naziri Cavit Çağlar mətbuata açıqlamasında deyib.

Sabiq nazir 1998-ci ildə Bakıda Ulu Öndərlə görüşünü xatırlayıb, Türkiyə ilə Azərbaycanın qardaş ölkələr olduğunu vurğulayıb: Heydər Əliyevin çox gözəl bir sözü var: "Bir millət, iki dövlət". O, bu ifadəni Türkiyə Böyük Millət Məclisində səsləndirmişdi. Bu anlayış Türkiyə-Azərbaycan münasibətlərinin əsasını təşkil edir. Qardaş Azərbaycanın yolu açıq olsun".



Türkiyənin qlobal arenada əldə etdiyi uğura toxunan Çağlar deyib: "Türkiyə beynəlxalq tərəfdaşlarına güvən verən bir ölkədir və bu uğurun ən böyük memarı Prezident Rəcəb Tayyib Ərdoğandır. Bu gün Türkiyənin müdafiə sənayesi çox yaxşı inkişaf edir. Əvvəllər biz hərbi hava vasitələrinin əksəriyyətini xaricdən almağa məcbur idik. İndi isə özümüz istehsal edirik".

Qeyd edək ki, Cavit Çağların siyasi fəaliyyətindən bəhs edən kitabda Azərbaycanla bağlı xatirələri də yer alıb.

# Azərbaycan heyəti "Anadolu Qartalı - 2026" beynəlxalq təlimində iştirak edir

Türkiyə Respublikasının Konya şəhərində yerləşən aviabazada hərbi qulluqçularımızın iştirakı ilə "Anadolu Qartalı - 2026" beynəlxalq taktiki-uçuş təlimi keçirilir.




Müdafiə Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, təlimə Azərbaycan Hərbi Hava Qüvvələrinin (HHQ) uçuş və texniki heyəti, həmçinin Su-25 hücum təyyarələri cəlb olunub. Əvvəlcə iştirakçılara təlimin məqsədi, keçiriləcəyi ərazi, müxtəlif mərhələlər üzrə icra olunacaq tapşırıqlar və təhlükəsizlik qaydaları barədə ətraflı məlumat verilib. Hərbi pilotlarımız təlimin planına uyğun olaraq mərhələlər üzrə qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlib, yüksək peşəkarlıq nümayiş etdiriblər.

Qeyd edək ki, təlimin əsas məqsədi iştirakçı ölkələrin HHQ-ləri arasında qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsi, təcrübə mübadiləsinin aparılması və birgə əməliyyat imkanlarının genişləndirilməsidir.

# Türkiyədə "Anadolu Qartalı-2026" təlim proqramına yenidən baxıldığı bildirilib

Türkiyənin Milli Müdafiə Nazirliyi 2026-cı il iyunun 22-dən iyulun 3-dək keçirilməsi planlaşdırılan "Anadolu Qartalı-2026" beynəlxalq hərbi təliminin proqramına dəyişikliklər edildiyini açıqlayıb.

AZƏRTAC qardaş ölkənin müdafiə qurumuna istinadla xəbər verir ki, qərar "son geosiyasi proseslər və iyulun 7-8-də Ankarada keçiriləcək NATO sammiti nəzərə alınmaqla" qəbul edilib.

"Əvvəlcədən müəyyənləşdirilmiş tarixlərdə keçirilən təlimlər Türkiyə, Azərbaycan və Misir hərbi qulluqçularının iştirakı ilə 3-lü Kartal Tatbikatı ("Üçtərəfli Qartal Təlimi") adı altında davam etdirilir. Təlimlərə Türkiyə Hərbi Hava Qüvvələrinin təyyarələri ilə yanaşı, Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus iki Su-25 və Misir Hərbi Hava Qüvvələrinə məxsus beş F-16 təyyarəsi cəlb olunub", - deyə Türkiyənin Milli Müdafiə Nazirliyindən bildirilib.

# Aqrar sahənin qanunvericilik bazası təkmilləşdirilir



**İyunun 25-də Milli Məclisin Aqrar siyasət komitəsinin iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda 6 qanun layihəsi birinci oxunuşda müzakirəyə təqdim edilib.**

Komitənin sədri Tahir Rzayev ölkə Prezidenti İlham Əliyevin sədrliyi ilə cari ilin may ayında kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə dövlət başçısının aqrar sektorun inkişafı və qarşıda duran vəzifələr barədə mühüm fikirlər səsləndirdiyini qeyd edib. O "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nda aqrar sahədə dayanıqlı inkişafın təmin edilməsi ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsinin, o cümlədən qanunvericilik bazasının təkmilləşdirilməsinin nəzərdə tutulduğunu söyləyib. Bu gün müzakirəyə çıxarılan qanun layihələrinin həmin məqsədlərə xidmət etdiyini vurğulayıb.

Sonra iclasın gündəliyində olan qanun layihələri təqdim edilib.

"Toxumçuluq haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi ilə bağlı diqqətə çatdırılıb ki, sənəd müasir dövrün tələbləri, yeni iqtisadi, nəzarət və dəstək mexanizmlərinin tətbiqi, habelə kənd təsərrüfatı sahəsində aparılan islahatların dərinləşdirilməsi zərurəti nəzərə alınmaqla sahə üzrə normativ hüquqi bazanın təkmilləşdirilməsini hədəfləyir. Bildirilib ki, layihədə toxumçuluq fəaliyyəti ilə bağlı bir sıra yeni anlayışların daxil edilməsi, toxum keyfiyyətinə nəzarət və sertifikatlaşdırma prosesinin beynəlxalq təcrübəyə uyğunlaşdırılması, bu sahədə fəaliyyət göstərən subyektlərin qeydiyyatının elektron şəkildə aparılması nəzərdə tutulur. Bununla yanaşı, rəqabət mühitinin formalaşması baxımından, yüksək nəsilli orijinal və elit toxumların istehsalına özəl sektorun cəlb edilməsi ilə bağlı müddəalar da öz əksini tapıb. Qeyd edilib ki, qanun layihəsi toxumçuluq sektorunda köklü islahat hesab edilməklə aqrar sektorun dayanıqlı inkişafına əhəmiyyətli təsir göstərəcək.

Növbəti məsələnin - "Seleksiya nailiyyətləri haqqında", "Dövlət rüsumu haqqında", "Lisenziyalar və icazələr haqqında" və "Texniki tənzimləmə haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinin "Toxumçuluq haqqında" yeni qanunun tələblərindən irəli gələrək hazırlandığını bildirilib. Layihədə seleksiya nailiyyətləri, qeydiyyata alınmış toxum əməliyyatçıları, toxumluq əkinlər barədə məlumatların məcmusunu özündə əks etdirən informasiya sistemi (Reyestri) təsbit edilir.

Sonra iclasda "Balıqçılıq haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi barədə məlumat verilib. Bildirilib ki, qanun layihəsi balıqçılıq və akvakultura sahəsində mövcud hüquqi tənzimləmənin təkmilləşdirilməsinə, sahənin müasir inkişaf meyillərinə uyğunlaşdırılmasına, su bioresurslarının səmərəli istifadəsi və mühafizəsinin təmin edilməsinə, habelə bu sahədəki hüquqi mexanizmlərin gücləndirilməsinə yönəlib.

Gündəliyin digər məsələsi olan "Dövlət rüsumu haqqında" və "Lisenziyalar və icazələr haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsində"Balıqçılıq haqqında" qanundan irəli gələrək müvafiq dəyişikliklərin təklif olunduğu qeyd edilib. Bildirilib ki, "Balıqçılıq haqqında" qanun layihəsində balıqçılıq su obyektlərində akvakultura fəaliyyətinin "akvakultura təsərrüfatlarının qeydiyyat şəhadətnaməsi" əsasında həyata keçirilməsi və qeydiyyat şəhadətnaməsinə görə dövlət rüsumu nəzərdə tutulur. Bundan irəli gələrək "Dövlət rüsumu haqqında" qanunun 18.69-cu maddəsi yeni redaksiyada verilir. "Lisenziyalar və icazələr haqqında" qanunda isə sahibkarlıq fəaliyyətinə verilən icazələrin siyahısına akvakultura təsərrüfatlarının qeydiyyat şəhadətnaməsi əlavə olunur.

Daha sonra Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Mülki Məcəllədə, "Daşınmaz əmlakın dövlət kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında", "Torpaq bazarı haqqında" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi təqdim edilib. Qeyd olunub ki, qanun layihəsi torpaq ehtiyatlarından səmərəli və dayanıqlı istifadənin təmin edilməsi, torpaqların konsolidasiyası üçün hüquqi zəminin formalaşdırılması məqsədilə hazırlanıb.

İclasda son olaraq Torpaq Məcəlləsində, Mülki Məcəllədə, "Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında", "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" 2017-ci il 15 dekabr tarixli 918-VQD nömrəli və "Aqrar sığorta haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi müzakirə olunub. Diqqətə çatdırılıb ki, qanun layihəsi ölkə Prezidentinin "Daşınmaz Əmlakın Elektron Reyestri və Kadastrı" informasiya sisteminin yaradılması haqqında" 17 noyabr 2023-cü il tarixli fərmanının icrası çərçivəsində hazırlanıb. Sənəddə daşınmaz əmlakın kadastrı və reyestri sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsi ilə bağlı dəyişikliklər nəzərdə tutur.

Gündəlikdəki məsələlər ətrafında aparılan müzakirələrdə komitənin üzvləri Eldar İbrahimov, Cavanşir Paşazadə, Azər Badamov, Aydın Hüseynov, Novruzəli Aslanov öz fikir və qeydlərini söyləyiblər.

İclasda iştirak edən kənd təsərrüfatı nazirinin müavinləri İlhamə Qədimova, Zaur Əliyev, Seymur Səfərli, Akvakultura Mərkəzinin direktoru Ceyhun Əliyev, Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri publik hüquqi şəxs tərəfindən sədr müavini Elşad Məmmədov, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin sədr müavini Balarəhim Quliyev, Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu İdarə Heyətinin sədri Əli Nəbiyev müzakirəyə çıxarılan qanun layihələrinin mahiyyəti ilə bağlı öz fikirlərini açıqlayıblar.

Tədbirdə təqdim edilən qanun layihələri birinci oxunuşda Milli Məclisin iclasına tövsiyə olunub.

İclasda komitənin üzvləri Xanlar Fətiyev, Malik Həsənov, Ağalar Vəliyev, parlament Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri Məhəmməd Bazıqov və digər rəsmi şəxslər iştirak ediblər.

*"Azərbaycan"*

# Azərbaycanla Türkmənistanın çoxtərəfli əlaqələri dərinləşir

Yeni regional güc mərkəzlərinin formalaşması fonunda Azərbaycanın Mərkəzi Asiya bölgəsi, xüsusən geostrateji tərəfdaşı olan Türkmənistanla qurduğu çoxşaxəli əlaqələr müstəsna əhəmiyyət kəsb edir. Etnik-mədəni mənşəyə, dil, din və tarixi birliyə malik olan bu iki Xəzəryanı qardaş dövlət 2017-ci ildə imzalanmış "Azərbaycan Respublikası ilə Türkmənistan arasında Strateji tərəfdaşlıq haqqında Bəyannamə" ilə ikitərəfli münasibətlərini keyfiyyətcə yeni, daha yüksək müstəviyə qaldırıb.



Bu baxımdan Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun Azərbaycana dövlət səfəri iki ölkə arasında münasibətlərin inkişafında mühüm hadisədir. Bu səfər ikitərəfli əlaqələrin ortaq tarixə, mədəniyyətə və strateji maraqlara söykənən qardaşlıq münasibətləri olduğunu bir daha nümayiş etdirdi. Səfər çərçivəsində keçirilən görüşlər, imzalanan sənədlər və verilən mesajlar təsdiqlədi ki, Bakı ilə Aşqabad arasında əməkdaşlıq yeni inkişaf mərhələsinə daxil olur.

Prezident İlham Əliyevin görüşlərdən sonra mətbuata bəyanatında səsləndirdiyi fikirlər də iki ölkə arasındakı əlaqələrin mahiyyətini aydın ifadə etdi. Dövlətimizin başçısı bildirdi ki, bu səfər ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin daha da möhkəmlənməsinə xidmət edəcək: "Konkret tapşırıqlar verildi. Əminəm ki, gələn ay Türkmənistanda keçiriləcək Hökumətlərarası Komissiya çərçivəsində bu gün verdiyimiz tapşırıqlar həmin vaxta qədər hərtərəfli işlənib hazırlanacaq və biz yeni birgə problemlərin həlli, yeni layihələrin reallaşdırılması mərhələsinə keçəcəyik".

Danışıqların gələn ay keçiriləcək Hökumətlərarası Komissiyanın iclasına qədər konkret tapşırıqlar formasında rəsmiləşdirilməsi regional tərəfdaşlığın yüksək dinamikasından xəbər verir. Bu yanaşma iki ölkənin yaxın perspektivdə irimiqyaslı və yeni birgə layihələrin icrasına dərhal başlamaq əzmində olduğunu sübut edir. Güclü liderlərin ortaq siyasi iradəsi və səmimi dostluq bağları iki qardaş dövlətin böyük Avrasiya məkanındakı geostrateji mövqelərini daha da möhkəmləndirir.

Azərbaycan-Türkmənistan əlaqələri mənəvi-mədəni sütunlar üzərində qərar tutub. Dövlətimizin başçısı diqqətə çatdırdı ki, Türkmənistanla münasibətlər möhkəm təməl - tarixi bağlar, mədəni əlaqələr və mənəvi əlaqələr üzərində qurulub: "Biz müntəzəm olaraq yaradıcı kollektivlərin çıxışlarını təşkil edirik. Elə bu yaxınlarda, bu ayın əvvəlində həm Aşqabadda, həm də Arkadağda Azərbaycan Mədəniyyəti Günləri keçirildi. Keçən il isə Türkmənistanın mədəniyyət xadimləri həm Bakıda, həm də Gəncədə keçirilən Mədəniyyət Günlərində bizi ziyarət etdilər". Ortaq tarixi keçmiş və mədəniyyət iki ölkənin dövlətlərarası dialoqunda hər zaman hərəkətverici qüvvə rolunu oynayır. Humanitar dinamika da təsdiqləyir ki, Xəzərin hər iki sahilində ucalan iqtisadi, logistik və strateji layihələr məhz tarixi-mənəvi sütunlar üzərində daha etibarlı və uzunmüddətli olur.

Səfərin diqqətçəkən məqamlarından biri Qarabağın bərpasına Türkmənistanın verdiyi dəstəyin yüksək qiymətləndirilməsi oldu. Prezident İlham Əliyev xüsusi olaraq qeyd etdi ki, türkmən xalqının Milli Lideri Qurbanqulu Berdiməhəmmədovun təşəbbüsü ilə Füzulidə məscid tikilir və artıq layihənin icrasına başlanılıb: "Qarabağın bərpasında köməyə görə Türkmənistana, əziz qardaşım Arkadağ Qurbanqulu Məlikquliyeviç Berdiməhəmmədova bir daha təşəkkürümü bildirmək istərdim. O, ötən ilin iyulunda ölkəmizə səfər edərkən Füzuli şəhərində məscidin tikintisi təşəbbüsünü irəli sürdü və artıq tikintiyə başlanılıb. Bu, Türkmənistanın, onun ümummilli liderinin və bütün qardaş Türkmənistan xalqının Azərbaycana səmimi, dostcasına münasibətinin daha bir göstəricisi idi". Bu təşəbbüs təkcə humanitar yardım deyil, işğaldan azad edilmiş torpaqlarda həyatın bərpasına qardaş dəstəyinin simvoludur.

Son illərdə yüksəksəviyyəli qarşılıqlı səfərlərin intensivliyi də diqqət çəkir. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən Türkmənistana həyata keçirilən 2 rəsmi və 5 işgüzar səfər, eləcə də dövlətimizin başçısının 2025-ci il avqustun 22-də Türkmənbaşı şəhərində keçirilən yüksəksəviyyəli görüşdə iştirakı Bakının əlaqələrə verdiyi önəmin göstəricisidir.

Azərbaycan və Türkmənistan beynəlxalq müstəvidə daim bir-birinə dəstək ifadə edir. Çoxtərəfli diplomatiya müstəvisində iki ölkənin BMT, İƏT, Türk Dövlətləri Təşkilatı və TÜRKSOY çərçivəsində nümayiş etdirdiyi qarşılıqlı dəstək xarici siyasət kurslarının sinxronluğundan xəbər verir.

Ölkəmizin Mərkəzi Asiya regionunun ayrılmaz parçasına, geosiyasi və geoiqtisadi tərəfdaşına çevrilməsi də olduqca əhəmiyyətlidir. Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Şurasına daxil olması Xəzərin hər iki sahilinin vahid mərkəzdə birləşdirilməsi deməkdir. Türkmənistanın bu prosesdə rəsmi Bakıya nümayiş etdirdiyi fəal dəstək iki ölkə arasındakı etimadın yüksək göstəricisidir. Bu gün coğrafi sərhədləri aşan tarixi, mədəni bağlar və ən əsası "Şərq-Qərb" dəhlizi üzərində qurulan nəqliyyat-logistika tərəfdaşlığı tamamilə yeni reallıq yaradır. Nəticədə Cənubi Qafqaz və Mərkəzi Asiya regionu etibarlı əməkdaşlıq zonasına çevrilir.

Azərbaycan və Türkmənistan Xəzər regionunun mühüm nəqliyyat-logistika qovşaqları olmaqla Avrasiya məkanında tranzit xətlərinin şaxələndirilməsində də strateji tərəfdaşlar kimi çıxış edirlər. Qlobal nəqliyyat marşrutlarının yenidən formalaşdığı bir dövrdə Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ilə Türkmənbaşı Beynəlxalq Dəniz Limanı arasında əməkdaşlığın inkişafı Orta dəhliz boyunca yük dövriyyəsinin artmasına və Avropa ilə Asiya arasında ticarət əlaqələrinin genişlənməsinə xidmət edir. Prezident İlham Əliyev bu barədə belə deyib: "Bu gün dünyada öz aralarında əməkdaşlıq edən ölkələri birləşdirən çox etibarlı, təhlükəsiz nəqliyyat marşrutları o qədər də çox deyil. Bu, böyük nailiyyətdir. Belə olan halda nəqliyyat və logistika layihələrini siyasi qarşılıqlı fəaliyyətdən təcrid olunmuş şəkildə nəzərdən keçirmək mümkün deyil. Siyasi qarşılıqlı fəaliyyət olmasaydı, heç bir coğrafi şərait səylərimizi birləşdirməyə imkan verməzdi".

Səfərin yaddaqalan və rəmzi hadisələrindən biri də Azərbaycan tərəfindən Türkmənistana "Dostluq" neftdaşıyan tankerinin hədiyyə olunmasıdır. Bakı Gəmiqayırma Zavodunda inşası uğurla tamamlanan bu müasir gəmi iki ölkə arasında dostluğun və qardaşlığın rəmzi olmaqla yanaşı, Azərbaycanın sənaye potensialını və yerli gəmiqayırma sektorunun yüksək texnoloji imkanlarını nümayiş etdirir. Bu addım rəsmi Bakının regional sənaye mərkəzi kimi mövqeyini daha da gücləndirir. İmzalanmış yeni sənədlər isə tərəfdaşlığı keyfiyyətcə yeni müstəviyə daşıyır.

Səfər çərçivəsində Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov Füzuli və Şuşa şəhərlərinə də səfər edib. Dövlətimizin başçısı tərəfindən Qarabağda qarşılanan Türkmənistan Prezidentinə 30 illik işğal dövründə Füzuli rayonunun ərazisində Ermənistan silahlı qüvvələri tərəfindən törədilmiş dağıntılar, vandalizm aktları, həmçinin şəhərin Baş planına uyğun olaraq həyata keçirilən və nəzərdə tutulan işlər barədə məlumat verilib. Bildirilib ki, Füzuli böyük nəqliyyat-logistika potensialına malik olmaqla Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əsas nəqliyyat arteriyalarının kəsişməsində yerləşir. Ali qonağa Türkmənistan tərəfindən Füzulidə inşa olunan məscid barədə də məlumat verilib. Qeyd edək ki, məscidin təməlini Prezident İlham Əliyev, Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov və Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının ötən ilin oktyabrında Qəbələdə keçirilmiş 12-ci Zirvə görüşündə iştirak edən digər dövlət və hökumət başçıları onlayn formatda qoyublar.

Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun Füzuli və Şuşaya bu səfəri rəsmi Aşqabadın Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə verdiyi ali səviyyəli dəstəyin ən bariz təzahürüdür. Ali qonağın Ermənistanın 30 illik işğal dövründə törətdiyi vandalizm aktları ilə yerindəcə tanış olması qardaş ölkənin Qarabağ reallıqlarına verdiyi obyektiv qiymətdir.

Nəticə etibarilə Azərbaycan və Türkmənistan milli maraqları qorumaqla yanaşı, həm də Şərqlə Qərbin qovşağında təhlükəsizliyin, sabitliyin və tərəqqinin etibarlı qarantı kimi çıxış edirlər. Xüsusən Prezident İlham Əliyevin rəhbərliyi ilə icra olunan uzaqgörən strategiya Xəzərin hər iki sahilini vahid və qüdrətli gələcəyə doğru inamla daşıyır.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Azərbaycan və Niderland Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr keçirilib

**İyunun 24-də Haaqada Azərbaycan Xarici İşlər Nazirliyi ilə Niderland Krallığının Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələr keçirilib. Azərbaycan nümayəndə heyətinə xarici işlər nazirinin müavini Fariz Rzayev, Niderland nümayəndə heyətinə isə xarici işlər nazirinin müavini Marsel de Vink rəhbərlik edib.**

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyindən məlumat verilib.

Bildirilib ki, məsləhətləşmələr zamanı Azərbaycan-Niderland münasibətlərinin mövcud vəziyyəti və inkişafı perspektivləri, bu çərçivədə həyata keçiriləcək tədbirlər barədə fikir mübadiləsi aparılıb, habelə regional və beynəlxalq məsələlər nəzərdən keçirilib.

Tərəflər siyasi dialoqun dərinləşdirilməsi məqsədilə qarşılıqlı rəsmi səfərlərin həyata keçirilməsinin, müntəzəm təmasların davam etdirilməsinin və beynəlxalq tədbirlər çərçivəsində görüşlərin keçirilməsinin əhəmiyyətini vurğulayıblar.

İqtisadi əməkdaşlığın genişləndirilməsi üçün prioritet istiqamətlərlə bağlı fikir mübadiləsi aparılıb. Həmçinin xalqlararası əlaqələrin möhkəmləndirilməsi məqsədilə mədəniyyət, elm və təhsil sahələrində əməkdaşlığın genişləndirilməsinin əhəmiyyəti qeyd olunub.

Məsləhətləşmələr zamanı regionda mövcud vəziyyət, Azərbaycan-Ermənistan sülh prosesi, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa, yenidənqurma və minatəmizləmə işləri barədə məlumat təqdim olunub.

Tərəflər beynəlxalq gündəlikdə dayanan məsələlər ətrafında fikir mübadiləsi aparıb, çoxtərəfli platformalarda əməkdaşlıq, irəli sürülmüş namizədliklərin qarşılıqlı dəstəklənməsi ilə bağlı mövqelərini bölüşüblər.

Məsləhətləşmələrdə habelə qarşılıqlı maraq kəsb edən digər regional və beynəlxalq mövzular ətrafında da fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində Fariz Rzayev həmçinin Niderlandın bir sıra rəsmiləri ilə görüşlər keçirib, eləcə də aparıcı beyin mərkəzlərinin təşkil etdiyi "dəyirmi masa"da iştirak edib.

# Azərbaycan Suriyada məktəblərin bərpasına və yenidən inşasına dəstək verəcək

Azərbaycan Suriyada 100 məktəbin bərpasına və daha 10 məktəbin yenidən inşasına dəstək verəcək.

AZƏRTAC xəbər verir ki, bunu Suriya parlamentinin hələbli deputatı Tarık Sulo Cevizcinin Bakıda "Körpü" Türkman İrsi Araşdırmaları Mərkəzi İctimai Birliyinin təşkilatçılığı, Azərbaycan Respublikasının QHT Agentliyinin tərəfdaşlığı ilə keçirilən II "Türkman irsi: vətəndaş cəmiyyətlərinin həmrəyliyi" adlı Forumda çıxışı zamanı deyib.

O bildirib ki, Azərbaycan Suriyada yeni dövrün başlamasından sonra yeni rəhbərliklə əlaqə quran ilk ölkələrdən biri olub. Diplomatik nümayəndələrini Suriyaya göndərərək əməkdaşlığı inkişaf etdirməyə hazır olduğunu bildirib və iki ölkə arasındakı münasibətlərin yenidən qurulmasında mühüm rol oynayıb. "Azərbaycan Suriyada iqtisadi, mədəni və sosial sahələrdə də ölkənin yanında olub. Xüsusilə enerji sahəsində göstərilən dəstək Suriyanın bərpasına və əsas xidmətlərin yaxşılaşdırılmasında töhfə verib", - deyə o qeyd edib.

O, bu il ilk dəfə olaraq "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" proqramı çərçivəsində suriyalı tələbələrin Azərbaycana gətiriləcəyini deyib: "Azərbaycan tərəfindən təşkil olunan yay düşərgələrinə ilk dəfə suriyalı tələbələr də dəvət edilib. Bütün bunlar Suriya ilə Azərbaycan arasında bütün sahələrdə əlaqələrin gündən-günə daha da gücləndiyini göstərməkdədir".

# Niderlandla konsulluq sahəsində əməkdaşlıq genişləndirilir

**22 iyun tarixində Haaqa şəhərində Azərbaycanın və Niderland Krallığının Xarici İşlər nazirlikləri arasında konsulluq sahəsi üzrə ilk iclas baş tutub. Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyindən məlumat verilib.**

Bildirilib ki, görüş zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər, o cümlədən konsulluq sahəsində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, viza siyasəti, əmək, daxili işlər, ədliyyə və hüquqi yardımın göstərilməsi sahələri üzrə əməkdaşlığın genişləndirilməsi mövzuları müzakirə edilib.

Danışıqlarda Azərbaycan nümayəndə heyətinə Azərbaycan Xarici İşlər Nazirliyinin Konsulluq idarəsinin rəisi Emil Səfərov, Niderland nümayəndə heyətinə isə Niderland Krallığının Xarici İşlər Nazirliyinin Konsulluq və viza məsələləri üzrə idarəsinin rəisi Jeron Roodenburq rəhbərlik edib.

Tərəflər konsulluq istiqaməti üzrə əlaqələrin inkişaf etdirilməsi məqsədilə ikitərəfli əməkdaşlıq mexanizminin yaradılmasına dair razılıq əldə ediblər.

Eyni zamanda nümayəndə heyətinin Niderland Krallığının Ədliyyə və Təhlükəsizlik Nazirliyinin rəsmiləri ilə keçirdiyi görüş zamanı iki ölkə arasında miqrasiya, readmissiya və digər əlaqədar sahələr üzrə müzakirələr aparılıb və təcrübə mübadiləsi həyata keçirilib.

İyunun 23-də nümayəndə heyəti Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasının və Beynəlxalq Miqrasiya Təşkilatının Niderland Krallığında yerləşən ofislərinin rəhbərləri ilə görüşlər keçirib.

İyunun 24-də isə nümayəndə heyəti Beynəlxalq Xüsusi Hüquq üzrə Haaqa Konfransının (HCCH) Baş katibi Kristof Bernaskoni tərəfindən qəbul edilib. Görüş çərçivəsində bu təşkilatın fəaliyyəti barədə Azərbaycan nümayəndə heyətinə məlumat verilib, Azərbaycan Respublikasının HCCH-in qoşulduğu beynəlxalq konvensiyaların icrasına və təşkilatla ölkəmiz arasında əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb.

*Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 25 iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# "İntellektual gömrük" informasiya sistemi haqqında

# ƏSASNAMƏ

### 1. Ümumi müddəalar

1.1. Bu Əsasnamə "İntellektual gömrük" informasiya sisteminin (bundan sonra -İGİS) fəaliyyətinin hüquqi, təşkilati və texnoloji əsaslarını müəyyən edir.

1.2. İGİS rəqəmsal texnologiyalardan, o cümlədən informasiya-kommunikasiya texnologiyalarından istifadə yolu ilə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin (bundan sonra - Komitə) fəaliyyətinin, malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi ilə bağlı proseslərin, gömrük nəzarətinin və gömrük rəsmiləşdirilməsinin, xarici ticarət iştirakçıları ilə, digər fiziki və hüquqi şəxslərlə əlaqələrin operativliyini, səmərəliliyini, şəffaflığını, habelə göstərilən xidmətlərin, İGİS-də saxlanılan məlumatların sistemliliyini və əlçatanlığını təmin edir.

1.3. İGİS-in formalaşdırılmasının məqsədi gömrük işi sahəsində dövlət idarəetməsinin optimallaşdırılmasından, gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsi proseslərinin təkmilləşdirilməsindən, habeləmüvafiq sahə üzrə təhlillər aparılmaqla proqnozların və hesabatların hazırlanmasından, göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsindən ibarətdir.

1.4. İGİS-də yaradılan, əldə edilən, toplanılan informasiya və elektron sənədlər Azərbaycan Respublikasının mülkiyyətidir.

1.5. Fərdi məlumatların İGİS-də toplanılmasının və işlənilməsinin məqsədi bu Əsasnamənin 1.2-ci bəndində qeyd olunanları təmin etməkdir. Fərdi məlumatların İGİS-də toplanılması, işlənilməsi və mühafizəsi "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına uyğun olaraq həyata keçirilir.

1.6. İGİS-in fəaliyyətinin təşkili, idarə olunması və təkmilləşdirilməsi ilə bağlı xərclər dövlət büdcəsi və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

1.7. İGİS Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın (bundan sonra - Qaydalar) 2.1-ci bəndində qeyd edilən prinsiplər əsasında formalaşdırılır və fəaliyyət göstərir.

1.8. Bu Əsasnamə əldə edilməsi məhdudlaşdırılmış informasiyanı ehtiva edən informasiya ehtiyatlarına və sistemlərinə, habelə kritik informasiya infrastrukturu obyektlərinə həmin sahələri tənzimləyən normativ hüquqi aktlara uyğun olaraq tətbiq edilir.

1.9. Bu Əsasnamədə istifadə olunan anlayışlar "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda, Qaydalarda, həmçinin Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarında müəyyən edilmiş mənaları ifadə edir.

### 2. İGİS-in texniki-texnoloji infrastrukturu

2.1. İGİS-in texniki-texnoloji infrastrukturu aşağıdakı əsas komponentlərdən ibarətdir:

2.1.1. proqram-texniki vasitələr və proqram təminatı;

2.1.2. telekommunikasiya qurğuları və kanalları;

2.1.3. informasiya ehtiyatı və onu idarəetmə paneli;

2.1.4. ehtiyat nüsxələr;

2.1.5. istismaraqədərki formalaşma mühitləri.

2.2. Proqram-texniki vasitələr və proqram təminatı vətəndaş və biznesyönümlü həllər əsasında "Mobil Prioritetli Tərtibat" prinsipi ilə qurularaq, İGİS-in funksiyalarının həyata keçirilməsini, fəaliyyətinin etibarlılığını və təhlükəsizliyini, habelə İGİS-dən istifadəni və məlumat mübadiləsini təmin edir.

2.3. İGİS fəaliyyətinin etibarlılığını və təhlükəsizliyini, operativ və keyfiyyətli xidmətlər göstərilməsini, habelə məlumat mübadiləsini təmin edən dayanıqlı, mühafizəli, yüksəkötürücülü fiber-optik əsas və digər ehtiyat telekommunikasiya qurğularına və kanallarına malikdir.

2.4. Qurulma topologiyasına uyğun olaraq İGİS-in telekommunikasiya qurğuları və kanalları iki səviyyədə təşkil edilir:

2.4.1. İGİS-in fəaliyyətinin təşkili üçün müvafiq qurumdaxili telekommunikasiya qurğuları və kanalları - sahibin struktur bölmələri tərəfindən;

2.4.2. İGİS-in digər dövlət informasiya ehtiyatları və sistemləri ilə qarşılıqlı fəaliyyətinin təşkili üçün istifadə edilən telekommunikasiya qurğuları və kanalları - Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (bundan sonra - XRİTDX) tərəfindən.

2.5. İGİS-də formalaşdırılan, İGİS-ə daxil edilən və ötürülən məlumatlar İGİS-in informasiya ehtiyatında saxlanılır.

2.6. İdarəetmə paneli İGİS-in informasiya ehtiyatının formalaşdırılmasını və idarə edilməsini, həmçinin informasiya ehtiyatından istifadəni təmin edir.

2.7. Fəaliyyətinin dayanıqlılığının və təhlükəsizliyinin təmin edilməsi məqsədilə İGİS, habelə İGİS-də toplanılan məlumatların ehtiyat nüsxələri "Hökumət buludu"nda saxlanılır.

2.8. İGİS-də aparılan dəyişikliklərin yoxlanılması istismaraqədərki formalaşma mühitlərində həyata keçirilir.

### 3. İGİS-in altsistemləri

3.1. İGİS aşağıdakı altsistemlərdən ibarətdir:

3.1.1. "Sərhəd" altsistemi;

3.1.2. "Prosedur tədbirləri" altsistemi;

3.1.3. "Gömrük rəsmiləşdirməsi" altsistemi;

3.1.4. "Poçt və kuryer daşımaları" altsistemi;

3.1.5. "Anbar" altsistemi;

3.1.6. "Maliyyə əməliyyatları" altsistemi;

3.1.7. "Avtomatlaşdırılmış risk analizi" altsistemi;

3.1.8. "Gömrük auditi" altsistemi;

3.1.9. "Gömrük hüquqpozmaları" altsistemi;

3.1.10. "Gömrük təmsilçiləri" altsistemi;

3.1.11. "Kargüzarlıq" altsistemi;

3.1.12. "Kadrların uçotu və idarə edilməsi" altsistemi;

3.1.13. "İnventar uçotu" altsistemi;

3.1.14. "Əməkdaşlıq" altsistemi;

3.1.15. "Hesabatlılıq vəanalitika" altsistemi;

3.1.16. "İnzibatçılıq" altsistemi;

3.1.17. "Təlim" altsistemi.

3.2. İGİS-in altsistemləri təyinatı üzrə müvafiq sahədə idarəetmənin təmin edilməsi üçün zəruri olan məlumatların toplanılmasını və emalını, İGİS-in inteqrasiyasını, monitorinq və təhlil aparılmasını, proqnozlar hazırlanmasını və müvafiq sahədə elektron xidmətlər göstərilməsini təmin edir.

3.3. İGİS-in strukturuna daxil olan altsistemlər vasitəsilə aşağıdakılar həyata keçirilir:

3.3.1. "Sərhəd" altsistemi vasitəsilə - malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi zamanı həyata keçirilən gömrük nəzarəti tədbirləri ilə bağlı məlumatların toplanılması, emalı, uçotu və sistemləşdirilməsi;

3.3.2. "Prosedur tədbirləri" altsistemi vasitəsilə - gömrük orqanları tərəfindən gömrük nəzarəti altında olan mallar və nəqliyyat vasitələri barəsində aparılan gömrük əməliyyatları, gömrük baxışı və gömrük yoxlaması, habelə əqli mülkiyyət hüquqlarının obyektləri olan malların reyestrinin aparılması ilə bağlı məlumatların toplanılması, emalı, uçotu və sistemləşdirilməsi;

3.3.3. "Gömrük rəsmiləşdirməsi" altsistemi vasitəsilə - malların və nəqliyyat vasitələrinin gömrük prosedurları altında yerləşdirilməsi, həmin prosedurların tətbiqi və başa çatdırılması ilə bağlı əməliyyatların qeydiyyatının aparılması və nəzarətin həyata keçirilməsi;

3.3.4. "Poçt və kuryer daşımaları" altsistemi vasitəsilə - beynəlxalq poçt göndərişləri və elektron ticarət vasitəsilə əldə edilmiş malların bəyan edilməsi, qeydiyyata alınması və gömrük nəzarəti ilə bağlı məlumatların toplanılması, uçotu və sistemləşdirilməsi;

3.3.5. "Anbar" altsistemi vasitəsilə - müvəqqəti saxlanc və gömrük anbarlarında yerləşdirilən malların hərəkətinə dair məlumatların toplanılması, uçotu və sistemləşdirilməsi;

3.3.6. "Maliyyə əməliyyatları" altsistemi vasitəsilə -gömrük ödənişlərinin, habelə dəbbə pulunun hesablanması, uçotu və ödənilməsinə nəzarətin həyata keçirilməsi, gömrük borcu üzrə təminat mexanizmlərinin idarə olunması, habelə gömrük borclarının təmin edilməsi ilə əlaqədar təqdim olunan qarantiyalarla əlaqədar bankların və bank olmayan kredit təşkilatlarının Komitə tərəfindən aparılan reyestrə daxil edilməsinə dair məlumatların toplanılması, emalı və sistemləşdirilməsi;

3.3.7. "Avtomatlaşdırılmış risk analizi" altsistemi vasitəsilə - süni intellekt əsaslı alqoritmlərdən istifadə yolu iləgömrük işi sahəsində risklərin müəyyən edilməsi, qiymətləndirilməsi və idarə olunması;

3.3.8. "Gömrük auditi" altsistemi vasitəsilə - xarici ticarət iştirakçıları barəsində gömrük orqanı tərəfindən həyata keçirilən gömrük auditinin nəticələrinin uçotunun aparılması və sistemləşdirilməsi;

3.3.9. "Gömrük hüquqpozmaları" altsistemi vasitəsilə - inzibati xətalar və cinayət xarakterli hüquqpozma faktları üzrə məlumatların qeydiyyata alınması, uçotu və izlənilməsi;

3.3.10. "Gömrük təmsilçiləri" altsistemi vasitəsilə - gömrük təmsilçilərinin qeydiyyata alınması və onların istifadəçi hüquqlarının idarə olunması;

3.3.11. "Kargüzarlıq" altsistemi vasitəsilə - Komitədə elektron sənəd dövriyyəsinin təşkili və icra intizamına nəzarətin həyata keçirilməsi;

3.3.12. "Kadrların uçotu və idarəedilməsi" altsistemi vasitəsilə - Komitədə insan resurslarının uçotunun aparılması və idarə olunması;

3.3.13. "İnventaruçotu" altsistemi vasitəsilə - Komitənin əsas vəsaitlərinin inventarlaşdırılmasına, uçotuna və hərəkətinin idarə olunmasına dair məlumatların toplanılması, emalı və sistemləşdirilməsi;

3.3.14. "Əməkdaşlıq" altsistemi vasitəsilə - "Gömrük-hökumət", "Gömrük-biznes" və "Gömrük-gömrük" istiqamətləri üzrə gömrük xidmətinin Azərbaycan Respublikasının digər dövlət orqanları (qurumları), biznes subyektləri və digər dövlətlərin gömrük xidmətləri ilə inteqrasiyasının təmin edilməsi, habelə məlumat mübadiləsinin həyata keçirilməsi ilə bağlı məlumatların toplanılması, emalı və sistemləşdirilməsi;

3.3.15. "Hesabatlılıq və analitika" altsistemi vasitəsilə - İGİS-ə daxil edilmiş məlumatlar əsasında statistik və analitik hesabatların hazırlanması və təhlillərin aparılması;

3.3.16. "İnzibatçılıq" altsistemi vasitəsilə - İGİS-ə məlumat göndərmək və ya oradan məlumat almaq istəyən şəxslərə İGİS üzrə istifadəçi hüquqlarının verilməsi və idarə edilməsi;

3.3.17. "Təlim" altsistemi vasitəsilə - Komitənin təşkilatçılığı, sifarişi və ya iştirakı ilətəlimlərin təşkili və keçirilməsi ilə bağlı məlumatların toplanılması, uçotu və sistemləşdirilməsi.

### 4. İGİS-ə daxil edilən və ötürülən məlumatlar

4.1. İGİS-ə bu Əsasnamənin 3.3-cü bəndində nəzərdə tutulmuş altsistemlər çərçivəsində toplanılanvə işlənilən məlumatlar daxil edilir.

4.2.İGİS-ə Elektron Hökumət İnformasiya Sistemi (bundan sonra - EHİS) vasitəsilə ötürülən məlumatlar aşağıdakılardır:

4.2.1. ixracı və idxalı Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq sərəncamları əsasında həyata keçirilən mallar barədə məlumatlar;

4.2.2. "İxrac nəzarəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ixrac nəzarətinə aid edilən malların (işlərin, xidmətlərin və əqli fəaliyyət nəticələrinin) ixracı, təkrar ixracı, idxalı, təkrar idxalı və tranziti üzrə verilmiş icazələr barədə məlumatlar;

4.2.3. "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların dövriyyəsinə dair xüsusi icazə barədə məlumatlar;

4.2.4. humanitar yardım kimi gətirilən mallara Azərbaycan Respublikası Nazirlər Kabinetinin razılığı barədəməlumatlar;

4.2.5. Azərbaycan Respublikasında qeydiyyata alınmış nəqliyyat vasitələrinin qeydiyyat şəhadətnamələri barədə məlumatlar;

4.2.6. beynəlxalq axtarışda olan nəqliyyat vasitələri barədə məlumatlar;

4.2.7. təhlükəli yüklərin nəqliyyat vasitəsilə daşınmasına lisenziya, təhlükəli yüklərin nəqliyyat vasitəsilə daşınmasına, o cümlədən ölkə ərazisindən tranzit keçirilməsinə icazə barədə məlumatlar;

4.2.8. ümumi istifadədə olan avtomobil yolları ilə iriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinin hərəkətinə icazə barədəməlumatlar;

4.2.9. avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrut üzrə sərnişin daşınması (sərnişin daşınmasının təşkili) haqqında müqavilə barədə məlumatlar;

4.2.10. Azərbaycan Respublikası ilə xarici ölkələr arasında avtomobil nəqliyyatı ilə daşımaları yerinə yetirmək üçün operatorlara verilən beynəlxalq yük və qeyri-müntəzəm sərnişin daşımalarına buraxılış vəsiqəsi və həmin vəsiqələrin əlavəsi olan buraxılış kartı barədə məlumatlar;

4.2.11. sərhəd sığorta müqaviləsi barədə və Azərbaycan Yaşıl Kartı üzrə "İcbari sığortalar haqqında" Azərbaycan Respublikası Qanununun 34-4.1.4-cü maddəsində nəzərdə tutulan məlumatlar;

4.2.12. hava gəmilərinin istismarçıları tərəfindən sərnişinlər və heyət üzvləri barədə "bir pəncərə" sisteminə ötürülən ilkin məlumatlar, sərnişin adlarının qeydiyyat məlumatları (emal olunmamış formada);

4.2.13. toksiki istehsalat tullantılarının utilizasiyasına dair lisenziya barədə məlumatlar;

4.2.14. prekursorların idxalı, ixracı və tranzit nəql edilməsi ilə bağlı fəaliyyət növünə verilən lisenziya barədə məlumatlar;

4.2.15. bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin idxalına verilən lisenziya barədə məlumatlar;

4.2.16. prekursorların illik tələbatı və ya illik tələbatın həcminin dəyişdirilməsi barədə qəbul edilmiş qərar üzrə məlumatlar;

4.2.17. Birləşmiş Millətlər Təşkilatının "Psixotrop vasitələr haqqında" 1971-ci il tarixli Konvensiyasının 1-ci və 2-ci siyahılarında nəzərdə tutulmuş psixotrop maddələrin idxalına və ixracına icazə barədə məlumatlar;

4.2.18. standart nümunələrin və ya ölçmə vasitələrinin tipinin təsdiq edilməsi haqqında sertifikat barədə məlumatlar;

4.2.19. malın mənşə ölkəsini təsdiq edən sertifikat barədə məlumatlar;

4.2.20. "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən tərtib edilən uyğunluq sertifikatı, uyğunluq bəyannaməsi və tanınmış xaricimənşəli uyğunluq sənədləri barədə məlumatlar;

4.2.21. "Damazlıq heyvandarlıq haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən Azərbaycan Respublikasında dövlət qeydiyyatı aparılmış damazlıq heyvanlara verilən damazlıq pasportu (şəhadətnaməsi) və sertifikatı barədə məlumatlar;

4.2.22. idxal və istehsal olunan baytarlıq preparatlarının qeydiyyat şəhadətnaməsi barədə məlumatlar;

4.2.23. kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarəti (dənizdən introduksiya, ixrac, təkrar ixrac və idxal) üçün icazə (sertifikat) barədə məlumatlar;

4.2.24. bitki və bitkiçilik məhsullarının ixracına (təkrar ixracına) fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatıbarədə məlumatlar;

4.2.25. ixrac edilən heyvanlara, heyvan mənşəli məhsullara və xammala beynəlxalq baytarlıq sertifikatı barədə məlumatlar;

4.2.26. idxal olunmuş qida və yem məhsullarına, habelə qida məhsulları ilə təmasda olan material və məmulatlara idxal zamanı "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən verilən elektron bildiriş, idxal sağlamlıq aktı, ixrac olunan qida və yem məhsullarına verilən sağlamlıq sertifikatı barədəməlumatlar;

4.2.27. vəhşi heyvanlardan və yabanı bitkilərdən dərman istehsalı üçün xammal- ilan, böyə və əqrəb zəhərlərinin ixracına rəy barədə məlumatlar;

4.2.28. çöl heyvanlarının, yabanı bitkilərin və qazıntılarda tapılmış heyvan sümüklərinin ixracına rəy barədəməlumatlar;

4.2.29. baytarlıq xidmətində tətbiq edilən dərman, bioloji preparatlar və baytarlıq ləvazimatlarının idxalına rəy barədəməlumatlar;

4.2.30. zooloji kolleksiyaların yaradılmasına, zənginləşdirilməsinə, onlarla ticarətə, habelə Azərbaycan Respublikasına gətirilməsinə, onun hüdudlarından kənara göndərilməsinə və aparılmasına icazə barədə məlumatlar;

4.2.31. pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin dövlət qeydiyyatı haqqında şəhadətnamə barədə məlumatlar;

4.2.32. xüsusi iqtisadi zonanın qeydiyyat şəhadətnaməsi barədə məlumatlar;

4.2.33. sənaye parkının rezidentinin qeydiyyat şəhadətnaməsi barədə məlumatlar;

4.2.34. texnologiyalar parkının qeydiyyat şəhadətnaməsi barədə məlumatlar;

4.2.35. texnoloji biznes inkubatorunun qeydiyyat şəhadətnaməsi barədə məlumatlar;

4.2.36. sənaye, texnologiyalar parklarının rezidenti, idarəedici təşkilatı və operatoru, habelə investisiya təşviqi sənədi almış hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər tərəfindən texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənəd barədə məlumatlar;

4.2.37. işğaldan azad edilmiş ərazilər üzrə idxalı əlavə dəyər vergisindən və gömrük rüsumundan azad edilən iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər tərəfindən texnikanın, texnoloji avadanlıqların və qurğuların, xammal və materialların idxalı üçün təsdiqedici sənəd barədə məlumatlar;

4.2.38. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin, habelə müharibə və hərbi əməliyyatların təsirinə məruz qalmış digərtəhlükəli ərazilərin minalardan və digər partlayıcı sursatlardan təmizlənməsi çərçivəsində bütün növ texnikanın, avadanlıqların, texniki vasitələrin və qurğuların, onların ehtiyat hissələrinin, fərdi zirehli qoruyucu geyimlərin, alətlərin,partlayıcı və pirotexniki vasitələrin, onların yaradılması və (və ya) istehsalı üçün texnologiyaların, avadanlıqların, dəstləşdirici hissələrin və xammalın, habelə minaaxtaran itlərinidxalı üçün təsdiqedici sənəd barədə məlumatlar;

4.2.39. KOB klaster şirkəti tərəfindən mikro, kiçik və orta sahibkarlığın inkişafını dəstəkləyən istehsal, yaxud emal məqsədləri üçün texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənəd barədə məlumatlar;

4.2.40. fövqəladə halların qarşısının alınması və bu halların nəticələrinin aradan qaldırılması məqsədilə maddi-texniki təchizat sisteminin yaradılması, seysmik-müşahidə məntəqələrinin və qəza-xilasetmə dəstələrinin yerləşdiriləcəyi bazaların təşkili və onların fəaliyyəti üçün xüsusi texniki vasitələrin, avadanlıqların, cihazların, alətlərin, komplektləşdirici məmulatların, ehtiyat hissələrinin, ləvazimatların və materialların idxalı üçün təsdiqedici sənəd barədə məlumatlar;

4.2.41. DVB-T və DVB-T2 standartına uyğun rəqəmli televiziya yayımı üçün avadanlığıvə onlara aid ötürücü anten fider sistemlərinin, həmçinin rəqəmli qəbuledici (çevirici) qurğuların idxalına dair təsdiqedici sənəd barədə məlumatlar;

4.2.42. Azərbaycan Respublikasının 2017-ci il üzrə yanacaq-enerji balansına uyğun olaraq, "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinə elektrik enerjisinin istehsalı üçün idxal olunan mazuta dair təsdiqedici sənəd barədə məlumatlar;

4.2.43. qızıldan və gümüşdən hazırlanan zərgərlik məmulatlarının istehsalı və emalı işlərinin görülməsi məqsədilə dəzgahların, avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənəd barədə məlumatlar;

4.2.44. investisiya təşviqi sənədi barədə məlumatlar;

4.2.45. ixrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında şəhadətnamə barədə məlumatlar;

4.2.46. svop əməliyyatları çərçivəsində xam neftin və təbii qazın idxalı üçün təsdiqedici sənəd barədə məlumatlar;

4.2.47. iri neft emalı zavodlarının (xam neft üzrə illik emal gücü 3 milyon tondan az olmayan) yenidən qurulması layihələri çərçivəsində avadanlıqların və materialların idxalı üçün təsdiqedici sənəd barədə məlumatlar;

4.2.48. elektrik enerjisinin ixrac və ya idxal edilməsinə icazə barədə məlumatlar;

4.2.49. sərgi, qastrol səfərləri, bərpa işləri, təqdimat, beynəlxalq mədəniyyət tədbirlərinin keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısına daxil edilmiş mədəni sərvətlərin müvəqqəti ixracına dair mədəni sərvətin mühafizə şəhadətnaməsi barədə məlumatlar;

4.2.50. mədəni sərvətlərin ixracına dair mədəni sərvətin mühafizə şəhadətnaməsi barədə məlumatlar;

4.2.51. transplantasiya məqsədilə idxal və ya ixrac edilən insan orqan və toxumalarının idxalına və ya ixracına xüsusi icazə verilməsi barədə qərar üzrə məlumatlar;

4.2.52. dərman vasitələrinin dövlət qeydiyyatı haqqında vəsiqə barədə məlumatlar;

4.2.53. dərman vasitələrinin Azərbaycan Respublikasının ərazisinə idxalına icazə barədə məlumatlar;

4.2.54. "Seleksiya nailiyyətləri haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, seleksiya nailiyyətinin yeniliyə görə ekspertizası, habelə seleksiya nailiyyətinin fərqliliyə, oxşarlığa və sabitliyə görə sınaq nəticələri əsasında qeydiyyata alınmış bitki sortları barədə məlumatlar;

4.2.55. Azərbaycan Respublikasının ərazisində quruda və dəniz iqtisadi zonası hüdudlarında yerləşən istilik enerji və mineral xammal yataqları haqqında və rayonlar üzrə məlumatın ixracına rəy barədə məlumatlar;

4.2.56. ixtiralar, "nou hau" və elmi tədqiqat işlərinin nəticələrinin (ixrac nəzarətinə düşənlər istisna olmaqla) ixracı üzrə rəy barədəməlumatlar;

4.2.57. xarici dövlətlərin nümayəndəlikləri və onların əməkdaşları, habelə digər qeyri-rezidentlər üçün gömrük güzəştlərinə əsas verən sənəd barədə məlumatlar;

4.2.58. qida zənciri obyektinin (subyektinin) qeydiyyata alınmasına və ya təsdiq edilməsinə, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalını və emalını həyata keçirən obyektlərin qeydiyyata alınmasına dair Qida Təhlükəsizliyi Reyestrindən çıxarış barədə məlumatlar;

4.2.59. tütün məmulatının idxalını və istehsalını həyata keçirən sahibkarlıq subyektlərinin Reyestrindən çıxarış barədə məlumatlar;

4.2.60. mobil telefonların qeydiyyatı barədə məlumatlar;

4.2.61. birbaşa gömrük təmsilçiliyi ilə bağlı əmək münasibətlərini təsdiq edən sənəd, habelə etibarnaməbarədə məlumatlar;

4.2.62. Azərbaycan Respublikası vətəndaşlarının şəxsiyyət vəsiqələri və ümumvətəndaş pasportları barədə məlumatlar;

4.2.63. Azərbaycan Respublikasında olduğu yer üzrə qeydiyyata alınmış, habelə müvəqqəti və daimi yaşamaq üçün icazə almış əcnəbilərin pasport məlumatları və Azərbaycan Respublikasında qalma (yaşama) müddətləri barədə məlumatlar;

4.2.64. fiziki şəxslərin sərhədkeçmə məlumatları;

4.2.65. xarici şəxslərlə bağlanılmış müqaviləyə əsasən ixrac olunmuş malların (işlərin, xidmətlərin) müqabilində vəsaitin müəyyənləşdirilmiş müddət ərzində ixracatçıya ödənilməsini müəyyən edən məlumatlar;

4.2.66. dini təyinatlı ədəbiyyatın (kağız və elektron daşıyıcılarda), audio və videomaterialların, mal və məmulatın dini məzmunlu başqa məlumat materiallarının gömrük sərhədindən keçirilməsinə və beynəlxalq poçt göndərişləri vasitəsilə alınmasına razılıq barədə məlumatlar;

4.2.67. ərazisində heyvanların xüsusi təhlükəli xəstəliklərinin baş verməsi qeydə alınan xarici ölkələr və idxalı qadağan olunmuş mallar barədə məlumatlar;

4.2.68. xəstəlik vərəqəsinin açılması barədə məlumatlar (gömrük orqanlarının əməkdaşlarına münasibətdə);

4.2.69. yük-nəqliyyat sənədləri barədə məlumatlar;

4.2.70. gömrük bəyannaməsi barədə məlumatlar;

4.2.71. gömrük rəsmiləşdirilməsi ilə bağlı müraciətlər barədə məlumatlar;

4.2.72. gömrük ödənişlərinə dair təminat sənədləri barədə məlumatlar;

4.2.73. gömrük ödənişlərinin həyata keçirilməsi barədə məlumatlar.

4.3. İGİS-in digər dövlət informasiya ehtiyatları və sistemləri ilə inteqrasiyası, habelə məlumat mübadiləsinin təşkili Qaydalara uyğun olaraq həyata keçirilir.

4.4. İGİS ilə digər dövlət informasiya ehtiyatları və sistemləri arasında məlumat mübadiləsini real vaxt rejimində həyata keçirmək mümkün olmadıqda, İGİS-ə sənədlər (məlumatlar) aidiyyəti qurumlar tərəfindən təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təsdiq edilməklə, onların elektron kabinetləri vasitəsilə daxil edilir.

4.5. İGİS-də formalaşdırılan sənədlər "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş tələblərə uyğun olaraq tərtib olunur və rəsmiləşdirilir.

### 5. İGİS-dən istifadə qaydası

5.1. Dövlət informasiya ehtiyatlarına və sistemlərinə malik olan qurumların İGİS-dən istifadəsi onların informasiya ehtiyatları və sistemləri Qaydaların 4-cü hissəsinə və "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq EHİS-ə inteqrasiya edildikdən sonra məlumat mübadiləsinin həyata keçirilməsi yolu ilə təmin edilir.

5.2. Dövlət informasiya ehtiyatlarına və sistemlərinə malik olmayan qurumların və digər hüquqi şəxslərin İGİS-dən istifadəsi onların elektron kabinetləri vasitəsilə təmin edilir. Bu halda qurumların və digər hüquqi şəxslərin rəhbər şəxsi tərəfindən İGİS-də qeydiyyatdan keçirilən və müvafiq hüquqlar verilən məsul şəxslər EHİS-in "Vahid Giriş" altsistemi vasitəsilə identikləşdirildikdən sonra avtomatik qaydada yaradılan elektron kabinetlərə daxil olaraq İGİS-dən istifadə edirlər.

5.3. Fiziki şəxslər EHİS-in "Vahid Giriş" altsistemi vasitəsilə İGİS-də identikləşdirildikdən sonra avtomatik qaydada yaradılan elektron kabinetlərinə daxil olaraq İGİS-dən istifadə edirlər.

5.4. İGİS vasitəsilə göstərilən elektron xidmətlərdən istifadə İGİS-in rəsmi internet informasiya ehtiyatı (EHİS-ə keçid verilməklə) və EHİS vasitəsilə, ödəniş edilməsi isə elektron kabinetdə ödəniş xidməti təchizatçıları vasitəsilə həyata keçirilir.

5.5. İGİS vasitəsilə təqdim edilən xidmət kanalları (portal, mobil tətbiq, virtual köməkçi və digər) istifadəçilərin İGİS-in fəaliyyətində iştirakını və onlardan istifadəsini, habelə elektron xidmətlərdən yararlanmasını təmin edir. Elektron xidmətlər, istifadəçi təcrübəsi və istifadəçi yönümlülüyü nəzərə alınmaqla xidmət kanalları vasitəsilə təqdim edilir.

### 6. Sahibin vəzifələri və hüquqları

6.1. İGİS-in fəaliyyətini təmin etmək üçün sahibin vəzifələri aşağıdakılardır:

6.1.1. İGİS-in idarə olunmasını təşkil etmək, təkmilləşdirilməsi və funksional imkanlarının artırılması istiqamətində tədbirlər görmək;

6.1.2. İGİS-in dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestrinə, o cümlədən İGİS-də toplanılan, işlənilən və mühafizə edilən fərdi məlumatların ("Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun 3.2-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla) informasiya sistemlərinin dövlət reyestrinə daxil edilməsi və dövlət qeydiyyatından keçirilməsi üçün tədbirlər görmək;

6.1.3. fərdi məlumatların İGİS-də toplanılmasının, işlənilməsinin və mühafizəsinin bu sahədə Azərbaycan Respublikasının normativ hüquqi aktlarının tələblərinə uyğunluğunun təmin edilməsi üçün tədbirlər görmək;

6.1.4. İGİS-in təşkili və fəaliyyəti üzrə qiymətləndirmə aparmaq üçün Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə (bundan sonra - Nazirlik) zəruri şərait yaratmaq, o cümlədən normativ hüquqi aktların tələblərinə uyğun olmasına nəzarət etmək məqsədilə İGİS-ə çıxış, habelə onların texnoloji infrastrukturu ilə tanışlıq (baxış) və test etmə imkanlarını təmin etmək;

6.1.5. İGİS-in informasiya təhlükəsizliyini XRİTDX və operator ilə, kritik informasiya infrastrukturunun obyekti hesab edilən dövlət informasiya ehtiyatlarına və sistemlərinə münasibətdə həmçinin Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti (bundan sonra - DTX) ilə, EHİS-in və "Hökumət buludu"nun informasiya təhlükəsizliyinə münasibətdə isə habelə Nazirliklə birlikdə təmin etmək;

6.1.6. İGİS-in informasiya təhlükəsizliyi məqsədilə mövcud və yarana biləcək təhlükələr və ya baş vermiş təhlükəsizlik insidentləri aşkar edildikdə, bu barədə məlumatları dərhal DTX-yə (kritik informasiya infrastrukturu obyektlərinə münasibətdə), XRİTDX-yə, EHİS-in və "Hökumət buludu"nun informasiya təhlükəsizliyinə münasibətdə isə həmçinin Nazirliyə təqdim etmək, habelə DTX, XRİTDX və Nazirlik tərəfindən bu barədə sorğular verildikdə həmin sorğuları dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq cavablandırmaq;

6.1.7. İGİS-ə daxil edilmiş və (və ya) ötürülmüş məlumatların mühafizəsinin, habelə daxil edilmiş məlumatların aktuallığının, etibarlılığının, təhrifolunmazlığının, əlçatanlığının, tamlığının və konfidensiallığının təmin edilməsi ilə bağlı tədbirlər görmək;

6.1.8. İGİS-ə qarşı müdaxilə cəhdləri aşkar etdikdə, bu barədə məlumatları dərhal aidiyyəti hüquq mühafizə orqanına təqdim etmək;

6.1.9. İGİS-in, o cümlədən onun ehtiyat nüsxələrinin "Hökumət buludu"nda saxlanılmasının və aparılmasının təmin edilməsi üçün Nazirlik və operatorla birlikdə tədbirlər görmək;

6.1.10. elektron xidmətlərin "bir pəncərə" prinsipi əsasında EHİS vasitəsilə göstərilməsini təmin etmək;

6.1.11. EHİS-də yaradılan elektron imkanlar vasitəsilə, istifadəçilərin tələbi əsasında, onlar barəsində məlumatlarda aparılan düzəlişləri təsdiq və ya rədd etmək;

6.1.12. İGİS-ə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

6.1.13. aidiyyəti qurumların İGİS-in fəaliyyəti ilə bağlı sorğularını vaxtında və hərtərəfli cavablandırmaq, habelə qeyd edilən sorğular əsasında zəruri məlumatları (sənədləri) onlara təqdim etmək;

6.1.14. dövlət xidmətləri göstərilməsi üçün tələb edilən sənədlər barədə informasiya digər dövlət informasiya ehtiyatlarında və sistemlərində olduqda, həmin informasiyanın ilkin mənbədən əldə edilməsi üçün operator və Nazirliklə birlikdə tədbirlər görmək;

6.1.15. normativ hüquqi aktlarla müəyyən edilmiş hüquqlarının həyata keçirilməsi və vəzifələrinin icrası zamanı əldə etdiyi zəruri məlumatları (sənədləri) İGİS-ə daxil etmək;

6.1.16. İGİS-dən sərbəst və maneəsiz istifadənin, habelə onun dayanıqlı və fasiləsiz fəaliyyətinin təmin olunmasına nəzarət etmək;

6.1.17. İGİS-də dəyişikliklər edilməsi üçün operatora göstərişlər vermək və onların həyata keçirilməsinə nəzarət etmək;

6.1.18. İGİS-in formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi işlərinin layihələrə, texniki reqlamentlərə, beynəlxalq standartlara və normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğun formada aparılmasına nəzarət etmək;

6.1.19. normativ hüquqi aktlarla müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

6.2. İGİS-in fəaliyyətini təmin etmək üçün sahibin aşağıdakı hüquqları vardır:

6.2.1. İGİS-in formalaşdırılması, istifadəsi və inkişaf etdirilməsi ilə bağlı beynəlxalq təcrübəni və standartları öyrənmək, bu sahədə beynəlxalq təşkilatlarla, habelə Azərbaycan Respublikasının və xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək;

6.2.2. İGİS-dən istifadə və onun funksiyaları ilə bağlı maarifləndirmə və məlumatlandırma işləri aparmaq;

6.2.3. İGİS-in fəaliyyətinin təmin olunması ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün aidiyyəti qurumlara sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

6.2.4. normativ hüquqi aktlarla müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

### 7. Operatorun vəzifələri və hüquqları

7.1. Operatorun vəzifələri aşağıdakılardır:

7.1.1. İGİS-in informasiya təhlükəsizliyini XRİTDX və sahiblə, kritik informasiya infrastrukturunun obyekti hesab edilən dövlət informasiya ehtiyatlarına və sistemlərinə münasibətdə həmçinin DTX ilə, EHİS-in və "Hökumət buludu"nun informasiya təhlükəsizliyinə münasibətdə isə habelə Nazirliklə birlikdə təmin etmək;

7.1.2. İGİS-in informasiya təhlükəsizliyi məqsədilə mövcud və yarana biləcək təhlükələr və ya baş vermiş təhlükəsizlik insidentləri aşkar edildikdə, bu barədə məlumatları dərhal DTX-yə (kritik informasiya infrastrukturu obyektlərinə münasibətdə), XRİTDX-yə, EHİS-in və "Hökumət buludu"nun informasiya təhlükəsizliyinə münasibətdə isə həmçinin Nazirliyə təqdim etmək, habelə DTX, XRİTDX və Nazirlik tərəfindən bu barədə sorğular verildikdə həmin sorğuları dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq cavablandırmaq;

7.1.3. İGİS-ə qarşı müdaxilə cəhdləri aşkar etdikdə, bu barədə məlumatları dərhal aidiyyəti hüquq mühafizə orqanına təqdim etmək;

7.1.4. İGİS-in, o cümlədən onun ehtiyat nüsxələrinin "Hökumət buludu"nda saxlanılmasının və aparılmasının təmin edilməsi üçün Nazirlik və sahiblə birlikdə tədbirlər görmək;

7.1.5. İGİS-in təhlükəsizliyi pozulduqda, fəaliyyətində nasazlıq yarandıqda, əsas avadanlıqlarında hər hansı qəza (xəta) baş verdiyi halda dərhal aidiyyəti dövlət orqanlarını və sahibi məlumatlandırmaq, nasazlığın və qəzanın (xətanın) qeydiyyatını aparmaq, dərhal aradan qaldırılması üçün sahibin verdiyi göstərişlərə uyğun təcili tədbirlər görmək, bu mümkün olmadıqda isə İGİS-in "Hökumət buludu"nun ehtiyat Data Mərkəzində fəaliyyətini davam etdirməsi üçün Nazirliklə birlikdə zəruri tədbirlər görmək;

7.1.6. İGİS-in fəaliyyətinin idarə olunması, təkmilləşdirilməsi və onun funksional imkanlarının artırılması istiqamətində, sahiblə razılaşdırmaqla, texniki tədbirlər görmək və bu barədə İGİS-in fəaliyyətində iştirak edən aidiyyəti dövlət qurumlarını məlumatlandırmaq;

7.1.7. İGİS-dən sərbəst və maneəsiz istifadəni, onun dayanıqlı və fasiləsiz fəaliyyətini təmin etmək məqsədilə İGİS-in proqram kompleksinə nəzarəti həyata keçirmək və mütəmadi texniki baxışı təşkil etmək;

7.1.8. normativ hüquqi aktlarla müəyyən edilmiş hüquqlarının həyata keçirilməsi və vəzifələrinin icrası zamanı əldə etdiyi zəruri məlumatları (sənədləri) İGİS-ə daxil etmək;

7.1.9. İGİS-i EHİS-ə inteqrasiya etmək, digər dövlət informasiya ehtiyatı və sistemi ilə məlumat mübadiləsini EHİS vasitəsilə həyata keçirmək;

7.1.10. İGİS-ə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

7.1.11. İGİS-in komponentlərinin və proqram təminatının təyinatı üzrə istismarını, texniki xidmətini, təmirini və yenilənməsini təmin etmək, təkmilləşdirilməsi üçün profilaktik iş aparmaq;

7.1.12. Nazirliyin və sahibin bu Əsasnamə ilə və digər normativ hüquqi aktlarla müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq verdikləri təkliflər əsasında İGİS-də dəyişikliklər edilməsi üçün tədbirlər görmək;

7.1.13. sahibin göstərişi ilə, normativ hüquqi aktlarda edilən dəyişikliklərə əsasən proqram təminatında uyğunlaşdırmalar aparılmasını, eləcə də yeni proqram modullarının yazılmasını və sınaqlar keçirilməsini təmin etmək;

7.1.14. İGİS-in formalaşdırılması, aparılması, inteqrasiyası və ya arxivləşdirilməsi ilə bağlı sənədləri və texniki məlumatları sahibə və Nazirliyə təqdim etmək;

7.1.15. İGİS-in formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi işlərini layihələrə, texniki reqlamentlərə, beynəlxalq standartlara və normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğun formada aparmaq;

7.1.16. İGİS-dən istifadəni, habelə onun üzərindən göstərilən elektron xidmətlərin əlçatanlığını təmin etmək üçün formalaşdırılan mobil tətbiqi "elektron marketlərdə" yerləşdirmək;

7.1.17. aidiyyəti qurumların İGİS-in fəaliyyəti ilə bağlı sorğularını vaxtında və hərtərəfli cavablandırmaq, habelə qeyd edilən sorğular əsasında zəruri məlumatları (sənədləri) onlara təqdim etmək;

7.1.18. normativ hüquqi aktlarla müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

*Ardı 16-cı səh.*

# "İntellektual gömrük" informasiya sistemi haqqında
# ƏSASNAMƏ

*Əvvəli 15-ci səh.*

7.2. Operatorun aşağıdakı hüquqları vardır:

7.2.1. İGİS-in fəaliyyətinin təmin olunması ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün aidiyyəti qurumlara sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

7.2.2. İGİS-in təkmilləşdirilməsi istiqamətində rəy və təkliflər vermək;

7.2.3. İGİS-lə məlumat mübadiləsində iştirak edəcək digər informasiya ehtiyatları və sistemləri müəyyən edilmiş texniki və funksional tələblərə cavab vermədiyi hallarda onlarda zəruri dəyişikliklər edilməsi məqsədilə məsələ qaldırmaq;

7.2.4. İGİS-in parametrlərində sahiblə razılaşdırmaqla dəyişiklik etmək və bütün mümkün parametrlər üzrə hesabatlar əldə etmək;

7.2.5. iştirakçılar və istifadəçilər İGİS-in təhlükəsiz və effektiv fəaliyyətinin pozulmasına səbəb olan əməllərə yol verdikdə, İGİS-ə giriş imkanını sahiblə razılaşdırmaqla ləğv etmək və ya məhdudlaşdırmaq;

7.2.6. normativ hüquqi aktlarla müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**8. İştirakçıların vəzifələri və hüquqları**

8.1. İştirakçıların vəzifələri aşağıdakılardır:

8.1.1. İGİS-ə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

8.1.2. İGİS-ə daxil olmağa imkan verən elektron imza vasitələrinin konfidensiallığını (məxfiliyini) təmin etmək;

8.1.3. aktual, tam və etibarlı məlumatları (sənədləri) vaxtında və dolğun şəkildə İGİS-ə daxil etmək (ötürmək);

8.1.4. məlumatların mühafizəsini təmin edən avadanlıq və proqram vasitələrinə müdaxilə etməmək;

8.1.5. İGİS-dən, habelə İGİS-də olan məlumatlardan (sənədlərdən) yalnız xidməti məqsədlər üçün istifadə etmək;

8.1.6. İGİS-də saxlanılan məlumatlarda (sənədlərdə) aşkar edilmiş səhvlərin aradan qaldırılması məqsədilə dərhal sahibə və ya operatora məlumat vermək;

8.1.7. sahibin və operatorun İGİS-ə daxil etdiyi və iştirakçının bilavasitə fəaliyyəti ilə bağlı olan yeni məlumatları izləmək;

8.1.8. İGİS-in fəaliyyətinə zərər gətirəcək, habelə onun fəaliyyətinin ləngiməsinə və ya dayanmasına səbəb ola biləcək hərəkətlərə yol verməmək;

8.1.9. məlumat mübadiləsi zamanı aşkar olunmuş çatışmazlıqların və yaranan nasazlıqların aradan qaldırılması ilə bağlı tədbirlər görmək, bu barədə sahibə və Nazirliyə məlumat vermək;

8.1.10. öz təşəbbüsləri, habelə Nazirliyin və sahibin bu Əsasnamə ilə və digər normativ hüquqi aktlarla müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq verdikləri təkliflər əsasında sahibi və ya operatoru olduğu dövlət informasiya ehtiyatlarında və sistemlərində zəruri dəyişikliklər etmək.

8.2. İştirakçıların aşağıdakı hüquqları vardır:

8.2.1. İGİS-in fəaliyyəti ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün sahibə və ya operatora sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

8.2.2. İGİS-in təkmilləşdirilməsi istiqamətində sahibə və ya operatora təkliflər vermək.

**9. İstifadəçilərin hüquqları**

9.1. İstifadəçilərin İGİS-dən istifadə ilə bağlı aşağıdakı hüquqları vardır:

9.1.1. İGİS-dəki açıq məlumatlarla tanış olmaq və onları əldə etmək;

9.1.2. qanunla müəyyən edilmiş hallar istisna olmaqla, özləri barəsində məlumatlarla tanış olmaq, onları əldə etmək və ya dəqiqləşdirilməsi üçün sahibə və ya operatora müraciət etmək;

9.1.3. elektron kabinetləri üzərindən müraciətlərini göndərmək, elektron xidmətlərdən istifadə etmək və ödənişləri həyata keçirmək;

9.1.4. sahiblə, operatorla, iştirakçılarla və digər istifadəçilərlə qarşılıqlı əlaqəni və sənəd (məlumat) mübadiləsini elektron qaydada həyata keçirmək;

9.1.5. İGİS-in fəaliyyətinin təkmilləşdirilməsinə dair təkliflər vermək;

9.1.6. İGİS-dən istifadə ilə bağlı hüquqlarının pozulmasından inzibati qaydada və (və ya) məhkəməyə şikayət etmək;

9.1.7. normativ hüquqi aktlarla müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

*Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 25 iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# "Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi" publik hüquqi şəxsin
# NİZAMNAMƏSİ

**1. Ümumi müddəalar**

1.1. Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi (bundan sonra - Agentlik) Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqi, xidmətlər zərfi çərçivəsində tibbi xidmətlərin, eləcə də sığortaolunanların dərman və tibb vasitələri ilə təmin edilməsinin maliyyələşdirilməsi üçün vəsaitin icbari tibbi sığorta fondunda cəmləşdirilməsi və həmin vəsaitin idarə olunması, icbari tibbi sığorta üzrə dövlət adından tibbi xidmətlərin mərkəzləşdirilmiş alıcısı və xərclərin ödənilməsi, habelə əlilliyin müəyyən edilməsi və müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların yekun tibbi müayinəsi sahəsində (bundan sonra - müvafiq sahə) fəaliyyət göstərən publik hüquqi şəxsdir.

1.2. Agentlik Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (bundan sonra - Nazirlik) tabeliyində fəaliyyət göstərir.

1.3. Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Nazirliyin normativ hüquqi aktlarını, Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin əmr və sərəncamlarını rəhbər tutur.

1.4. Agentlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə və digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.5. Agentlik ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur. Agentlik bu Nizamnamədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.

1.6. Agentliyin müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, Nazirliyin adı və öz adı, "Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, həmçinin Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.7. Qanuna uyğun olaraq, Agentliyin əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. Agentlik məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edə bilər.

1.8. Agentlik Bakı şəhərində yerləşir.

**2. Agentliyin fəaliyyət istiqamətləri**

2.1. Agentliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq sahənin inkişafını təmin etmək;

2.1.2. müvafiq sahədə dövlət siyasətinin formalaşdırılması ilə bağlı Nazirliyə təkliflər vermək, həmin siyasətin həyata keçirilməsində iştirak etmək;

2.1.3. müvafiq sahədə aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, təkliflərin işlənib hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

2.1.4. müvafiq sahədə fəaliyyətin təkmilləşdirilməsi və şəffaflığın artırılması, göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, onların elektron qaydada həyata keçirilməsi məqsədilə tədbirlər görmək, habelə innovativ ideya və təklifləri dəstəkləmək;

2.1.5. əhalinin icbari tibbi sığortalanmasını həyata keçirmək və icbari tibbi sığortanın maliyyə dayanıqlığını təmin etmək;

2.1.6. icbari tibbi sığorta çərçivəsində tibbi xidmətlərdən istifadə edilməsində əhali üçün bərabər şərtlər yaradılması, icbari tibbi sığortanın hamı üçün əlçatan olması, əhalinin sağlamlığının qorunması məqsədilə tibbi xidmətlərin keyfiyyətinin, habelə tibbi xidmətlərdən, dərman və tibb vasitələrindən istifadənin səmərəliliyinin artırılması istiqamətində tədbirlər görmək;

2.1.7. strukturuna daxil olan tibbi-sosial ekspert komissiyaları vasitəsilə əlilliyin qiymətləndirilməsini həyata keçirmək;

2.1.8. strukturuna daxil olan tibbi qiymətləndirmə komissiyaları vasitəsilə müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların yekun tibbi müayinəsini həyata keçirmək;

2.1.9. əlilliyi olan şəxslərin Fərdi Reabilitasiya Proqramının tərtibi ilə bağlı çoxsahəli komissiyaların işində iştirak etmək;

2.1.10. bu Nizamnamə ilə müəyyən edilən digər istiqamətlərdə fəaliyyət göstərmək.

**3. Agentliyin vəzifələri və hüquqları**

3.1. Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Agentliyin vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq sahədə normativ hüquqi aktların, inkişaf konsepsiyalarının və məqsədli proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.2. beynəlxalq təcrübə nəzərə alınmaqla, icbari tibbi sığorta sahəsində tədqiqatlar aparmaq və həmin tədqiqatların nəticələri əsasında xidmətlər zərfinin müəyyən olunmasına dair Nazirliyə təkliflər vermək;

3.1.3. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, icbari tibbi sığorta haqqının məbləğinin müəyyən olunmasına dair Nazirliyə təkliflər vermək;

3.1.4. icbari tibbi sığorta fondunun büdcəsinin layihəsini hazırlayıb Nazirliyə təqdim etmək;

3.1.5. icbari tibbi sığorta sisteminin inkişaf istiqamətləri üzrə Nazirliyə təkliflər vermək;

3.1.6. tibb müəssisələrində göstərilən tibbi xidmətlər üzrə standartların, o cümlədən klinik protokolların hazırlanmasında iştirak etmək, maliyyələşdirilməsini təmin etmək və onların icbari tibbi sığorta sistemində tətbiqinə nəzarəti təşkil etmək;

3.1.7. icbari tibbi sığorta üzrə sığorta olunanların fərdi uçotunu aparmaq və icbari tibbi sığorta sistemində onların hüquqlarının müdafiəsini həyata keçirmək;

3.1.8. icbari tibbi sığorta haqlarının, qanunla və bu Nizamnamə ilə müəyyən edilmiş digər vəsaitlərin yığılmasını və onlardan təyinatı üzrə səmərəli istifadəni təmin etmək, icbari tibbi sığortanın maliyyə sabitliyinin təmin edilməsi məqsədilə icbari tibbi sığorta ehtiyatları yaratmaq və icbari tibbi sığorta vəsaitlərini idarə etmək;

3.1.9. xidmətlər zərfində nəzərdə tutulmuş tibbi xidmətlərin göstərilməsi üçün tibb müəssisələri ilə tibbi xidmətlərin göstərilməsi haqqında, habelə aptek təşkilatları ilə ambulator şəraitdə dərman vasitələrinin buraxılması haqqında müqavilələr bağlamaq;

3.1.10. xidmətlər zərfinə daxil olan həcmdə göstərilən tibbi xidmətlərə, buraxılmış dərman vasitələrinə görə sığorta ödənişlərinin müqavilədə nəzərdə tutulmuş qaydada və müddətdə tibb müəssisələrinə və aptek təşkilatlarına ödənilməsini təmin etmək;

3.1.11. xidmətlər zərfi çərçivəsində tibb müəssisələri tərəfindən göstərilən tibbi xidmətlərin növünün, həcminin, müddətinin, keyfiyyətinin və tariflərinin tərəflərlə bağlanılmış müqavilənin şərtlərinə uyğun olmasına nəzarət etmək;

3.1.12. icbari tibbi sığorta çərçivəsində aptek təşkilatları tərəfindən buraxılan dərman vasitələrinin həcminin və buraxılma şərtlərinin tərəflərlə bağlanılmış müqavilənin şərtlərinə uyğun olmasına nəzarət etmək;

3.1.13. xidmətlər zərfi çərçivəsində əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi istiqamətində tədbirlər görmək;

3.1.14. icbari tibbi sığortaya cəlb olunan tibb müəssisələrinin və aptek təşkilatlarının vahid reyestrini aparmaq;

3.1.15. icbari tibbi sığortanın təbliği və bu istiqamətdə əhalinin maarifləndirilməsi məqsədilə tədbirlər görmək;

3.1.16. tibbi-sosial ekspertiza keçirərək şəxslərin əlilliyini qiymətləndirmək;

3.1.17. əlilliyin qiymətləndirilməsi əsasında şəxsin orqanizminin funksiyalarının pozulması faizi, əlilliyin müddəti və səbəbi barədə qərar qəbulunu təmin etmək;

3.1.18. tibbi-sosial ekspert komissiyaları vasitəsilə əlilliyi müəyyən olunan şəxslərin Fərdi Reabilitasiya Proqramının tərtib edilməsi ilə bağlı çoxsahəli komissiyaların işində iştirak etmək;

3.1.19. əlilliyin yaranmasına, inkişafına və nəticəsinə təsir göstərən səbəblər, şərait və amillərlə, habelə əlilliyin qarşısının alınması ilə bağlı Nazirliyə təkliflər vermək;

3.1.20. istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində işçinin peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsini, habelə istehsalatda bədbəxt hadisələr və peşə xəstəliyi ilə əlaqədar işçinin (sağlamlığı xəsarət yetirilmə nəticəsində və ya başqa şəkildə pozulmuş fiziki şəxsin) əlavə xərclərə (müalicəyə, əlavə qidalanmaya, dərman alınmasına, protezləşdirməyə, başqasının qulluğuna, sanatoriya-kurort müalicəsinə, xüsusi nəqliyyat vasitəsinin verilməsinə və başqa peşə öyrədilməsinə) ehtiyacı olub-olmadığını tibbi-sosial ekspert komissiyaları vasitəsilə müəyyən etmək;

3.1.21. işləyən əlilliyi olan şəxslərin səhhətinin peşə vəzifələrini yerinə yetirməsinə mane olduğu, yaxud başqa şəxslərin səhhəti və əmək təhlükəsizliyi üçün təhlükə törətdiyi hallar barədə tibbi-sosial ekspert komissiyaları tərəfindən rəy verilməsini təmin etmək;

3.1.22. əlilliyi müəyyən edilmiş çağırışçılar və hərbi vəzifəlilər haqqında Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələrinə elektron qaydada məlumat verilməsini təmin etmək;

3.1.23. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 15.3-cü maddəsinə uyğun olaraq, yekun tibbi müayinəni aparmaq və bu sahədə işin optimallaşdırılması barədə Nazirliyə təkliflər vermək;

3.1.24. Azərbaycan Respublikasının beynəlxalq müqavilələri ilə tənzimlənən və Agentliyin səlahiyyətinə aid olan məsələlər üzrə Azərbaycan Respublikasının götürdüyü öhdəliklərin yerinə yetirilməsini təmin etmək;

3.1.25. Agentliyin maddi-texniki bazasının möhkəmləndirilməsi, o cümlədən müasir informasiya texnologiyaları ilə təmin edilməsi barədə təkliflər vermək;

3.1.26. müvafiq sahədə elektron xidmətləri, "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı nəzərə alınmaqla, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 634 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında" Əsasnaməyə uyğun olaraq təşkil etmək;

3.1.27. fəaliyyət istiqamətləri üzrə statistik və maliyyə hesabatlarını Nazirliyə və aidiyyəti üzrə müvafiq dövlət orqanlarına (qurumlarına) təqdim etmək;

3.1.28. müvafiq sahə ilə bağlı dövlət orqanları, beynəlxalq təşkilatlar, hüquqi və fiziki şəxslər tərəfindən maliyyələşdirilən məqsədli proqram və layihələri onlarla birlikdə həyata keçirmək;

3.1.29. müvafiq sahə ilə bağlı innovativ layihələrdən (o cümlədən startaplardan) istifadə imkanını araşdırmaq və Nazirliyə təkliflər vermək;

3.1.30. fəaliyyəti ilə bağlı malların (işlərin və xidmətlərin) satın alınmasını "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirmək;

3.1.31. müvafiq sahədə inzibati xəta əlamətləri aşkar etdikdə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirlər görmək, cinayət əlamətləri olduqda isə aidiyyəti üzrə məlumat vermək;

3.1.32. dövlət orqanlarının (qurumlarının), yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin müvafiq sahə üzrə fəaliyyətini əlaqələndirmək;

3.1.33. Agentliyin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq, qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.34. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək, Agentlik əməkdaşlarının əlavə təhsili və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görmək;

3.1.35. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet informasiya ehtiyatının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin informasiya ehtiyatında yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.36. Agentliyə ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.37. dövlət, kommersiya və həkim sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.38. Agentliyin informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.39. Agentliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.40. qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

3.1.41. müvafiq sahədə təlimlər təşkil etmək, peşəkar mütəxəssislərin hazırlanması, mövcud kadrların ixtisasının artırılması və tədris proqramlarının tərtibi ilə bağlı təkliflər vermək, onların həyata keçirilməsində iştirak etmək;

3.1.42. bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

3.2. Bu Nizamnamə ilə müəyyən edilmiş vəzifələri yerinə yetirmək üçün Agentliyin aşağıdakı hüquqları vardır:

3.2.1. müvafiq sahədə normativ hüquqi aktın layihəsinin qəbul olunması, aktda dəyişiklik edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi barədə Nazirliyə təkliflər vermək;

3.2.2. müvafiq sahədə beynəlxalq müqavilələrə Azərbaycan Respublikasının tərəfdar çıxması barədə təkliflər vermək;

3.2.3. icrası məcburi olan göstərişlər vermək və bundan irəli gələn tədbirlər görmək;

3.2.4. Nazirliklə razılaşdırmaqla, xidmətlər zərfi çərçivəsində tibbi xidmətlər göstərilməsi üçün tibb müəssisələrini seçmək;

3.2.5. xidmətlər zərfi çərçivəsində tibbi xidmətlər üçün tariflərin müəyyən olunmasına dair Nazirliyə təkliflər vermək;

3.2.6.icbari tibbi sığorta çərçivəsində sığortaolunanlara göstərilən tibbi xidmətin həcminə, müddətinə, keyfiyyətinə və şərtlərinə, habelə sığortaolunanlara buraxılan dərman vasitələrinin həcminə və buraxılma şərtlərinə nəzarət etmək məqsədilə seçmə üsulu ilə tibbi-iqtisadi ekspertiza və tibbi xidmətin keyfiyyətinin ekspertizasını həyata keçirmək;

3.2.7. tibb müəssisələri, həmçinin aptek təşkilatları müqavilə şərtlərini pozduqları hallarda tibbi xidmətlərə, habelə buraxılmış dərman vasitələrinə çəkilən xərcləri qismən ödəmək və ya ödəməkdən imtina etmək;

3.2.8. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, subroqasiya hüququndan istifadə etmək;

3.2.9. icbari tibbi sığortanın maliyyələşdirilməsi üçün nəzərdə tutulan vəsaitin həcminin artırılması və icbari tibbi sığortanın maliyyə dayanıqlığının təmin edilməsi məqsədilə sərbəst maliyyə vəsaitini yerli bazarda investisiyaya yönəltmək;

3.2.10. icbari tibbi sığortanın inkişafı məqsədilə investisiyalar cəlb etmək;

3.2.11. tibb müəssisəsinin və (və ya) tibb işçisinin təqsiri üzündən sığortaolunana vurulmuş zərərin ödənilməsi üçün məhkəməyə müraciət etmək;

3.2.12. tibbi-sosial ekspert komissiyalarının qərarlarından narazı olan vətəndaşların müraciəti əsasında, habelə əlilliyin qiymətləndirilməsi barədə tibbi-sosial ekspert komissiyasının qərarının düzgünlüyünü şübhə altına alan əsaslı sübutlar olduqda, əlilliyi müəyyən edilmiş şəxsləri əyani müayinəyə cəlb etmək;

3.2.13. tibbi-sosial ekspert komissiyasının qərarının qüvvədə saxlanılması, dəyişdirilməsi və ya ləğvi barədə qərar qəbul etmək;

3.2.14. tibbi-sosial ekspert komissiyalarının qərar qəbul etməkdə çətinlik çəkdiyi mürəkkəb ekspertiza hallarında tibbi-sosial ekspert komissiyalarına məsləhət vermək;

3.2.15. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

3.2.16. müvafiq sahədə beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla, xaricdə fəaliyyət göstərən müvafiq qurumlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

3.2.17. könüllüləri öz fəaliyyətinə cəlb etmək;

3.2.18. dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.19. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;

3.2.20. müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

3.2.21. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

3.2.22. əməkdaşlarını dövlət təltiflərinə və digər mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

3.2.23. sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, təsərrüfat cəmiyyətləri yaratmaq və ya onlarda iştirak etmək;

3.2.24. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

3.2.25. bu Nizamnamə ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**4. Agentliyin idarə olunması**

4.1. Agentlik öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir.

4.2. Agentliyin idarəetmə orqanı İdarə Heyətidir.

4.3. İdarə Heyəti Agentliyin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirir.

4.4. İdarə Heyətinin tərkibi 5 (beş) üzvdən - Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən İdarə Heyətinin sədrindən və onun 4 (dörd) müavinindən ibarətdir.

4.5. İdarə Heyətinin vəzifələri aşağıdakılardır:

4.5.1. təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi üçün Nazirliyə təkliflər vermək və sənədlər (o cümlədən Agentliyin illik maliyyə hesabatını və fəaliyyətinə dair illik hesabatı) təqdim etmək;

4.5.2. Agentliyin strateji məqsəd və planlarını müəyyən etmək, inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi üçün Nazirliyə təkliflər vermək;

4.5.3. Agentliyin fəaliyyətini təşkil etmək və ona nəzarət etmək;

4.5.4. Agentliyin maliyyə planlaşdırmasını və büdcəsini Nazirliklə razılaşdırmaqla təsdiq etmək;

4.5.5. Agentliyin sığorta ehtiyat fondlarının formalaşdırılması və bu ehtiyatlardan istifadə qaydasını müəyyən etmək;

4.5.6. dərman vasitələrinin pozitiv siyahısını və şərti kompensasiya məbləğini müəyyən etmək;

4.5.7. icbari tibbi sığorta haqlarının məbləğinin və bu haqların ödənilmə qaydasının müəyyən edilməsinə dair təkliflər vermək;

4.5.8. Agentliyin strukturunun, əməyin ödənişi fondunun, habelə işçilərin say həddinin və onların əməkhaqlarının məbləğinin (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) təsdiq edilməsi üçün Nazirliyə təkliflər vermək;

4.5.9. Nazirliyin razılığı ilə Agentliyin təsərrüfat cəmiyyətlərinin yaradılması və ya onlarda iştirak barədə, həmçinin Agentliyin idarə, filial və nümayəndəliklərinin yaradılması barədə qərar qəbul etmək;

4.5.10. Agentliyin fəaliyyətinə dair daxili qaydaları (o cümlədən maraqlar münaqişəsinin istisna olunması qaydasını), habelə idarə, filial və nümayəndəliklərinin əsasnamələrini, təsərrüfat cəmiyyətlərinin nizamnamələrini Nazirliklə razılaşdırmaqla təsdiq etmək;

4.5.11. Agentliyin fəaliyyətinə dair illik hesabatı dinləmək;

4.5.12. Nazirliyin razılığı ilə Agentliyin kənar auditorunu təyin etmək və audit hesabatını qəbul etmək;

4.5.13. kənar auditorun yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə dair tədbirlər görmək;

4.5.14. Agentliyin daxili audit bölməsinin fəaliyyətinə nəzarət etmək və fəaliyyətinə dair hesabatlar almaq, habelə bu Nizamnamənin 4.11.10-cu yarımbəndi nəzərə alınmaqla, onun üzvlərini vəzifəyə təyin və vəzifədən azad etmək;

4.5.15. Nazirliyin razılığı ilə Agentliyin xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri Agentliyin aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanılması haqqında qərar qəbul etmək;

4.5.16. aidiyyəti şəxslə dəyəri Agentliyin aktivlərinin 5 faizədək hissəsini təşkil edən əqdin bağlanılması haqqında qərar qəbul etmək;

4.5.17. bu Nizamnamənin 3.1.36-cıyarımbəndində nəzərdə tutulan vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

4.5.18. Agentliyin strateji məqsəd və planlarının, habelə büdcəsinin icrasına nəzarət etmək;

4.5.19. İdarə Heyəti üzvlərinin müraciətlərinə baxmaq və qərar qəbul etmək;

4.5.20. bu Nizamnamənin 3.1.1-ci və 3.2.1-ci yarımbəndlərində nəzərdə tutulmuş məsələlərin həlli üçün tədbirlər görmək;

4.5.21. təsisçinin və İdarə Heyəti sədrinin səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar vermək.

4.6. İdarə Heyətinin sədri müvəqqəti olmadıqda onun səlahiyyətlərini İdarə Heyəti sədrinin müavinləri arasından sədrin müəyyən etdiyi şəxs icra edir.

4.7. İdarə Heyətinin sədri İdarə Heyətinin iclaslarını ayda azı 1 (bir) dəfə çağırır və iclaslara sədrlik edir. İdarə Heyətinin iclaslarının keçirilməsi təşəbbüsü ilə İdarə Heyətinin üzvü çıxış edir. İdarə Heyətinin iclasları üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. İdarə Heyətinin iclasında hər üzvün bir səsi olmaqla, qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslərin sayı bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir.

4.8. İdarə Heyətinin üzvlərinə, habelə İdarə Heyətinin iclaslarına dəvət olunan şəxslərə iclasın keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü qalmış, zəruri sənədlər əlavə edilməklə, yazılı məlumat verilir.

4.9. İclasın gündəliyinə İdarə Heyətinin hər hansı üzvünün maraqlarına toxunan məsələ çıxarıldıqda, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli, bu məsələnin müzakirəsində və həmin məsələyə dair səsvermədə iştirak etməməlidir.

4.10. Gündəliyə daxil edilməmiş və ya tələb olunan aidiyyəti sənədləri iclasdan əvvəl təqdim edilməmiş məsələlər barədə, bütün iştirakçı üzvlərin razılıq verdiyi hallar istisna olmaqla, qərar qəbul edilə bilməz.

4.11. İdarə Heyətinin sədri:

4.11.1. Agentliyin cari fəaliyyətinə rəhbərlik edir və onu təmsil edir;

4.11.2. İdarə Heyətinin fəaliyyətini təşkil edir, iclaslarının gündəliyini müəyyənləşdirir və iclaslarına sədrlik edir;

4.11.3. öz təşəbbüsü və İdarə Heyətinin digər üzvünün təşəbbüsü ilə İdarə Heyətinin iclaslarını çağırır;

4.11.4. öz təşəbbüsü ilə, habelə İdarə Heyətinin hər hansı bir üzvünün xahişi əsasında digər şəxsləri İdarə Heyətinin iclasında iştirak etməyə dəvət edir;

4.11.5. Agentliyin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər verir;

4.11.6. Agentliyin fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

4.11.7. özünün və Agentliyin struktur bölmələrinin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.11.8. müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Agentliyin Aparatının, digər struktur bölmələrinin strukturunu, ştat cədvəlini və xərclər smetasını Nazirliklə razılaşdırmaqla təsdiq edir;

4.11.9. Agentlik işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməyin ödənişi fondu çərçivəsində təşkil edir;

4.11.10. bu Nizamnamə ilə müəyyən edilmiş hallar istisna olmaqla, Agentliyin, o cümlədən onun idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların işçilərinin (təsərrüfat cəmiyyətlərində isə yalnız rəhbərlərin) vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi barədə Nazirliklə razılaşdırmaqla qərarlar qəbul edir;

4.11.11. Agentliyin əmlakından onun Nizamnaməsində nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət edir;

4.11.12. bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində Agentliyin adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

4.11.13. Agentliyin fəaliyyət istiqamətləri ilə bağlı məşvərətçi komitələr və işçi qruplar yaradır;

4.11.14. Agentlikdə fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görür;

4.11.15. Agentlikdə kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;

4.11.16. müavinləri və struktur bölmələrinin rəhbərləri arasında vəzifə bölgüsü aparır;

4.11.17. Agentlikdə müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təmin edir.

4.12. İdarə Heyətinin üzvləri:

4.12.1. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərin həllində iştirak edirlər;

4.12.2. İdarə Heyətinin iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

4.12.3. İdarə Heyətinin qəbul ediləcək qərarlarına dair fikir bildirirlər;

4.12.4. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərə onun iclaslarında baxmaq barədə təkliflər verirlər;

4.12.5. İdarə Heyətinin qərarları, iclas protokolları ilə və digər sənədlərlə tanış olurlar.

4.13. İdarə Heyətinin üzvləri onun iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, İdarə Heyəti üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsi ilə müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

**5. Agentliyin nizamnamə fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları**

5.1. Agentliyin nizamnamə fondu 10 565 947, 36 (on milyon beş yüz altmış beş min doqquz yüz qırx yeddi manat otuz altı qəpik) manatdır.

5.2. Agentliyin əmlakı nizamnamə fondundan, təsisçinin verdiyi əmlakdan, həmçinin dövlət büdcəsindən ayrılan vəsaitdən, "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən daxil olan icbari tibbi sığorta vəsaitindən, fəaliyyətindən əldə olunmuş gəlirdən, kreditlərdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitdən formalaşır.

5.3. Agentlik öz əmlakından yalnız bu Nizamnamə ilə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir. Agentlik balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə müəyyən edilmiş qaydada həyata keçirir.

5.4. Qanunda nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra Agentliyin idarə, filial və nümayəndəliklərinin və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların fəaliyyətindən əldə edilmiş vəsait üzərində müstəqil sərəncam vermək hüququ vardır.

5.5. Agentliyin mənfəəti bu Nizamnamədə nəzərdə tutulmayan məqsədlər üçün yalnız Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə dövlət büdcəsinə köçürülə bilər.

5.6. Bu Nizamnamənin 5.7-ci bəndi istisna olmaqla, Agentliyin məhsullarının (işlərin, xidmətlərin) qiymətləri tənzimlənən qiymətlərə (tariflərə) aid deyildir.

5.7. Agentlik tərəfindən Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi xidmətlər zərfi çərçivəsində göstərilən tibbi xidmətlərin, habelə xidmətlər zərfi ilə əhatə olunmayan tibbi xidmətlərin tarifləri tənzimlənən qiymətlərə (tariflərə) aiddir.

5.8. Maliyyə ilinin sonuna icbari tibbi sığorta fondunun istifadə olunmamış vəsaitdən istifadə "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada həyata keçirilir.

**6. Agentliyin fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi**

6.1. Agentliyin fəaliyyətinə nəzarətiAzərbaycan Respublikasının Prezidenti, Nazirlik, həmçinin bu Nizamnamə ilə müəyyən edilmiş qaydada İdarə Heyəti həyata keçirirlər.

6.2. Agentlik hər il martın 31-dək əvvəlki ildə ölkənin icbari tibbi sığorta sistemi ilə bağlı vəziyyəti və inkişaf perspektivləri barədə hesabatı, habelə Agentliyin fəaliyyətinə dair illik hesabatı Nazirliyə təqdim edir.

**7. Agentlikdə uçot və hesabat**

7.1. Agentlik "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.2. Agentlik "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

7.3. Agentlik idarə, filial, nümayəndəlik və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

7.4. Agentlik öz fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün kənar auditor cəlb edir.

**8. Agentliyin ləğvi və yenidən təşkili**

Agentliyin ləğvini və yenidən təşkilini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

# Kənd təsərrüfatının inkişafına dair yeni dövlət proqramı həyata keçirilir

## Müasir dövr aqrar sektorun inkişafına yeni yanaşma tələb edir

Son illər aqrar sahədə həyata keçirilən islahatlar kənd təsərrüfatının inkişafında mühüm nəticələr əldə olunmasına şərait yaradıb. Yeni dövlət proqramının icrası isə bu sahədə məhsuldarlığın artırılmasına, rəqabətqabiliyyətli istehsalın genişləndirilməsinə və ərzaq təhlükəsizliyinin daha da möhkəmləndirilməsinə hesablanıb.

Əlbəttə, qarşıdakı illərdə əldə ediləcək nəticələr hər bir rayonun öz potensialından nə dərəcədə səmərəli istifadə etməsindən, fermerlərin və sahibkarların nə qədər fəal olmasından, dövlət qurumlarının isə üzərlərinə düşən vəzifələri nə dərəcədə operativ və məsuliyyətlə yerinə yetirməsindən asılı olacaq. Odur ki, aidiyyəti qurumlar qarşıya qoyulmuş hədəflərin reallaşdırılması istiqamətində konkret fəaliyyətə başlamalı, rayonlar üzrə prioritet istiqamətləri müəyyən etməli, investisiya layihələrinin hazırlanmasını sürətləndirməli və nəzərdə tutulan tədbirlərin icrasını gündəlik fəaliyyətlərinin mühüm tərkib hissəsinə çevirməlidirlər.

Bu fikirlər "Azərbaycan Respublikasının kənd



təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın icrasının təmin edilməsi məqsədilə Qazax-Tovuz iqtisadi rayonu üzrə keçirilən regional müşavirədə də səsləndirilmişdir. Yeri gəlmişkən, qeyd edək ki, artıq bir neçə gündür Prezident İlham Əliyevin sədrliyi ilə mayın 25-də kənd təsərrüfatının inkişafı ilə bağlı keçirilən müşavirədə verilmiş tapşırıqların icrası və yeni dövlət proqramında müəyyən edilmiş hədəflərin regionlar üzrə əlaqələndirilmiş şəkildə həyata keçirilməsinin təmin olunması üçün müzakirələr aparılır.

Belə müzakirələrdən biri Şəmkir rayonunda olmuşdur. Müşavirədə Ağstafa, Qazax, Tovuz və Şəmkir rayonlarından olan fermerlər və sahibkarlar rəhbərlik etdikləri təsərrüfatların fəaliyyəti, istehsal imkanları və inkişaf perspektivləri barədə məlumat vermiş və kənd təsərrüfatının inkişafına verilən davamlı dövlət dəstəyini yüksək qiymətləndirmiş, qəbul edilən dövlət proqramında nəzərdə tutulan yeni dəstək mexanizmlərinin artırılmasına, təsərrüfatların genişləndirilməsinə və məhsuldarlığın yüksəldilməsinə mühüm töhfə verəcəklərini bildirmişlər.

Kənd təsərrüfatı məhsulları istehsalında yüksək göstəricilərə nail olan rayonlardan biri də Ağstafadır. Rayonda aqrar sahədə davamlı inkişafa nail olmaq üçün hər il müxtəlif tədbirlər həyata keçirilir. Xüsusən mövcud əkin sahələrindən səmərəli istifadə olunması, torpağın əkilib becərilməsində qabaqcıl texnologiyalara üstünlük verilməsi diqqət mərkəzində saxlanılır.

Rayon icra hakimiyyətinin başçısı Seymur Orucov dedi ki, dövlət proqramında nəzərdə tutulan hədəflərə yalnız dövlət dəstəyi hesabına deyil, fermerlərin, eləcə də özəl sektorların fəal iştirakı hesabına çatmaq mümkün olacaq: "Bunun üçün özəl sektor aqrar dəyər zəncirinin əsas hərəkətverici qüvvəsi kimi çıxış etməlidir. İstehsal, emal, saxlama, logistika, marketinq və ixrac prosesləri bir-biri ilə sıx əlaqələndirilməli, istehsal olunan məhsulun maksimum iqtisadi dəyərə çevrilməsi təmin edilməlidir. Məhz bu yanaşma yüksək gəlirli, daha məhsuldar və güclü ixrac potensialı olan kənd təsərrüfatını formalaşdıra bilər". RİH başçısı yeni dövlət proqramının qəbul edilməsini ölkədə ərzaq təhlükəsizliyində böyük dönüş yaradacağını söylədi. Dedi ki, indi əsas məsələ dövlət başçısının qarşıya qoyduğu vəzifələri yüksək səviyyədə yerinə yetirməkdən ibarətdir.

Söz yox ki, bu proqramın icra edilməsində yerlərdən verilən bir sıra təkliflərin də böyük əhəmiyyəti olacaq. Şəmkirdə keçirilən regional müşavirədə Ağstafadan olan fermer və sahibkarlar da iştirak edərək arzu və təkliflərini bildirdilər. Belə təkliflərdən biri rayonun Çeyrançol ərazisində geniş heyvandarlıq təsərrüfatları ilə bağlı oldu. Hazırda həmin ərazidə 100 mindən çox davar saxlanılır. İldə minlərlə heyvan kəsimi aparılır. Amma kəsilən heyvanların dərisi və yunu, demək olar, çölə atılır. Heyvandarlar təklif edirlər ki, regionda yun və dəri emalı müəssisəsi yaradılsın. Bundan başqa da hər il Ceyrançöl ərazisində 18 min tondan çox süd istehsal edilir. Onun saxlanmasında və emalında çətinliklər olur. Fermer İbrahim Quliyev Çeyrançöldə böyük heyvandarlıq təsərrüfatı yaratmışdır. Hazırda təsərrüfatında 900 baş xırdabuynuzlu heyvan var. Hər il sürüdən 500 baş bala alır. Qoyunların kəsimindən isə 50 ton ət satır. Kəsilmiş heyvanların həm dərisi, həm də yunu tələf olur. Yalnız emal müəssisə açmaqla bu problemi həll etmək mümkündür.

Məlum olduğu kimi, Ağstafada üzümçülük geniş inkişaf etmişdir. Hər il bağlardan tonlarla məhsul yığılaraq satılır, ancaq bir hissəsi. Yerdə qalan məhsul isə zay olur. Üzümçülər deyirlər ki, rayonda şərab emalı müəssisələri yaradılsa, məhsul da əllərində qalmaz. Bu, həm istehsalçıların güzəranına müsbət təsir göstərər, həm də ölkəmizin şərab ixracını artırar.

Ağstafa Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Ramiz İmanov dedi ki, söylənən bu təkliflər həyata keçirilsə, rayonda daha sürətli inkişafa nail olmaq mümkündür. Söz yox ki, yeni dövlət proqramının icrası Ağstafada da aqrar sektorun inkişafı üçün yeni imkanlar yaradacaq.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Torpağın ruzisinin əvəzi yoxdur

### Yeni dövlət proqramı Şabranın kənd təsərrüfatına əlavə nəfəs verəcək

Ölkəmizdə kənd təsərrüfatının inkişafı, ərzaq təhlükəsizliyinin təmin edilməsi və regional inkişafın sürətləndirilməsi istiqamətində atılan strateji addımlar bölgələrdə öz müsbət təsirini aydın göstərir. Bu baxımdan Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nı həmin strateji tədbirlərin davamı kimi qəbul etmək olar.

Hazırda proqramda nəzərdə tutulan hədəflərə çatmaq və qarşıda duran vəzifələrin icrasını çevik şəkildə təmin etmək üçün bölgələrdə regional müşavirələr keçirilir. Aidiyyəti dövlət qurumlarının, yerli icra hakimiyyəti orqanlarının təmsilçilərini, fermer və sahibkarları bir araya gətirən belə tədbirlərdən biri də bu yaxınlarda Qubada olmuşdu. Şimal bölgəsinin digər nümayəndələri ilə yanaşı, Şabran rayonunu təmsil edən fermerlər də bu müzakirələrdə fəal iştirak edərək yeni beşillik proqramın verdiyi imkan və prioritetlərlə yaxından tanış oldular. Ümumiyyətlə, Azərbaycanın zəngin kənd təsərrüfatı potensialına malik Şabran rayonunda aqrar sektorun inkişafı keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. İnkişaf dinamikasında özünəməxsus yeri olan Şabranda cari ilin ikinci rübü ərzində də mühüm işlər görülüb, kəndlinin və sahibkarın fəaliyyətinə hərtərəfli dəstək tədbirləri davam edib.

Rayonda kənd təsərrüfatının aparıcı qollarından olan heyvandarlıq sektorunun inkişafı Şabran Dövlət Aqrar İnkişaf Mərkəzinin (DAİM) daimi diqqət mərkəzindədir. DAİM-in direktoru Arzu Hüseynov bizimlə söhbətində bildirdi ki, 2026-cı ilin yanvar-mart ayları ərzində mərkəzə heyvandarlıqla bağlı 250 fermer müraciəti daxil olub. Onun sözlərinə görə, daxil olan hər bir müraciət qurumun əməkdaşları tərəfindən operativ araşdırılıb, vətəndaşlara zəruri xidmətlər göstərilib və təsərrüfatlara özəl baytar həkimlərin yönləndirilməsi təmin edilib: "Xüsusilə heyvandarlıqda cins tərkibinin yaxşılaşdırılması istiqamətində süni mayalanma tədbirləri uğurla icra olunur. Hesabat dövründə 233 baş inəkdə süni mayalanma aparılmış, 133 baş buzov doğulmuş və "Elektron Kənd Təsərrüfatı" İnformasiya Sistemində (EKTİS) qeydiyyata alınmışdır. Müraciətlər çərçivəsində 78 fermer buzov subsidiyasının nə zaman ödəniləcəyi ilə bağlı müraciət etmişdir. Heyvandarlıq sektorunun əməkdaşları daxil olmuş müraciətləri dərhal araşdıraraq həmin ödənişlərin gecikmə səbəbləri barədə fermerləri ətraflı məlumatlandırmış, həmçinin 133 baş buzova yerində baxış keçirərək müvafiq akt tərtib etmişlər".

Bununla yanaşı, rayonda heyvanların sağlamlığının qorunması məqsədilə özəl baytarlar tərəfindən qarayara, bruselyoz və quduzluq əleyhinə peyvəndlənmə tədbirləri aparılır. Mərkəzin direktoru qeyd etdi ki, fevral ayında heyvandarlıq sektorunun əməkdaşları tərəfindən ESD üzərindən Kənd Təsərrüfatı Nazirliyinə "Akvakultura və balıqyetişdirmə təsərrüfatları" ilə bağlı məlumatlar da forma üzrə doldurularaq göndərilib: "Həmçinin hər həftənin 1-ci günü ət, süd və yemin mövcud orta qiyməti ilə bağlı araşdırmalar aparılaraq nəticələrin nazirliyin Heyvandarlıq və balıqçılıq siyasəti şöbəsinə göndərilməsi təmin edilir".

Şabran torpaqlarının bərəkətindən səmərəli istifadə olunması üçün bitkiçilik sahəsində də işlər uğurla tənzimlənir. Arzu Hüseynov bildirdi ki, Şabran rayonu üzrə kənd təsərrüfatı təyinatlı torpaqlar 73666 hektardır. Bunun 22020 hektarı əkin təyinatlı torpaqlardır. Rayon üzrə əkin təyinatlı sahələrin 5000 hektarını dəmyə, 17020 hektarını isə suvarılan torpaqlar təşkil edir. Bu geniş sahələrin hər birindən maksimum məhsul götürülməsi üçün aparılan aqrotexniki qulluq və şum işləri nəticəsində 2025-2026-cı təsərrüfat ilində rayon üzrə 16999,7 hektar şum qaldırılmışdır. Onun da 16787,7 hektarında payızlıq taxıl əkini aparılmışdır. Bu, ötən illə müqayisədə 2042 hektar çoxdur.

DAİM-in direktoru onu da vurğuladı ki, təsərrüfatların su



təminatının yaxşılaşdırılması istiqamətində görülən işlər sayəsində əkilmiş taxıl sahələrinin 3620 hektarı suvarma suyu ilə təmin edilib: "Amma əkilmiş torpaq sahələrində 1850 hektarda zəif çıxış olmuşdur ki, bu da ümumi sahənin 11 faizini təşkil edir və həmin ərazilər mütəxəssislər tərəfindən nəzarətə götürülmüşdür. DAİM əməkdaşları həftənin 2-5-ci günləri Şabran ərazisində becərilən meyvə və tərəvəzlərin sahə qiymətlərini öyrənərək operativ şəkildə "aqrarbazar" portalına yerləşdirirlər. Payızlıq taxıl əkinlərinin vəziyyəti ilə bağlı məlumatlar da vaxtında və operativ olaraq Kənd Təsərrüfatı Nazirliyi və müvafiq qurumlara göndərilir".

Cari ilin fevral ayından etibarən payızlıq əkinlər üzrə subsidiyaların verilməsinə başlanılması fermerlər üçün böyük stimul yaradıb. Bu dövrdə subsidiyaların verilməsində qeydə alınan kiçik problemlər dərhal aradan qaldırılıb. Yaradılan dəstəkdən razı qalan təsərrüfat sahibləri yazlıq bəyanlarını vaxtında təqdim ediblər. Belə ki, cari dövrdə yazlıq taxıl üzrə 248,33, qarğıdalı üzrə 397,85, tərəvəz üzrə 179,50, digər bitkilər üzrə 15,18 hektar olmaqla cəmi 840,87 hektar yazlıq bəyan qeydə alınıb.

Məhz bu sistemli hazırlığın nəticəsi olaraq, 2026-cı ilin 16 iyun tarixindən başlayaraq, rayon ərazisində taxıl biçininə start verilib. Şabranda 8646,9 hektar buğda və 8305,6 hektar arpa olmaqla, cəmi 16952,5 hektar taxıl sahəsinin biçilməsi nəzərdə tutulub. Hazırda rayon ərazisində arpa biçini sürətlə davam edir. Yaz aylarında havaların qeyri-sabit keçməsi ümumi məhsuldarlığın bir qədər azalmasına səbəb olsada, fermerlər məhsulu itkisiz toplamaq üçün sahələrdə fədakarlıqla çalışırlar.

Paralel olaraq, Şabranın zəngin bağlarında mövsümi canlanma yaşanır. Mövsümə uyğun olaraq meyvə yığımı davam edir. Son məlumata görə, bağlardan 12,2 ton alça, 44,2 ton gilas, 3,5 ton albalı, 108,2 ton giləmeyvə yığılıb. Yığım davam edir.

Şabranda kənd təsərrüfatının inkişafını şərtləndirən əsas amillərdən biri də müasir saxlama və emal infrastrukturunun mövcudluğudur. Hazırda rayon ərazisində 2 soyuducu anbar fəaliyyət göstərir ki, bu da fermerlərin bağlardan topladıqları məhsulun uzun müddət keyfiyyətlə qorunub saxlanılmasını təmin edir. Bununla yanaşı, rayon ərazisində 6 istixana var. Həmin istixanalarda pomidor, xiyar və başqa məhsullar becərilir. Daxili istehsal zəncirinin bütövlüyünü təmin edən 4 emal müəssisəsi və 2 dəyirman da yerli istehsalçıların ixtiyarındadır.

Şabranın kəndlərini gəzdikcə torpağa nəfəs verən fədakar təsərrüfat sahibləri ilə qarşılaşdıq. Onlardan biri Ağalıq kənd sakini Qəşəm Həsənovdur. Fermerin rəhbərlik etdiyi taxılçılıq təsərrüfatı rayonda toxum istehsalı ilə məşğul olan qabaqcıl müəssisədir. Oğulları Rövşən və Elşən də ataları ilə çiyin-çiyinə çalışırlar. Ötən il sahələrdən yüksək məhsuldarlıq əldə etdiklərini söyləyən Q.Həsənov bu yerlərin bərəkətli olduğunu deyir: "Hardasa 1990-cı illərdən bu işin içindəyik. Geniş bir ərazidə - 634 hektar sahədə fəaliyyət göstəririk. Bunun 300 hektarında arpa, 334 hektarında buğda becərmişik. Cari mövsüm havaların yağışlı keçməsi səbəbindən biçinə bir qədər gec başlasaq da, övladlarımla və mövsümi işlərə cəlb etdiyimiz 14-15 nəfərlik işçi qüvvəmizlə məhsulu itkisiz toplamağa köklənmişik".

Təsərrüfatı gəzdikcə dövlət tərəfindən yaradılan şəraitin real nəticəsini fermerin hər cümləsində hiss etdik. "Dövlətimizdən çox razıyıq", - deyən Qəşəm Həsənov müasir texnologiyanın və rəqəmsallaşmanın kəndlinin işini necə asanlaşdırdığını xüsusi vurğuladı: "İndi hansısa çətinliyimiz yarananda yerindəcə həll olunur. Subsidiyalar vaxtında ödənilir, becərmə zamanı lazım olan dərman preparatlarını mütəxəssislər özləri sahəyə gətirirlər. Rayonda bütün fermerlər onlayn şəkildə qrup yaratmışıq. Nə problemimiz, nə ehtiyacımız varsa, ora yazırıq. Səhər sahəyə çatanda görürük ki, rayon Dövlət Aqrar İnkişaf Mərkəzinin əməkdaşları istədiyimiz köməkliyi artıq bizə çatdırıblar".

Qeyd edək ki, qabaqcıl fermerin fəaliyyəti təkcə taxılçılıqla məhdudlaşmır. Onun 6 hektarlıq ərazisinin 4 hektarında yeni salınmış və gələn il bəhər verəcək intensiv gilas, 2 hektarında isə artıq məhsulu toplanaraq şirkətlər tərəfindən daxili bazara göndərilən şaftalı bağı salınıb. Torpağın insanı heç vaxt darda qoymadığını deyən təcrübəli toxumçu deyir ki, hazırda şəhərlərdə yaşayan kəndlilərin çoxu həvəslə torpağa qayıdır: "Kəndlinin ruzisi torpaqdan çıxır. Torpağın verdiyi ruzi isə hər şeydən üstündür, onun bərəkəti də, səmərəsi də çox olur".

Heç şübhə yoxdur ki, ölkə rəhbərliyinin aqrar sahənin inkişafı ilə bağlı başlatdığı və bu gün də uğurla davam etdirilən dövlət siyasəti, yaradılmış mükəmməl hüquqi baza, büdcə vəsaiti hesabına verilən subsidiyalar, vergidən azadolmalar və digər güzəştlər bu sahənin uğurlu inkişafını təmin edəcək. Şabran Dövlət Aqrar İnkişaf Mərkəzinin rəhbərliyi, yerli mütəxəssislər və fermerlər bu istiqamətdə öz qüvvə və bacarıqlarını əsirgəmədən qarşıya qoyulan bütün tapşırıqların yerinə yetirilməsinə, rayonun aqrar potensialının daha da yüksəldilməsinə çalışacaqlar.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## Torpaqlarımız bərəkətli, insanlarımız çalışqandır

### Qalır bu üstünlüklərdən yararlanıb qarşıya qoyulan vəzifələri icra etmək

Xəbər verildiyi kimi, bir neçə gün əvvəl Qaxda Prezident İlham Əliyevin 25 may 2026-cı il tarixli sərəncamı ilə təsdiq etdiyi "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahəsinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın icrası ilə bağlı müşavirə keçirilmişdir.

Fasilə zamanı müşavirədə iştirak edən fermerlər, iş adamları ilə görüşüb söhbət etdik, dövlət proqramı ilə bağlı onların fikirlərini öyrəndik, təkliflərini dinlədik. İlk həmsöhbətimiz olan "Ulu Aqro" MMC-nin rəhbəri **Vüqar XƏLİLOV** dedi ki, öncə kənd təsərrüfatının inkişafını müəyyən edən "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahəsinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın müzakirəsinə həsr olunmuş bu tədbirin təşkilatçılarına təşəkkürümü bildirirəm: "Dövlət proqramının başlıca hədəfi olan - ekstensiv yanaşmadan intensiv - hər hektardan daha çox məhsul götürən modelə keçidin real mənzərəsini rəqəmlərlə diqqətinizə çatdırmaq istərdim. 2025-ci ildə meyvəçilik üzrə nəticələrimiz Qax rayonu üzrə istehsal olunan ümumi meyvə həcminin 63,4, dənli bitkilər üzrə 9,9, o cümlədən buğda üzrə 17,2 faizini təşkil etmişdir. Yeri gəlmişkən, onu da qeyd edim ki, müəssisəmizdə 145 nəfər daimi, 1400 nəfər mövsümi işçi çalışır. Yeni dövlət proqramı 2026-2030-cu illər üçün aqrar sektorun intensiv, ixracyönümlü və yüksək əlavə dəyər yaradan modelə keçidini hədəfləyir. Rəhbərlik etdiyim "Ulu Aqro" bu istiqamətlərin, demək olar ki, hamısından - intensiv bağçılıq, pivot və müasir suvarma, soyuducu logistika və zəncirvari emal modelindən istifadə etməklə ortaya əməli nəticələr qoyur. Təbii ki, bütün bunlar dövlət proqramının regionda uğurla icra olunması üçün hazır baza rolunu oynayır. Müşavirədə də qeyd olunduğu kimi, qarşıda bizi yeni layihələr, yeni hədəflər gözləyir. Yaxın dövrlərdə badam və qoz daxil olmaqla qərzəkli meyvə emalını, həmçinin heyvandarlıq sahəsini inkişaf etdirməyi planlaşdırırıq. İnamla deyə bilərəm ki, kənd təsərrüfatı sahəsində əldə etdiyimiz uğurlar Prezident İlham Əliyevin aqrar sahəyə göstərdiyi davamlı diqqət və qayğısının nəticəsidir".

Növbəti müsahibimiz iş adamı **Dilarə ƏHMƏDOVA** oldu. O, ölkəmizdə qadın futbolunun əsasını qo-



yan və inkişaf etdirən xanımlardandır. Bu sahədə qazandığı uğurlara görə dövlət başçısı tərəfindən "Tərəqqi" medalına layiq görülüb. 10 ildən çoxdur ki, Dilarə Əhmədova fermer kimi fəaliyyət göstərir. Həmin günlərdən söz açan Dilarə xanım dedi ki, 2015-ci ildən rəsmi qeydiyyatdan keçərək qadın fermer kimi fəaliyyətə başlayıb: "İlk günlər arıçılıqla məşğul oldum. Sonra bağçılıq təsərrüfatı yaratdıq, fındıq bağları saldıq. Dövlət tərəfindən verilən subsidiyalarla təsərrüfatımızı xeyli genişləndirdik. İqtisadiyyat, Kənd Təsərrüfatı nazirlikləri, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı bizə müasir avadanlıqlar verdilər, fəaliyyət göstərməyimiz üçün əlverişli şərait yaratdılar. Çox keçmədi ki, "Akasiya" kooperativini açdıq. İndi həmin kooperativə rəhbərlik edirəm. 40 nəfər daimi işçimiz var. Zaman keçdikcə dövlətin diqqət və qayğısı sayəsində təsərrüfatımızı daha da genişləndirdik. Bu gün arıçılıqla, bağçılıqla, taxılçılıqla məşğul oluruq. 50 hektardan çox fındıq və alma bağlarımız var. Azərbaycan Prezidenti İlham Əliyevin təsdiq etdiyi yeni dövlət proqramı biz fermerləri ürəkdən sevindirdi. Çünki qəbul olunmuş sənəd bizim kimi çalışqan iş adamlarının fəaliyyətinə müsbət təsir göstərəcək, təsərrüfat sahələrimiz genişlənəcək, bazarlara çıxışımız asanlaşacaq, istehsal əvvəlki illərə nüsbətən artacaq, həmçinin problemlərimiz operativ həllini tapacaq. Dövlət proqramı ilə yaxından tanış olanda gördük ki, biz iş adamlarının təklif etdikləri məsələlər də sənəddə öz əksini tapıb. Müşavirədəki çıxışları çox maraqla dinlədim. Belə bir müşavirənin keçirilməsi çox yaxşıdır. Dövlət proqramından gözləntilərimiz böyükdür. Hiss edirik ki, dövlət tərəfindən kənd təsərrüfatının inkişafına diqqət və qayğı var. Bu, sözsüz ki, nəticəsiz qalmayacaq".

"2003-cü ildən fermer kimi fəaliyyət göstərirəm", - deyə digər iş adamı **Hüseyn TARVERDİYEV** söhbətimizə qoşuldu: "Arxada qalan bu illər ərzində iş prosesində heç vaxt hansısa bir maneə ilə qarşılaşmamışıq. Yəni heç vaxt deyilməyib ki, bu olmaz, o olmaz. Qanun çərçivəsində nə vaxt, nə istəmişiksə, təmin ediblər. İş adamı kimi həmişə, hər yerdə dövlətimiz tərəfindən diqqət və qayğı görmüşük. Bu illər ərzində yaradılmış şəraitdən bacarıqla istifadə edərək təsərrüfatımızı inkişaf etdirmişik. Torpaqlarımız bərəkətli, insanlarımız çalışqandır. Qazandığımız uğurların əsasında dövlətimizin diqqət və qayğısı, yüksəksəviyyəli təminatımız və zəhmətsevərliyimiz dayanır. Müşavirədə həvəslə iştirak etdik. Çünki bu gün burada danışılan fikirlər bizim sabahkı fəaliyyətimizin əsasını təşkil edəcək. Ona görə də çıxışları böyük maraqla dinlədik. Kənd təsərrüfatının inkişafı ilə bağlı qəbul olunmuş dövlət proqramı biz fermerləri çox sevindirir. Çünki bu gündən sonra fəaliyyət göstərməyimiz üçün daha da əlverişli şərait yaradılacaq. Proqramın uğurla həyata keçirilməsi bizim işə olan məsuliyyətimizi də, diqqətimizi də artıracaq. Sahələrdən daha çox məhsul götürərək ərzaq təminatına olan ehtiyacın ödənilməsinə öz töhfəmizi verəcəyik. Dövlətimizin biz iş adamlarına göstərdiyi etimadı əməli işimizlə doğruldacağıq".

Söhbətimizi Qaxın Turaclı kənd sakini, iş adamı **Nəcəf MİRZƏYEV**lə davam etdirdik. Dedi ki, 2020-ci ildə "Şan balı" adlı kooperativ yaradaraq arıçılıqla məşğul olmağa başlayıb: "Zaman keçdikcə dövlətimizin dəstəyi ilə təsərrüfatımızı daha da genişləndirdik. İndi arıçılıqla yanaşı, 3 hektardan çox fındıq bağı da salmışıq. Artıq ağaclar bar verir, məhsulumuz bol olur. İmkanlarımız artdıqca təsərrüfatımızı da genişləndiririk. Biz fermerlər, iş adamları hər addımda dövlət dəstəyini hiss edirik. Dövlətimiz aqrar sahənin inkişafı istiqamətində daim mühüm addımlar atır. Prezident İlham Əliyevin 25 may 2026-cı ildə kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə səsləndirdiyi fikirlər göstərdi ki, dövlət aqrar sahənin inkişafına böyük önəm verir. Kənd təsərrüfatının inkişaf etdirilməsi üçün qəbul edilmiş dövlət proqramı da bunu göstərir. İş adamı kimi deyə bilərəm ki, bu, tam yerində və zamanında verilmiş qərardır. Müşavirədə çıxış edənlər çox dəyərli və vacib fikirlər səsləndirdilər. İnanırıq ki, bu fikirlər, irəli sürülən ideyalar tez bir zamanda həyata keçəcək, reallığa çevriləcək. Kənd təsərrüfatının inkişafı üçün qəbul olunmuş dövlət proqramı biz iş adamlarına yeni imkanlar yaradacaq. Bu proqramın kooperativlərin inkişafına da böyük dəstək verəcəyini gözləyirik. Ölkədə aqrar sahənin inkişafı məqsədilə həyata keçirilən zəruri tədbirlər, fermerlərə, iş adamlarına və sahibkarlara göstərilən dövlət dəstəyi yaxın zamanlarda müsbət nəticələr verəcək. Buna zərrə qədər şübhəmiz yoxdur".

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2026-cı ilin iyul ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | **Şuşa** | Şuşa, Xankəndi, Xocalı, Ağdərə, Ağdam, Xocavənd | **01** |
| 2. | **Ədliyyə naziri** Fərid Əhmədov | **Balakən** | Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ | **03** |
| 3. | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | **Zaqatala** | Zaqatala, Balakən | **03** |
| 4. | **Gənclər və idman naziri** Fərid Qayıbov | **Ağdam** | Ağdam, Füzuli, Xocavənd | **03** |
| 5. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | **Xaçmaz** | Xaçmaz, Quba, Qusar | **03** |
| 6. | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | **Qazax** | Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gədəbəy | **03** |
| 7. | **“Azəriqaz” İstehsalat Birliyinin baş direktoru** Azər Məmmədov | **Qobustan** | Qobustan, Şamaxı | **03** |
| 8. | **Daxili işlər naziri** Vilayət Eyvazov | **Lerik** | Lerik, Lənkəran, Astara, Masallı, Yardımlı | **07** |
| 9. | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | **Qax** | Qax, Zaqatala | **09** |
| 10. | **Baş prokuror** Kamran Əliyev | **Balakən** | Balakən, Zaqatala, Qax | **10** |
| 11. | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | **Kəlbəcər** | Kəlbəcər, Laçın | **10** |
| 12. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | **Sumqayıt** | Sumqayıt, Qubadlı | **10** |
| 13. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | **Qax** | Qax, Şəki, Oğuz, Qəbələ, Balakən, Zaqatala | **10** |
| 14. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | **Şəki** | Şəki, Oğuz, Qəbələ, Qax, Zaqatala, Balakən | **10** |
| 15. | **Baş prokuror** Kamran Əliyev | **Samux** | Samux, Göygöl, Daşkəsən | **17** |
| 16. | **Ekologiya və təbii sərvətlər naziri** Rəşad İsmayılov | **Şəmkir** | Şəmkir, Gədəbəy, Samux, Göygöl, Daşkəsən | **17** |
| 17. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | **Füzuli** | Füzuli, Ağdam, Xocavənd | **17** |
| 18. | **“Azərişıq” ASC-nin sədri** Vüqar Əhmədov | **Xankəndi** | Xankəndi, Şuşa, Xocalı, Ağdərə | **17** |
| 19. | **Baş prokuror** Kamran Əliyev | **Kəlbəcər** | Kəlbəcər | **21** |
| 20. | **Energetika naziri** Pərviz Şahbazov | **Goranboy** | Goranboy, Gəncə, Naftalan, Yevlax, Samux, Göygöl, Tərtər | **24** |
| 21. | **Elm və təhsil naziri** Emin Əmrullayev | **Saatlı** | Saatlı, Sabirabad, İmişli | **24** |
| 22. | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Anar Əliyev | **Zəngilan** | Zəngilan, Cəbrayıl, Qubadlı | **24** |
| 23. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Vüsal Nəsirli | **Şuşa** | Şuşa, Xankəndi, Xocalı, Ağdərə | **24** |
| 24. | **Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) icraçı direktoru** Anar Bayramov | **Qobustan** | Qobustan, Şamaxı | **24** |
| 25. | **“Azəristiliktəchizat” ASC-nin sədri** İlham Mirzəliyev | **Ağstafa** | Ağstafa, Qazax, Tovuz | **24** |
| 26. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | **Oğuz** | Oğuz, Qəbələ | **27** |
| 27. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | **Goranboy** | Goranboy, Gəncə, Samux, Göygöl, Daşkəsən, Kəlbəcər | **29** |
| 28. | **Mədəniyyət naziri** Adil Kərimli | **Qusar** | Qusar, Quba, Xaçmaz, Şabran, Siyəzən | **31** |

Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.

# Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Səhiyyə Nazirliyi "Sağlam gələcək" layihəsinə başlayıb

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) və Səhiyyə Nazirliyinin birgə tərəfdaşlığı ilə "Sağlam gələcək" sosial layihəsinə start verilib.**










Ekran əsərinin finalı dünya kino tarixinin ən təsirli və fəlsəfi sonluqlarından biridir. Samarra şəhərində, xəlifənin və saray əhlinin qarşısında edam olunarkən belə Babək diz çökmür. Onun sağ və sol qolları kəsilərkən üzünün qorxudan deyil, qan itkisindən ağardığını bəyan etmək üçün öz qanını üzünə sürtməsi səhnəsi filmin kulminasiya nöqtəsidir. Babək ölümü ilə ölümsüzlüyə qovuşur.

Filmin ən çətin və mühüm epizodları Naxçıvanın, xüsusilə Culfa rayonunun sıldırım qayalıqlarında lentə alınmışdır. Bakıdakı Ramana qalası və Suraxanı "Atəşgah"ı filmin əsas çəkiliş məkanları rolunu oynamışdır. Polad Bülbüloğlunun bəstələdiyi simfonik musiqi filmin dramatik yükünü və döyüş ruhunu mükəmməl şəkildə tamamlayır.

### "Babək" filminin çəkilişində Heydər Əliyevin rolu

"Babək" filminin ərsəyə gəlməsində Ümummilli Lider Heydər Əliyevin müstəsna və həlledici rolu olmuşdur. O dövr Azərbaycan KP MK-nın birinci katibi olan Heydər Əliyevin birbaşa siyasi iradəsi, dəstəyi və müdaxiləsi olmasaydı, sovet ideologiyasının və senzurasının hökm sürdüyü bir vaxtda belə nəhəng milli tarixi layihənin reallaşması mümkün deyildi. Sovet İttifaqı dövründə milli qəhrəmanlar haqqında, xüsusən də imperiyaya (ərəb xilafətinə qarşı olsa belə, mahiyyətcə mərkəzi hakimiyyətə qarşı) üsyan etmiş bir şəxs barədə irimiqyaslı film çəkmək böyük siyasi risk daşıyırdı. Heydər Əliyev öz nüfuzundan istifadə edərək filmin çəkilişinə Moskvadan icazə alınmasını təmin etdi və layihəyə "Mosfilm" kinostudiyasının tərəfdaş kimi cəlb olunmasına nail oldu. Filmin ümumi büdcəsi qeyd etdiyimiz kimi, 1 milyon 650 min rubl idi. Amma ilkin olaraq SSRİ Dövlət Kinematoqrafiya Komitəsi tərəfindən ayrılan vəsait belə genişmiqyaslı tarixi ekran əsəri üçün kifayət etmirdi. Heydər Əliyevin birbaşa göstərişi və rəsmi müdaxiləsi ilə Azərbaycan tərəfindən film üçün əlavə xüsusi vəsait ayrıldı.

Heydər Əliyev filmin ssenarisini və çəkilişini diqqətdə saxlayaraq ekran işinin sovet təbliğatı içində boğulmasının qarşısını aldı. O, Babək obrazının xalqın azadlıq, müstəqillik və sarsılmaz dövlətçilik ruhunun simvolu kimi qabardılmasına yaşıl işıq yandırdı. Rejissor Eldar Quliyev və baş rolun ifaçısı Rasim Balayev öz müsahibələrində dəfələrlə vurğulamışlar ki, Heydər Əliyevin böyük mənəvi sipəri və himayəsi olmasaydı, film bu gün heyranlıqla baxdığımız yüksək zirvəyə ucalmazdı.

Bir maraqlı məqamı da qeyd etmək yerinə düşərdi. Filmin ən böyük kütləvi və döyüş səhnələri Naxçıvanda lentə alınırdı. Lakin çəkiliş dövrü Naxçıvan üçün strateji əhəmiyyət kəsb edən məhsuldar üzüm yığımı mövsümünə təsadüf edirdi. Buna görə yerli rəhbərlik insanları çəkilişlərə və kütləvi səhnələrə buraxmaqda çətinlik çəkirdi. Məsələdən xəbər tutan Heydər Əliyev dərhal prosesə müdaxilə edərək yerli rəhbərliyə qəti tapşırıq verir ki, "Babək" filmi üçün lazım olan bütün şərait yaradılsın: "Eybi yox, Naxçıvan bu il üzümü az yığsa da olar. Heç bir məsələ bu filmin çəkilişindən əhəmiyyətli deyil". Bu göstərişdən sonra yerli əhali, texnika və hərbi hissələr kütləvi döyüş səhnələrinin çəkilişinə tam səfərbər olunur.

"Babək" filmi təkcə Azərbaycan kino sənətinin zirvəsi deyil, həm də xalqımızın milli azadlıq və mübarizə tarixini yaşadan canlı bir abidədir. Sovet imperiyasının tərkibində olduğumuz, milli kimliyimizin sıxışdırıldığı dövrdə çəkilən bu film xalqa öz şanlı keçmişini, sarsılmaz ruhunu və azadlıq ideallarını xatırladan tribuna rolunu oynamışdır.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*




# Ümid yolu

## Süd vəzi xərçənginə qalib gəlmək mümkündür



**Azərbaycanın ən böyük sərvətinin insan amili olduğunu əsas prinsip kimi müəyyənləşdirən dövlət siyasəti səhiyyə sahəsində mühüm nailiyyətlərin əldə olunmasına şərait yaradıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar nəticəsində ölkədə tibbi xidmətlərin keyfiyyəti yüksəlib, regionlarda müasir xəstəxanalar istifadəyə verilib, əhalinin səhiyyə xidmətlərinə əlçatanlığı genişlənib. İcbari tibbi sığorta sisteminin tətbiqi, səhiyyənin rəqəmsallaşdırılması, ana və uşaq sağlamlığının qorunmasına yönəlmiş proqramlar, eləcə də sosial əhəmiyyətli xəstəliklərin dövlət dəstəyi ilə müalicəsi bu sahədə əldə olunan uğurların əsas göstəricilərindəndir.**

Bu inkişaf onkologiya sahəsində də özünü aydın şəkildə göstərir. Müasir diaqnostika və müalicə üsullarının tətbiqi, beynəlxalq təcrübənin öyrənilməsi və yüksəkixtisaslı mütəxəssislərin yetişdirilməsi nəticəsində xərçəng xəstələrinin müalicə imkanları əhəmiyyətli dərəcədə artıb. Bir vaxtlar ölüm hökmü kimi qəbul edilən xərçəng bu gün bir çox hallarda uğurla müalicə olunan xəstəliklər sırasına daxildir. Bununla belə, mütəxəssislər erkən diaqnostikanın hələ də ən vacib amil olduğunu vurğulayırlar.

### Qeyri-sağlam qidalanma, oturaq həyat tərzi, genetik meyillilik

Onkoloji xəstəliklər arasında ən geniş yayılmış xəstəliklərdən biri süd vəzi xərçəngidir. Dünyada olduğu kimi, Azərbaycanda da bu xəstəliyin yayılma göstəriciləri yüksəkdir. Uzun illərdir onkologiya və süd vəzi cərrahiyyəsi sahəsində fəaliyyət göstərən, Amerika Cərrahlar Kollecinin, Amerika və Avropa Onkologiya Cəmiyyətlərinin, eləcə də Türkiyənin nüfuzlu cərrahi birliklərinin üzvü olan müsahibimiz uzman doktor Günel Məmmədovanın sözlərinə görə, ölkəmizdə hər il təxminən 3500-4000 qadına süd vəzi xərçəngi diaqnozu qoyulur.

Müalicə prosesində yalnız tibbi bilik deyil, həkimin xəstə ilə münasibəti də mühüm rol oynayır. Onkoloji diaqnoz alan insanın psixoloji vəziyyəti son dərəcə həssas olur. Buna görə də mütəxəssis təkcə cərrah və ya onkoloq deyil, eyni zamanda psixoloji dəstək verə bilən bir insan olmalıdır. Xəstəyə diaqnozun izahı, müalicə mərhələlərinin çatdırılması və ümid hissinin qorunması uğurlu nəticəyə təsir edən vacib amillərdəndir. Günel Məmmədova da məhz bu mütəxəssislərdəndir.

İstanbul Universiteti Cərrahpaşa Tibb Fakültəsini fərqlənmə diplomu ilə bitirən, Türkiyənin Marmara Universitetində ümumi cərrahiyyə üzrə ixtisaslaşan Günel Məmmədova təxminən 18 ildir Azərbaycan və Türkiyənin aparıcı tibb müəssisələrində fəaliyyət göstərir.



O, süd vəzinin bütün xəstəliklərinin, xüsusilə də süd vəzi xərçənginin diaqnostikası və cərrahi müalicəsi ilə yanaşı, ümumi cərrahiyyə, koloproktologiya, mədə-bağırsaq onkoloji cərrahiyyəsi və transplantologiya sahələrində də geniş təcrübəyə malikdir. Həkim iki ildən bir Avstriyanın paytaxtı Vyanada keçirilən beynəlxalq süd vəzi xərçəngi konfransında ölkəmizi təmsil edir, onkoplastik süd vəzi cərrahiyyəsi üzrə məruzələrlə çıxış edir.

Həmsöhbətimizin sözlərinə görə, süd vəzi xərçənginin yayılmasına təsir edən bir sıra risk faktorları mövcuddur. Genetik meyillilik, qeyri-sağlam qidalanma, piylənmə, hərəkətsiz həyat tərzi, siqaret və spirtli içkilərin istifadəsi, ətraf mühitin çirklənməsi, ionlaşdırıcı radiasiya, müxtəlif viruslar və kanserogen maddələr bu amillər sırasındadır. Bundan əlavə, stres, yuxusuzluq, hormonal balansın pozulması, gec yaşda hamiləlik, ümumiyyətlə, ana olmamaq və süd verməmək də risk faktorları arasında göstərilir.

"Bizim klinikada elə günlər olur ki, bir gündə 15 qadına süd vəzi xərçəngi diaqnozu qoyulur. Bu xəstəlik artıq çox geniş yayılıb və bunun əsas səbəblərindən biri müasir həyat tərzidir. Süd vəzi xərçəngi vahid xəstəlik kimi görünsə də, əslində, müxtəlif alt qruplardan ibarətdir. Xəstəliyin dörd əsas alt tipi mövcuddur və onların ikisi daha aqressiv gedişata malikdir. Hormon pozitiv şişlər, adətən, daha mülayim xarakter daşıyır və müalicəyə daha yaxşı cavab verir. Bununla yanaşı, HER2 pozitiv və üçqat neqativ (triple-negative) formalar daha aqressiv hesab olunur və xüsusi yanaşma tələb edir", - deyə mütəxəssis bildirir.

### Bu diaqnoza kişilərdə də rast gəlinir

"Əksər insanlar süd vəzi xərçəngini yalnız qadın xəstəliyi hesab etsələr də, bu diaqnoz kişilərdə də rast gəlinir. Statistikaya görə, xəstələrin təxminən bir faizindən az hissəsini kişilər təşkil edir. Buna görə də həm qadınlar, həm də kişilər süd vəzisində hər hansı dəyişiklik hiss etdikdə vaxt itirmədən həkimə müraciət etməlidirlər. Süd vəzisində sərtlik, gilədən öz-özünə gələn şəffaf və ya qanlı ifrazat, dəridə rəng dəyişikliyi, içəriyə çökmə, asimmetriya, qabıqlanma və ya pullanma kimi əlamətlər ciddi siqnal hesab olunur. Bu əlamətlərin olması mütləq xərçəng demək olmasa da, müayinənin vacibliyini göstərir", - deyə həkim bildirir.

Süd vəzi xərçəngi ilə mübarizədə ən vacib amil erkən diaqnozdur. Günel Məmmədova qeyd edir ki, xəstəlik ilkin mərhələdə aşkar olunduqda sağalma ehtimalı 85-90 faizə çatır. Gecikmiş mərhələdə, xüsusilə də metastaz verdikdən sonra aşkar edilərsə, bu göstərici əhəmiyyətli dərəcədə azalır. Buna görə də qadınlar özlərini mütəmadi olaraq müayinə etməli, lakin yalnız özünümüayinəyə arxalanmamalıdırlar. Çünki bəzi törəmələr əllə hiss olunmayacaq qədər kiçik və ya yumşaq ola bilər. Buna görə də profilaktik müayinələr xüsusi əhəmiyyət daşıyır.

Müasir tibdə süd vəzi xərçənginin diaqnostikasında mammoqrafiya "qızıl standart" hesab olunur. Qırx yaşdan yuxarı qadınlara ildə bir dəfə mammoqrafiya müayinəsindən keçmək tövsiyə edilir. Qırx yaşdan aşağı qadınlarda isə əsasən ultrasəs müayinəsi və zəruri hallarda maqnit-rezonans tomoqrafiyası tətbiq olunur. Əgər ailədə süd vəzi və ya digər onkoloji xəstəliklərə rast gəlinibsə, skrininq müayinələrinə daha erkən yaşda başlamaq məsləhət görülür. Mütəxəssis bildirir ki, birinci mərhələdə aşkarlanan şişlər çox zaman cərrahi yolla tam müalicə edilə bilir. Xüsusilə şişin ölçüsü iki santimetrdən kiçik olduqda əməliyyat daha uğurlu nəticə verir. Bununla yanaşı, bəzi aqressiv formalarda əvvəlcə sistemik müalicə - kimyaterapiya və ya digər dərman müalicələri tətbiq olunur. Məqsəd şişi kiçiltmək və sonradan daha effektiv cərrahi müdaxilə aparmaqdır.

### Mütəmadi müşahidə və həkim nəzarəti vacib şərtlərdir

Son illərdə onkologiyada əldə olunan yeniliklər xəstələrin müalicə imkanlarını daha da genişləndirib. Günel Məmmədova deyir ki, xüsusilə hədəfli terapiya və ya xalq arasında "ağıllı dərmanlar" kimi tanınan preparatlar bəzi süd vəzi xərçəngi növlərində uğurla istifadə olunur: "Bu preparatlar şiş hüceyrələrinə daha dəqiq təsir göstərərək sağlam toxumaların zədələnməsini minimuma endirir. Süd vəzi xəstəlikləri arasında xoşxassəli törəmələr də geniş yayılıb. Bunlardan ən çox rast gəlinənlər fibroadenoma və kistalardır. Fibroadenomalar əksər hallarda xoşxassəli dəyişikliklər hesab olunur və uzun illər ərzində ölçüsünü dəyişmədən qala bilir. Nadir hallarda onların daxilində atipik hüceyrələr inkişaf etdikdə bədxassəli transformasiya riski yarana bilər. Kistalara gəldikdə isə onların müxtəlif növləri mövcuddur. Sadə kistalar, adətən, təhlükəli hesab olunmur və xərçəngə çevrilmir. Lakin kompleks və mürəkkəb kistalar daha ciddi nəzarət tələb edir. Məhz buna görə süd vəzi xəstəliklərində mütəmadi müşahidə və həkim nəzarəti böyük əhəmiyyət daşıyır".

Mütəxəssis qeyd edir ki, süd vəzi sağlamlığı həyat tərzi ilə sıx bağlıdır. Stres, gərginlik, yuxu pozğunluqları, gec yatmaq, melatonin hormonunun sintezinin azalması, həddindən artıq kofein qəbulu və hormonal balanssızlıq süd vəzi toxumasında müxtəlif dəyişikliklərə səbəb ola bilər. Bu baxımdan sağlam qidalanma, normal bədən çəkisinin qorunması, fiziki aktivlik və keyfiyyətli yuxu təkcə ümumi sağlamlıq üçün deyil, onkoloji xəstəliklərin profilaktikası üçün də vacibdir.

Bu gün Azərbaycan səhiyyəsi onkologiya sahəsində dünyanın müasir standartlarına uyğun inkişaf edir. Yeni texnologiyaların tətbiqi, beynəlxalq əməkdaşlıq və peşəkar həkimlərin fəaliyyəti sayəsində minlərlə insan həyata yenidən qayıtmaq imkanı qazanır. Vaxtında aparılan müayinə, düzgün həyat tərzi və mütəxəssis nəzarəti bu xəstəliyin yaratdığı riskləri əhəmiyyətli dərəcədə azaltmağa imkan verir. Erkən aşkarlanan süd vəzi xərçəngi əksər hallarda uğurla müalicə olunur və xəstəyə sağlam həyatını davam etdirmək şansı verir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*



# Dünya Çempionatı -2026



## "Məsuliyyət baş məşqçi kimi mənim üzərimdədir"

Cənubi Koreya millisinin baş məşqçisi Honq Myonq Bo komandasının qrup mərhələsinin üçüncü turunda Cənubi Afrika millisinə məğlubiyyətini (0:1) şərh edib.



FIFA-nın rəsmi saytı onun dediklərini belə çatdırıb: "Düşünürəm ki, oyunçular əllərindən gələni etdilər, amma ilk qolu buraxmağımız təəssüf doğurur. Məyusedici nəticəyə gəlincə, bunun məsuliyyəti baş məşqçi kimi mənim üzərimdədir".

Turnirin nəticələrinə görə, Meksika və Cənubi Afrika 1/16 finala yüksəliblər. Cənubi Koreyanın üçüncü yerin sahibi kimi pley-offa vəsiqə qazanmaq şansı var. Çexiya isə mübarizəni başa vurub.

## FIFA-dan Nepal üçün sərt qərar



FIFA Nepal Futbol Assosiasiyasının (ANFA) təşkilata üzvlüyünü dayandırıb. Bu haqda "The Himalayan Times" məlumat yayıb. Bu qərardan sonra Nepal millisi və ölkə klubları beynəlxalq turnirlərdə iştirak edə bilməyəcəklər.

Bildirilir ki, sanksiyaya səbəb nizamnamənin Nepal Milli İdman Şurası tərəfindən pozulması, assosiasiyadakı seçki prosesi ətrafında həll olunmamış münaqişə və seçkilərə üçüncü tərəflərin müdaxiləsi olub.

Qərarla yanaşı, Nepal Futbol Federasiyası FIFA üzvü kimi malik olduğu hüquqlardan da məhrum edilib. Assosiasiya və onun nümayəndələri FIFA və Asiya Futbol Konfederasiyası tərəfindən təşkil olunan inkişaf proqramlarında, təlim kurslarında və seminarlarda iştirak edə bilməyəcəklər.

FIFA üzvlüyün bərpası üçün iki şərt irəli sürüb. Birinci şərt Nepal Milli İdman Şurasının martın 25-də ANFA İcraiyyə Komitəsinin fəaliyyətini 3 ay müddətinə dayandıran qərarının tam və qeyd-şərtsiz ləğv edilməsidir. İkinci şərt isə assosiasiyaya öz nizamnaməsinə uyğun şəkildə artıq başlanmış seçki prosesini başa çatdırmaq imkanı verilməsidir.

Qeyd olunub ki, qadağa növbəti bildirişədək qüvvədə qalacaq. FIFA qərarla bağlı məktubun surətini AFC-yə göndərib və təşkilatın bütün üzvlərini məlumatlandırıb.

## Superkompüter mundialın favoritini açıqladı



Argentina millisi qrup mərhələsinin ikinci turundan sonra futbol üzrə dünya çempionatının ən real qalibi hesab olunur. Bu barədə "Opta" statistik platformasının superkompüteri hesablamalar aparıb.

Argentina milli komandası 15,46 faiz ehtimalla turnirin əsas favoritinə çevrilib. İlk üçlükdə həmçinin Fransa (15,06 faiz) və İspaniya (12.48 faiz) yığmaları yer alıblar.

Turnir başlamazdan əvvəl "Opta" əsas favorit kimi İspaniyanı göstərirdi. Lakin ispanlar ilk turda Kabo-Verde millisi ilə 0:0 hesablı heç-heçə etdikdən sonra liderliyi Fransaya vermişdilər.

"Opta"nın versiyasına görə favoritlərin tam siyahısı belədir:

- Argentina - 15,46%
- Fransa - 15,06%
- İspaniya - 12,48%
- İngiltərə - 9,48%
- Portuqaliya - 6,71%
- Almaniya - 6,60%
- Norveç - 5,42%
- Braziliya - 4,56%
- Niderland - 4,26%
- ABŞ - 4,07%

## İlk dəfə qrup mərhələsini lider kimi bitirdilər

Meksika millisi qrup mərhələsinin 3-cü turunda Çexiya yığmasını 3:0 hesabı ilə məğlub edib. Bununla da mundialın təşkilatçı ölkələrindən olan Meksikanın yığması dünya çempionatları tarixində ilk dəfə qrup mərhələsinin hər üç oyununda qələbə qazanıb.



FIFA-nın məlumatına görə, meksikalılar həmçinin 1970-ci ildən bəri ilk dəfə qrup mərhələsini qol buraxmadan başa vurublar. Bundan başqa, Meksika millisi dünya çempionatlarındakı qələbə seriyasını 4 oyuna çatdırıb ki, bu da komandanın mundiallar tarixindəki ən uzun qalibiyyət seriyasıdır.

# DÇ-2026-da bombardirlik yarışı




**DÇ-2026 həm də "Qızıl buts" - bombardirlik yarışı uğrunda mübarizə ilə diqqət çəkir. Hazırda yarışda ən çox qol vuran futbolçuların siyahısını təqdim edirik.**

1. Lionel Messi (Argentina) - 5 qol
2. Vinisius Junior (Braziliya) - 4 qol, 1 assist
3. Kilian Mbappe (Fransa) - 4 qol
4. Erlinq Haaland (Norveç) - 4 qol
5. Deniz Undav (Almaniya) - 3 qol, 2 assist
6. Joan Manzambi (İsveçrə) - 3 qol, 1 assist
7. Mateus Kunya (Braziliya) - 3 qol
8. İsmael Saibari (Mərakeş) - 3 qol
9. Conatan David (Kanada) - 3 qol
10. Krisensio Sammervil (Niderland) – 2 qol, 1 assist
11. Mikel Oyarzabal (İspaniya) – 2 qol, 1 assist
12. Maksimiliano Arauxo (Uruqvay) – 2 qol, 1 assist
13. Ayase Ueda (Yaponiya) – 2 qol, 1 assist
14. Kodi Gakpo (Niderland) – 2 qol, 1 assist
15. Ruben Vargas (İsveçrə) – 2 qol, 1 assist
16. Ermin Mahmiç (Bosniya və Herseqovina) – 2 qol
17. Brayan Brobbi (Niderland) – 2 qol
18. Daiçi Kamada (Yaponiya) – 2 qol
19. Folarin Baloqan (ABŞ) – 2 qol
20. Yasin Ayari (İsveç) – 2 qol

Xatırladaq ki, daha 8 futbolçu da 2 qol vurub. Lakin FIFA-nın rəsmi reytinqində assist sayı və qolların daha az oyun vaxtında vurulması əlavə meyar kimi nəzərə alındığından, ilk 20-likdə məhz bu futbolçular qərarlaşıb.

## Montella azarkeşlərə müraciət etdi



Türkiyə millisinin baş məşqçisi Vinçentso Montella qrup mərhələsinin 3-cü turunda ABŞ-lə keçiriləcək oyundan əvvəl mətbuat konfransında azarkeşlərə müraciət edib.

Türkiyə yığması ilk 2 görüşdə uduzduğu üçün pley-off şansını itirib və qarşıdakı matçın nəticəsindən asılı olmayaraq, D qrupunu 4-cü pillədə başa vuracaq. Bu da azarkeşlərin tənqidinə səbəb olub.

İtaliyalı mütəxəsss isə yığmanın fanatlarını futbolçulara hörmət etməyə və komandaya dəstək olmağa çağırıb: "Görürük ki, futbolçularımız çox sərt tənqid edilirlər və bu da onlara təsir göstərir. Psixoloji məqamlara diqqət yetirməliyik. Bu günə qədər komandamızın oyununa baxsaq, düşünürəm ki, futbolçularımız daha çox hörmətə və sevgiyə layiqdirlər. Səmimi desəm, bu iki oyunun statistikasına baxdıqda başqa mənzərə görürük. Əlimizdən gələni etdik, amma təəssüf ki, istədiyimiz nəticələri qazanmadıq. Komandaya gəldiyim vaxtdan bəri nümayiş etdirmək istədiyimiz futbol baxımından ən yaxşı statistik göstəricilərə nail olmuşuq".

Montella azarkeş dəstəyinin vacibliyini də vurğulayıb: "Biz həmişə azarkeşlərimizin dəstəyini gözləyəcəyik. ABŞ-lə oyun bizim üçün hər vəziyyətdə önəmlidir. Futbolçular bu qədər sərt və ədalətsiz tənqidlərlə üzləşdikləri vaxt bir qədər daha çox dəstəyə ehtiyacları olur. Son illər onlar böyük uğurlara imza atıblar. Biz bu yolu futbolçularımızın sayəsində keçmişik. Buna görə də azarkeşlərimizdən futbolçularımıza hər şəraitdə dəstək vermələrini xahiş edirəm".

## Mundiallar tarixinə düşən yeni rekordlar və ilklər

Qrup mərhələsində keçirilən son oyunlardan sonra bir sıra maraqlı statistik göstəricilər qeydə alınıb.



FIFA xəbər verir ki, Bosniya və Herseqovina millisinin futbolçusu Kerim Alajbeqoviç 18 yaş 276 günlüyündə dünya çempionatları tarixində cərimə meydançası xaricindən qol vuran ən gənc oyunçu olub. İsveçrə yığmasının üzvü Ruben Varqas isə ikinci hissənin başlanmasından cəmi 39 saniyə sonra son 16 ilin dünya çempionatlarında ikinci hissənin ən sürətli qolunun müəllifi kimi tarixə düşüb. Mərakeş millisinin futbolçusu İsmail Saibari dünya çempionatında komandasının ilk 3 oyununda ardıcıl qol vuran Avropa və Cənubi Amerika qitələrindən kənar ilk oyunçudur.

Bundan başqa, Braziliya yığmasının qapıçısı Alissonun uğurlu çıxışı sayəsində komanda dünya çempionatları tarixində 50-ci "quru oyun"unu keçirib. Beləliklə, Braziliya mundiallar tarixində 50 oyunda qapısını toxunulmaz saxlayan ilk milli komanda kimi rekord müəyyənləşdirib.

## 40 yaşlı qapıçı Messi və Ronaldoya çatdı

Meksikanın 40 yaşlı qapıçısı Qilyermo Oçoa 2026-cı il dünya çempionatının matçında iştirak etməklə tarixi bir rekorda imza atıb.



Təcrübəli qolkiper ən nüfuzlu beynəlxalq turnirdə iştirak sayına görə Argentina və Portuqaliya yığmalarının ulduz hücumçuları Lionel Messi və Kriştianu Ronaldoya çatıb. Oçoa DÇ-2026-nın qrup mərhələsinin 3-cü turunda Çexiyaya qarşı keçirilən və 3:0 hesabı ilə başa çatan görüşdə qapıçını əvəz edib. Bununla da Oçoa Messi və Ronaldonun iştirak etdikləri dünya çempionatlarının sayı 6-ya çatıb. Qeyd edək ki, Qilyermo Oçoa DÇ-2006 və DÇ-2010-da birbaşa iştirak etməyib. Qapıçı həmin vaxt Meksika millisinin rəsmi iştirak ərizəsində yer alsa da, sözügedən turnirlərdə yaşıl meydana çıxmamışdır.



## İran millisi problemlə üzləşdi

**İran Futbol Federasiyası qrup mərhələsinin üçüncü turu çərçivəsində Misir yığması ilə keçiriləcək oyun üçün komandanın uçuşu zamanı ABŞ-ni süni maneələr yaratmaqda ittiham edib.**

Bu barədə qurumun rəsmi internet səhifəsində müvafiq bəyanat yayılıb. "Bir neçə saat əvvəl İran millisinin futbolçuları Misirlə matça yollanmaq üçün hava limanına gəliblər. Lakin əvvəlki hallarda olduğu kimi, ev sahibi qismində çıxış edən ABŞ tərəfindən Səid Elahi və Mehdi Taremiyə yenidən əngəllər törədilib, nəticədə isə komanda hava limanında ləngiməyə məcbur olub", - deyə məlumatda vurğulanıb.

Xatırladaq ki, İran və Misir yığmaları arasındakı qarşılaşma iyunun 27-də Sietldəki "Lümen Fild" stadionunda baş tutacaq. Görüşün start fiti Bakı vaxtı ilə saat 07:00-da səslənəcək. Hələ iyunun 24-də məlum olmuşdu ki, İran yığmasının nümayəndələrinə üçüncü turun oyunu ərəfəsində ABŞ ərazisinə yalnız matçdan iki gün əvvəl daxil olmağa icazə veriləcək.

Qeyd edək ki, İran yığması dünya çempionatının qrup mərhələsinin ikinci turunda Belçika komandası ilə heç-heçə edib. Gərgin keçən görüş 0:0 hesabı ilə yekunlaşıb. İranlı futbolçular ilk turda da Yeni Zelandiya ilə matçdan sülhlə (2:2) ayrılmışlar.



## Çexiyanın baş məqçisi komandanın nəticələrini dəyərləndirib

Çexiya millisinin baş məşqçisi Miroslav Koubek DÇ-2026 ilə vidalaşdıqdan sonra turnirdəki çıxışları barədə danışıb. Mundialın 3-cü turunda Meksikaya 0:3 hesabı ilə uduzan Çexiya A qrupunda cəmi 1 xal toplayıb və topların nisbətində 2:6 göstəricisi ilə sonuncu olub.

Koubek komandanın nəticələrini belə dəyərləndirib: "Bu dünya çempionatı göstərdi ki, inkişaf etməliyik və yüksək səviyyədə uğurla çıxış edə biləcək, rəqabətqabiliyyətli futbolçularımız olmalıdır. Əminəm ki, müəyyən dəyişikliklərdən sonra növbəti turnirlərdə nəticələrimizi yaxşılaşdıracağıq. Mən milliyə ən yaxşı futbolçuları dəvət edəcəyəm. Qrupumuzda aşkar favorit Meksika idi. Lakin Koreya və Cənubi Afrika ilə oyunlarda daha yaxşı çıxış etməli idik".

Təcrübəli mütəxəssis 2030-cu il dünya çempionatında da komandanın başında olmaq istədiyini bildirib: "Mənim müqaviləm var və təslim olan insanlardan deyiləm. Müqaviləmi sonadək yerinə yetirəcəyəm və ümid edirəm ki, Çexiya ilə növbəti dünya çempionatına da yollanacağam".

## Ançelotti Şotlandiya ilə oyundan danışdı



Braziliya millisinin baş məşqçisi Karlo Ançelotti dünya çempionatının qrup mərhələsinin üçüncü turunda Şotlandiya üzərində qazanılan böyükhesablı (3:0) qələbəni şərh edib:

"Hazırda komanda şəklində oynayırıq - məqsədimiz budur. Mükəmməl deyilik, inkişaf üçün yer var. Topa sahib olmaq sürətimizi artırmalıyıq. Xoşbəxtəm ki, komanda inkişaf edir və bu, ardıcıldır. Pley-offda ardıcıllıq əsasdır. İlk oyunla müqayisədə daha az səhv etdik, ritm qazandıq və hücumumuz daha təsirli oldu".

Braziliya dünya çempionatının pley-off mərhələsinə birinci yerdə vəsiqə qazanıb. Beşqat çempionlar üç oyunda 7 xal toplayıblar.

## Braziliya futbolunda qalmaqal

Braziliya Futbol Konfederasiyasının (CBF) prezidenti Samir Haud böyük bir qalmaqalın mərkəzinə düşüb. O, sevgililərinin lüks səyahətlərini federasiya büdcəsi hesabına maliyyələşdirməkdə ittiham olunur. Bu şok iddialarla "Portal LeoDias" nəşri çıxış edib.



Ötən ilin may ayında vəzifəyə seçilən Haud hazırda dünya çempionatı çərçivəsində ABŞ-dədir. Lakin o bu səfərə tək yollanmayıb. Nəşrin məlumatına görə, Haud ABŞ-yə fitnes-sahibkar Kamila Kristina Andradeni də gətirib. Qadın iyunun 2-10-da Nyu Yorkun "Hyatt Regency Grand Central" hotelində qalıb. Bu ona 59424,81 Braziliya realına (11 534.36 dollar) başa gəlib. Diqqətçəkən məqam isə nömrənin birbaşa federasiya rəhbərinin adına bron edilməsidir.

Kamila Nyu Yorkda dincələrkən, Samir iyunun 8-də qadınlardan ibarət milli komandanın ABŞ-yə qarşı Fortalezadakı matçını izləmək üçün Braziliyaya qayıdıb. Düz 20 ildir evli olan Haud daha sonra Braziliyadan Mexikoya yollanaraq iyunun 11-də DÇ-2026-nın açılışında birlikdə iştirak etmək üçün həyat yoldaşı Nataliya ilə görüşüb. Bundan bir gün əvvəl isə Kamila Andrade Nyu Yorku tərk edib.

Qeyd etmək lazımdır ki, bu, Haudun öz ətrafındakı qadınların beynəlxalq səfərləri üçün təşkilatın resurslarından istifadə etdiyi ilk hal deyil. İrəli sürülən bütün ittihamlara baxmayaraq, Braziliya Futbol Konfederasiyası rəsmi bəyanat yayaraq iddiaları rədd edib. Qurumdan bildirilib ki, rəhbərlik "etik dürüstlük" prinsiplərinə sadiqdir və bütün xərclər yalnız institusional və işgüzar xarakter daşıyır.



## Sergey Barbarez komandasından razı qalıb

Futbol üzrə dünya çempionatının qrup mərhələsinin 3-cü turunda Qətər yığmasını 3:1 hesabı ilə üstələyən Bosniya və Herseqovina millisinin baş məşqçisi Sergey Barbarez qələbəni dəyərləndirib.

4 xalla qrup üçüncüsü olan və pley-offa yüksəlmək ehtimalı yetərincə real görünən komandanın çalışdırıcısı matçın ardından baş tutan mətbuat konfransında belə danışıb: "Tarixə düşmək istəyirdik, amma belə nəticə qazanacağımızı düşünmürdük. Bosniya və Herseqovinadakı insanlardan o qədər mesaj almışam ki... Qayıdanda uğurumuzu azarkeşlərimizlə bayram edəcəyik. Əldə etdiklərimizlə qürur duyuruq. Bu matçda komandamın çıxışından çox razı qaldım. Oyunun böyük hissəsində üstünlük bizim tərəfimizdə idi və qələbəyə layiq olduğumuzu düşünürəm. Futbolçular meydanda xarakter göstərdilər. Təzyiq altında olsalar da, oyun planına sadiq qaldılar. Qrup mərhələsini qələbə ilə başa vurmaq vacib idi. İndi isə digər nəticələri gözləyəcək və diqqətimizi növbəti mərhələyə yönəldəcəyik".

## Pelenin rekordu təkrarlandı

Şotlandiya millisini 3:0 hesabı ilə üstələyən Braziliya yığmasının futbolçusu Neymar əfsanəvi həmyerlisinin rekordunu təkrarlayıb.



"Opta Sport" xəbər verir ki, matçın 76-cı dəqiqəsində meydana buraxılan 34 yaşlı forvard buna 4-cü mundialda oynamaqla nail olub. Daha öncə Calmo Santos, Pele və Kafudan başqa heç bir braziliyalı 4 dünya çempionatında mübarizə aparmayıb. Neymar DÇ-2014, DÇ-2018 və DÇ-2022-də də top qovub. O, yığma tarixinin ən yaxşı bombardiridir.

***Hazırladı: Dönməz ABBASOV***

# "AzerGold" QSC və onun törəmə şirkətlərinin 2025-ci ilin yekunlarına dair maliyyə nəticələri açıqlanıb




**"AzerGold" QSC-nin və onun törəmə şirkətləri - "Daşkəsən Dəmir Filiz" MMC və "AzerBlast" MMC-nin 2025-ci ilin yekunlarına dair maliyyə hesabatları açıqlanıb.**

Beynəlxalq nüfuzlu müstəqil auditor şirkəti - "Pricewaterhouse-Coopers" (PwC) tərəfindən aparılan maliyyə yoxlamaları nəticəsində müsbət auditor rəyi verilən maliyyə hesabatlarına əsasən, Səhmdar Cəmiyyətin və onun törəmə şirkətlərinin birgə maliyyə nəticələrində pozitiv tendensiyalar qeydə alınıb.

Ötən ili də yüksək gəlir və mənfəətlə başa vuran cəmiyyət bütün göstəricilər üzrə mövqeyini daha da möhkəmləndirib.

Ümumilikdə, 2024-cü illə müqayisədə satış gəlirləri (182,69 milyon ABŞ dolları) 2025-ci ildə **46%** artaraq **266,45 milyon ABŞ dolları** səviyyəsinə yüksəlib. Hesabat ilində qızıl satış qiymətinin **37%, ümumi satış həcmi 4%** artaraq, **73,3 min** unsiya qızıl və **93,2 min** unsiya gümüş təşkil edib. Bununla yanaşı, törəmə müəssisə olan "AzerBlast" MMC-nin ötən il üzrə fəaliyyəti də ümumi satış gəlirlərinin formalaşmasına təxminən 3% həcmində töhfə verib.

2025-cü ildə istehsalat həcmi və satış gəlirlərinin artması nəticəsində "AzerGold" QSC və onun törəmə şirkətlərinin əməliyyat mənfəətinin göstəricisi olan EBITDA (faiz, vergi və amortizasiya hesablanmazdan əvvəlki mənfəət) **58,52%** artaraq **142,48 milyon ABŞ dolları** səviyyəsində qeydə alınıb. Nəticədə xalis mənfəət 2024-cü il ilə müqayisədə **49,04 milyon ABŞ dolları,** yəni **148,5%** artaraq **82,06 milyon ABŞ dollarına** çatıb.

2025-ci ilin sonuna Səhmdar Cəmiyyəti və onun törəmə şirkətlərinin ümumi aktivlərinin dəyəri **573,63 milyon** ABŞ dollarına çatıb ki, bu da əvvəlki illə müqayisədə **17,5%** çoxdur.

Həmçinin "AzerGold" QSC və onun törəmə şirkətlərinin 2025-ci ildə xalis dövriyyə kapitalı **86,4%** artaraq **196,11 milyon ABŞ dolları,** ümumi kapitalı isə **22,3%** artaraq **489,05 milyon ABŞ dolları** təşkil edib.

"AzerGold" QSC və onun törəmə şirkətlərinin 2025-ci il üzrə maliyyə göstəriciləri qrupun yüksək maliyyə dayanıqlığının və effektiv maliyyə idarəetməsinin bariz sübutudur. Beynəlxalq təcrübədə dağ-mədən şirkətləri üçün borc/kapital nisbətinin **1,0** səviyyəsində olması qənaətbəxş göstərici hesab edildiyi halda, "AzerGold" QSC üzrə bu göstərici 2025-ci ildə **0,07**-dən **0,04**-ə enib. Bundan əlavə, hesabat ilinin sonuna şirkətin kredit öhdəlikləri tam şəkildə bağlanıb.


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN" qəzetinə abunə yazılışı davam edir!**

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Bilmək istəyirəm

*- İcarəyə götürülən torpaqda suvarma sistemi və digər xərcləri kim ödəməlidir, bir torpaq bir neçə nəfərə icarəyə verilə bilərmi və ümumiyyətlə, torpağın təyinatını (məsələn, əkinçilikdən tikintiyə) dəyişmək necə həyata keçirilir?*

***Bəhram HƏŞİMLİ,***
***Hacıqabul rayonu***

- Sualınız torpaq münasibətlərinə dair üç əsas məsələni əhatə etdiyindən hər birini ayrıca izah etməyi məqsədəuyğun hesab edirik. İlkin olaraq, icarəyə götürülən torpaq sahəsinin suvarma sistemi və digər xərclərinin kim tərəfindən qarşılanması məsələsinə gəlincə, bu hal ilk növbədə tərəflər (icarəyə verən və icarəyə götürən) arasında bağlanmış torpaq sahəsinin icarə müqaviləsi ilə tənzimlənir. Tərəflər bu kimi halları imzaladıqları müqavilədə müəyyən şərtlər kimi müəyyənləşdirə və həyata keçirə bilərlər. Təcrübəyə nəzər yetirsək, adətən, icarə müqaviləsində torpağı yararlı vəziyyətdə təhvil vermək icarəyə verənin, onu qorumaq və cari saxlamaq isə icarəçinin vəzifəsi kimi müəyyən edilir. Odur ki, gələcəkdə bu kimi hallarla üzləşməmək üçün icarə müqaviləsi bağlanan zaman torpağın yararlı vəziyyətə gətirilməsi (suvarma sisteminin quraşdırılması və s.) və müvafiq xərclərin hansı tərəfdən qarşılanması mütləq şəkildə nəzərə alınmalıdır.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 708.1-ci maddəsinə əsasən, icarəyə verən torpağı icarəçiyə müqavilə üzrə istifadəyə yararlı vəziyyətdə verməli və icarə müddəti ərzində onu həmin vəziyyətdə saxlamalıdır, bir şərtlə ki, bu məcəllənin 708.2-ci maddəsinə əsasən bu vəzifə icarəçinin öhdəsinə qoyulmasın.

Həmçinin məcəllənin 708.2-ci maddəsinin tələbinə görə, icarəçi icarəyə götürdüyü torpaqdan onun təsərrüfat təyinatına uyğun lazımi qaydada istifadə etməyə borcludur. O, icarəyə götürdüyü torpaqda olan əşyaların, o cümlədən yaşayış və təsərrüfat binalarının, yolların, arxların, drenaj sistemlərinin və hasarların adi təmirini öz hesabına aparmalıdır.

*İkincisi,* torpaq sahəsinin bir neçə nəfərə icarəyə verilə bilməsi məsələsinə gəlincə, bəli, bu, mümkündür. Lakin burada icarəyə verilmənin fərqli hüquqi formaları mövcud ola bilər. Belə ki, torpaq sahəsinin bir neçə nəfərə icarəyə verilməsi müştərək formada (birgə icarə) ola bilər ki, burada torpaq sahəsi eyni vaxtda vahid bir müqavilə ilə və ya bir-biri ilə uzlaşdırılmış şəkildə bir neçə şəxsə (məsələn, şərikli təsərrüfat quran iki tərəfdaşa və s.) icarəyə verilə bilər. Bu halda hər bir icarəçinin hüquq və vəzifələri, torpaqdan istifadə sərhədləri icarə müqaviləsində dəqiq göstərilməlidir ki, gələcəkdə tərəflər arasında hər hansı bir anlaşılmazlıq yaranmasın. Həmçinin başqa bir forma da mövcuddur ki, burada icarəçi götürdüyü torpağı (və ya onun bir hissəsini) başqa bir şəxsə icarəyə verə bilər. Lakin bunun üçün mütləq şəkildə mülkiyyətçinin yazılı razılığı tələb olunur. Nəzərə almaq lazımdır ki, mülkiyyətçinin icazəsi olmadan torpağı başqasına ötürmək müqavilənin ləğvini və zərərin ödənilməsini tələb etmək hüququ yaradır.

Mülki Məcəllənin 712.1.1-ci maddəsinə əsasən, icarəyə verənin razılığı olmadan icarəçi torpağı üçüncü şəxslərin istifadəsinə verə bilməz. Məcəllənin 712.2-ci maddəsinə görə, əgər icarəçi icarəyə götürdüyü torpağı hər hansı üçüncü şəxsə ikinci əldən icarəyə verirsə, həmin üçüncü şəxsin istifadə zamanı baş vermiş təqsiri üçün, hətta icarəyə verənin ikinci əldən icarəyə razılıq verdiyi halda da məsuliyyət daşıyır.

*Üçüncüsü,* torpağın təyinatının dəyişdirilməsi məsələsinə gəlincə, Mülki Məcəllənin 712.3-cü maddəsi ilə icarəçi icarəyə götürdüyü torpağın təyinatını yalnız icarəyə verənin qabaqcadan icazəsini almaqla dəyişdirə bilər. İcarəyə götürülmüş torpaqdan istifadənin əvvəlki növünü dəyişdirmək üçün icarəyə verənin qabaqcadan razılığını almaq yalnız o halda tələb edilir ki, bu dəyişiklik icarə müddətindən sonra istifadə növünə təsir göstərsin. İcarəçi tikinti aparmaq üçün icarəyə verənin qabaqcadan icazəsini almalıdır. İcarəyə verən icazə verməkdən imtina etdikdə icarəçinin müraciəti ilə bu icazə məhkəmənin qərarı ilə əvəz oluna bilər. Bu zaman dəyişiklik torpağın rentabelliyinin qorunması və ya sürəkli yaxşılaşdırılması üçün yararlı olmalı və icarəyə verənin qanuni mənafelərinə zidd olmamalıdır. Əgər icarə müqaviləsi ləğv edilərsə və ya icarə hüquq münasibətlərinə üç ildən də tez xitam verilərsə, bu müddəa tətbiq edilmir. İcazə məhkəmənin müəyyən şərtlərin və ya öhdəliklərin yerinə yetirilməsi ilə bağlı qərarı ilə əvəz edilə bilər. Məsələn, məhkəmə təminat verilməsi barəsində sərəncam verə bilər, habelə təminatın növünü və həcmini müəyyənləşdirə bilər. Əgər təminatın verilməsi üçün əsas aradan qalxarsa, tərəfin müraciəti ilə məhkəmə təminatın qaytarılması barədə qərar qəbul edə bilər.

**Sualı cavablandırdı:**
**Paşa SƏFƏROV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

BEYNƏLXALQ HƏYAT

# ABŞ və İran tarixi şansı necə dəyərləndirəcək?

ABŞ Prezidenti Donald Tramp və İran Prezidenti Məsud Pezeşkian tərəfindən imzalanan Anlaşma Memorandumu döyüşləri dayandıraraq Yaxın Şərqdə uzunmüddətli sabitliyin bərqərar olmasına şərait yaratdı. İndi hər iki tərəf bu razılaşmanı öz ictimaiyyətinə diplomatiyanın böyük qələbəsi kimi təqdim edir. Bəs yeni mərhələ tərəflərə hansı müsbət imkanları vəd edir və qarşıdakı 60 günlük dialoq mühiti regionun taleyini necə dəyişə bilər?



Bu memorandum Vaşinqton və Tehran arasında yeni bir mərhələnin başlanğıcıdır. Regional güclər prosesə fərqli yanaşırlar. İran bu sazişə ağır sanksiyalar və hərbi təzyiqlər dövründə imza atdı. Sazişin iqtisadi tərəfi İran üçün önəmlidir. ABŞ dəniz blokadasını qaldırır. Həmçinin İranın dondurulmuş pulları mərhələli şəkildə geri qaytarılır. Bu addımlar ölkənin maliyyə sisteminə kömək edə bilər. Sanksiyaların yumşaldılması isə xarici ticarəti canlandırır. Region ölkələri və donorlar İrana kömək etməyi planlaşdırır. Təxminən 300 milyard dollarlıq bir bərpa planı gündəmdədir. Bu plan infrastrukturun təmirinə və yeni iş yerlərinin açılmasına kömək edə bilər.

İran Hörmüz boğazının və qlobal ticarət yollarının təhlükəsizliyinə zəmanət verir. Bu öhdəlik onun regionda məsuliyyətini daha da artırır. Vaşinqton üçün isə bu saziş Prezident Donald Trampın vədlərinə uyğundur. Ağ Ev hərbi hədələri diplomatiya ilə əvəz etdi. Bu addım həm ölkə daxilində, həm də dünyada Tramp administrasiyasına siyasi xallar qazandırır. Tramp regional müharibələrdən çıxmaq istəyir, Amerikanın resurslarını daxili iqtisadiyyata yönəltməyə çalışır.

Hörmüz boğazının təhlükəsizliyi çox vacibdir. Bu, qlobal neft qiymətlərini sabitləşdirir. Eyni zamanda ABŞ-də inflyasiya təzyiqini azaldır. Belə vəziyyət Trampın daxili iqtisadi islahatlarına kömək edir. ABŞ vitse-prezidenti Cey. Di. Vens bu prosesi "reallıqlara əsaslanan barışıq" adlandırır.

İmzalanan memorandum yekun sülh sənədi olmasa da, çətin mövzuları müzakirə etmək üçün verilən 60 günlük bir möhlətdir. Bu müddət həm Vaşinqton, həm də Tehran üçün səmimiyyət sınağı olacaq. İki ay ərzində tərəflər qarşılıqlı inamsızlığı azaltmalıdırlar. Ən çətin texniki mövzu İranın nüvə proqramıdır. MAQATE müfəttişlərinin obyektlərə sərbəst girişi məsələsində tərəflər razılığa gəlməyiblər.

İndiki vəziyyət göstərir ki, hər iki tərəf müharibə və sanksiyaların ağır ziyan vurduğunu başa düşür. Liderlər isə güzəştə getməyə hazır görünürlər. Bu addım dünya siyasəti üçün müsbət bir siqnaldır. 60 gün isə Yaxın Şərqdə dinc yanaşı yaşamaq üçün tarixi bir şansdır. Region indi böyük bir böhrandan çıxır. Tərəflər iqtisadi maraqlara əsaslanan yeni bir mərhələyə başlayırlar. İndi əsas vəzifə bu tarixi şansı yekun real sülh müqaviləsinə çevirməkdir.

***Təhminə VERDİYEVA,***
***"Azərbaycan"***

# Venesuelada dəhşətli zəlzələ baş verib

## Ölkədə fövqəladə vəziyyət elan edilib



Venesuela paytaxtının qərbində 7,2 və 7,5 bal gücündə iki güclü zəlzələ baş verib. Zəlzələlər Karakasda binaların uçmasına səbəb olub və mütəxəssislər çoxlu sayda itki olacağını proqnozlaşdırırlar.

ABŞ Geoloji Xidmətinin (USGS) məlumatına görə, ikinci zəlzələ birincidən bir dəqiqədən az müddət sonra baş verib. Birinci zəlzələnin episentri ölkənin Karib dənizi sahilindəki Moron şəhərinin qərbində - Karakasdan təxminən 168 kilometr qərbdə, 22 kilometr dərinlikdə yerləşib. İkinci zəlzələnin episentri isə 10 kilometr dərinlikdə Morondan 16 kilometr cənub-qərbdə qeydə alınıb.

Karakasda ilkin hesablamalara görə, 164 nəfər ölüb, 1000-dən çox insan yaralanıb. Bildirilib ki, ölən və yaralananların sayı 10000 ilə 100000 nəfər arasında ola bilər.

Venesuela prezidentinin səlahiyyətlərini icra edən Delsi Rodrigez fövqəladə vəziyyət elan edib. O, həmçinin zəlzələnin vurduğu ziyana görə Karakas Beynəlxalq Hava Limanının bağlandığını bildirib. Rodrigez həmçinin ölkədəki bütün səhiyyə işçilərini zərərçəkənlərə kömək etmək üçün xəstəxanalara getməyə çağırıb.

Amerika qitəsində yerləşən digər ölkələrin səlahiyyətliləri Venesuelaya başsağlığı və dəstək verir. Onların arasında ABŞ Prezidenti Donald Tramp da var. O, "Truth Social" sosial şəbəkəsində yazıb: "Yenicə Venesuelanın böyük xalqını vuran iki böyük zəlzələ nəhəng miqyasdadır və çoxlu sayda insanın həyatına son qoyub. ABŞ kömək etməyə hazırdır, istəyir və qadirdir! Mən hökumətimizin bütün departamentlərinə təcili tədbirlər görməyə hazırlaşmağı tapşırmışam. Biz yeni və böyük dostlarımıza yaxın olacağıq".



***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Həftəsonu hava şəraiti qeyri-sabit keçəcək

Həftəsonu ölkə ərazisində hava şəraitinin qeyri-sabit keçəcəyi, fasilələrlə yağıntılı olacağı gözlənilir.

Bu barədə AZƏRTAC-a Milli Hidrometeorologiya Xidmətinin rəis müavini Gülnarə Abbasova məlumat verib.

O bildirib ki, iyunun 26-sı günün ikinci yarısında Bakıda və Abşeron yarımadasında yağış yağacağı, 27-si axşamdan 28-i səhərədək isə leysan xarakterli olacağı proqnozlaşdırılır. Gecə saatlarında yağışın qısamüddətli intensivləşəcəyi ehtimal edilir. Yağıntılı hava şəraitinin iyunun 28-i




gündüz saatlarınadək davam edəcəyi gözlənilir. İyunun 28-də güclü şimal-qərb küləyi əsəcək.

"Azərbaycanın rayonlarında fasilələrlə müşahidə olunan yağıntılı hava şəraitinin iyunun 29-dək davam edəcəyi proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə yağıntıların intensiv və güclü olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, çaylarda sululuğun artacağı, bəzi dağ çaylarında isə qısamüddətli daşqın və sel hadisələrinin baş verəcəyi ehtimal olunur", - deyə xidmətin rəis müavini bildirib.

Onun sözlərinə görə, ölkə ərazisində gözlənilən yağıntılı və qeyri-sabit hava şəraiti ilə bağlı yenilənmiş məlumatlar mütəmadi olaraq ictimaiyyətə təqdim ediləcək.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasının professor və müəllim heyəti Azərbaycan Respublikasının Ali Məhkəməsinin hakimi Ələsgər Novruzova anası

**ƏDİLƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 3778
Sifariş 810
Qiyməti 60 qəpik